ZƏLİMXAN YAQUB

ƏSƏRLƏRİ

ON ÜÇ CİLDDƏ



“Şərq-Qərb”
Bakı – 2012



Şöhrət qapısını döyən hər kəsin
Gecikmiş, qismətini vaxtına düşər.
Hər əsri ilə çatmaz bir zirvəsi var,
O da bir şairin baxtına düşər.

Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, VII cild.
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2012, 424 səh.

Tərtib edəni və
redaktoru: **Musa NƏBİOĞLU**

Xalq şairi Zəlimxan Yaqubun on üç cildlik əsərləri külliyyatının VII cildində əsasən yaradıcılığının ilk illərində yazdığı və indiyədək heç bir kitabında çap olunmayan şeirləri daxil edilmişdir.

ISBN 978-9952-34-903-0

Şərq Qərb East West
1986-cı ildən since 1986

www.eastwest.az
www.fb.com/eastwest.az

© Zəlimxan Yaqub, 2012
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2012

BAHAR OLDU, BAHAR OLDU

Dağ döşündə qar əridi, suya döndü, düzə çıxdı,
Bənövşələr baş qaldırdı, torpaq altdan üzə çıxdı.
Sarı bülbül qəfəsindən oxtək süzə-süzə çıxdı,
Bəzəndi dağların hüsnü, bahar oldu, bahar oldu.

Könül mülkü qanadlandı, bəm havalar zilə düşdü,
Boz aranın, göy yaylağın mahnıları dilə düşdü.
Qayaların damarından sular gilə-gilə düşdü,
Cilvələndi tər çiçəklər, bahar oldu, bahar oldu.

Qızıl Günəş öz nurunu ürəklərə taxdı gəldi,
Sonalar qıy vura-vura mavi gölə axdı gəldi.
Şair könlüm, pərvaz eylə, ucalmağın vaxtı gəldi,
Çiçəkləndi dağ, dərə, düz, bahar oldu, bahar oldu.

1968, 2 aprel

CAVANLIQ

Cavanlıq qüvvətdi,
cürətdi, sürətdi.
Həyatın insana verdiyi
ən böyük nemətdi.
Təravətli çiçəkdi,
Alovlu şimşəkdi.
Şimşək kimi çaxışı var.
Ümman kimi fırtınası,
dərya kimi axışı var.
Dərələri, təpələri düz eyləyən
nərəsi var.
Gur səsi var,
Od püskürən nəfəsi var.
İllər boyu yorulmadan
yaratmağa həvəsi var,
həvəsi var!

1968, 3 aprel

ANAM AĞLAYANDA

Dedim, qəmsiz insan yoxdu dünyada,
İnsan bir bu qədər ağlamaz, ana!
Köhnə yaraları gətirib yada,
Övlad ürəyini dağlamaz, ana!

Şikayət edirsən öz taleyindən:
“Anam ölüb getdi, bəs atam hanı?!
Ata qayğısına çox həsrətəm mən,
Onlardan aldığım arzu-kam hanı?!”

Nəmli bulud kimi dolursan hərdən,
Özün öz halına layla çalırsan.
Vaxt olur yorulub, dincəlib bəzən
Xəyallar qoynunda fikrə dalırsan.

Qardaş baxışları yada düşəndə,
Süzülür gözündən yaş gilə-gilə.
Kədərdən bir dünya yaranır səndə,
Sonra bayatını çəkirsən zilə.

Bir at mindim, başı yox,
Bir çay keçdim, daşı yox.
Cavan yaşlı ananın
İstəkli qardaşı yox.

Ana, əziz ana, neyləyim ki, mən
Nə atan, nə anan, nə qardaşın var.
Ah-vay fayda versə onu bil ki, sən
Ağlaram, yaşımdan dərya yaranar.

Gül, ana, gül, ana, ağlama, bəsdi,
Axı ağlamağın nədi faydası.
Deyinmək, sızlamaq artıq əbəsdi,
Belədi dünyanın qanun-qaydası.

Gül, ana, gül ana, ürəkdən sevin,
Bir cüt nazlı qızın, üç əsgərin var.
Övlad nəfəsiylə isinir evin,
Əmələn daha da olur bəxtiyar.

1968, 4-5 aprel

MƏHƏR DAYI

El gülər üstümə, qaytarma məni,
Bu gün icazə ver, ay Məhər dayı.
Uğura çıxmışam, qırma könlümü,
Nahaqdan qaldırma hay, Məhər dayı.

Sən mənə qıymadın bir quru şələ,
Meşənin qoynuna saldın vəlvələ.
İnan ki, yadımdan çıxmayıb hələ,
Dolanıb neçə yaz, yay, Məhər dayı.

Başın şişir, tez girirsən sərinə,
Qarışmırsan elin xeyir-şərinə.
Ya məni qoy bir insanın yerinə,
Ya özünü kişi say, ay Məhər dayı.

Səninki bir qarın, bir də bədəndir,
İşə-gücə yaramırsan, nədəndir.
İnsan bir gün gələn, bir gün gedəndir,
Eyləmə hörmətini zay, Məhər dayı.

YETƏR

Nazlı qız, üzümü danlama, bəsdi,
Hər keçəni üzə vurmağın yetər.
Deyirəm səhv etdim, bağışla məni,
Deyirsən boynunu burmağın yetər!

Deyirəm, demişəm, deməmiş olum,
Deyirsən küsdürdün, tərpənmir qolum.
Deyirəm yola sal, uzaqdı yolum,
Deyirsən min kələk qurmağın yetər!

Deyirəm qəlbimi etmə gileyli.
Deyirsən könlümün başqadı meyli.
Deyirəm gecədən keçibdi xeyli,
Deyirsən hədərdi, durmağın yetər!

1968, 6 aprel

BİZƏ GƏLDİ

Axşamüstü alagözlü bir gözəl,
Gətirdi əlində pay, bizə gəldi.
Baxdım camalına, qamaşdı gözüm,
Sandım bədirlənmiş ay bizə gəldi.

Günəşdən ötgündü göyçək camalı,
Dəryadan dərindi ağlı, kamalı.
Bəyaz buxağına zinətdir xalı,
Qaşı ox, kirpiyi yay, bizə gəldi.

Qondu o gözələ könlümün quşu,
Görənin az qalır məhv ola huşu.
Can alır ceyrantək nazlı duruşu,
Hüsnü Züleyxaya tay bizə gəldi.

1968, 7 aprel

AY GÖZƏL

Çox danışan bilib danlama məni,
Sənlə söhbətim vardı, ay gözəl.
İzin ver hüsnünü tərif eyləyim,
Sinən dağlardakı qardı, ay gözəl.

Dili gətirənsən ləzzətə, tama,
Kimə qismət olsan, o çatar kama.
Əndamın pambıqdı, qoynun şamama,
Ağ məmələr dəymiş nardı, ay gözəl.

Qoynunda ətri var mixəyin, hilin,
Qaymaqdı dodağın, şəkərdi dilin.
Qədirbilən ola barı sevgilin,
Görməyəm ki, yerin dardı, ay gözəl.

1968, 8 aprel

BORÇALI LÖVHƏLƏRİ

Gəzirəm, gəzdikcə ürək deyir yaz,
Düşün, təsvir eylə gördüklərini.
Ürək hökm edəndə yazmasam olmaz,
Gərək axıdasan alın tərini.

Yollar kənarında söyüdlər, şamlar,
Baş-başa dayanıb, cərgə-cərgədi.
Burda çox füsunkar olur axşamlar,
Hər ağac kölgəsi bir düşərgədi.

Hücuma başlayan qəhrəman kimi,
Yazda nərə çəkib coşanda Xram,
Min bir hava çalır qəlbimin simi,
Mən də çağlayıram, mən də axıram.

Sadaxlı, Qaçağan keçir gözümdən,
Baxdıqca hər yana, nələr görürəm.
Hər daşı, torpağı seyr edirəm mən,
Elə bil kənd deyil, şəhər görürəm.

Şairə, rəssama istedad verir,
Kim olmaz bu yerin hüsnünə heyran.
İnsanın eşqinə qol-qanad verir,
Qayalarda kəklik, düzlərdə ceyran.

Gəzib-dolanıram doğma Vətəni,
Dağlar əlçatmazdı, dərələr dərin.
Hər qaya özünə cəzb edir məni,
Bura beşiyidi gözəlliklərin.

1968, 10 aprel

AXŞAM-AXŞAM

Vurğunu olduğum, a nazlı ceyran,
Küsdürsən könlümü al, axşam-axşam.
Səhər bəzən, səhər oyna, səhər gəz,
Qolunu boynuma sal, axşam-axşam.

Öyrən yol-ərkanı, bizə sonra gəl,
Sığal ver, hüsnünü bəzə, sonra gəl,
Sürmə çək kirpiyə, gözə, sonra gəl,
Məhəbbət sazını çal, axşam-axşam.

1968, 13 aprel

QABAĞINDA

İnsan oğlu, ayaqlama hörməti,
Yanaq qızarmasın söz qabağında.
Hər kəsin vicdanı olsun məhkəmə,
Görsün həqiqəti öz qabağında.

İnsanın taleyi olmasın qara,
Uçurmayaq könül, vurmayaq ara.
Hiyləni, fitnəni çəkdirək dara,
Həyat məhv olmasın göz qabağında.

1968, 23 aprel

HƏYATDA İNSAN KİMİ YAŞAMAQ İSTƏYİRƏM

Lal duran, tərpənməyən, danışmayan, dinməyən,
Qarlı qışda üşüyüb, baharda isinməyən,
Torpağının adıyla fəxr edib, öyünməyən,
Doğma yurda bağlanıb, xalq üçün döyünməyən,
Ürək nəyimə gərək!
Qoy məhv olsun o ürək!
Belə qəlbi həyatda yaşatmayaq, öldürək!
Bir yıxılan görəndə baxıb ləzzət almayaq,
Dəliyə ağıl verək, gülüşüb əl çalmayaq,
Həqiqəti yaşadaq, həyatda alçalmayaq!
Üzə gülüb, arxada hiylə qurub, şər qurub,
Yalana doğru deyib, nahaqdan üzə durub,
İki dost ürəyinin arasına girməyək!
Faydasız işdən ötrü vicdanı itirməyək!
Vicdanımı unudub itirmək istəmirəm!
Təmtəraqsız bir ömrü bitirmək istəmirəm!
Nəyə lazım o həyat!
Günəşsiz bir Kainat!
Qəlbi kinlə doldurub, dumanlara bürünüb,
Hələ diriykən ölüb, ayaqlarda sürünüb,
Yaltaq olub, əyilib, uzanmaq istəmirəm!
Özümü başqasından baş tutub, üstün sayıb,
Ömrü hədər keçirib, məhəbbətsiz yaşayıb,
Müftəxorluq içində kef sürmək istəmirəm!
Ayı, ili mənasız ötürmək istəmirəm!
Qolumun qüvvətiylə, öz alnımın təriylə,
İşimlə, zəhmətimlə, ağlımın hünəriylə,
Coşqun məhəbbətimlə, qaynar olan qanımla,

Xeyirxah əməlimlə, ləkəsiz vicdanımla,
Xalqımın nəzərində ucalmaq istəyirəm!
Məharətdən, əməkdən güc almaq istəyirəm!
Qardaşlığı yaşadıb, qəlbi qəlbə bağlayıb,
Fəlakətin ömrünü səadətlə dağlayıb,
Həyat döyüş yoludu – nə durub, nə dincəlib
Hər sevimli bayram yüksəlişimlə gəlib,
Təbiətin, sənətin önündə baş əyirəm,
Həyatda insan kimi yaşamaq istəyirəm!

1968, 15-18 aprel

A GÖZLƏR

Üzüldün, süzüldün məni görəndə,
Nazlana-nazlana baxdın, a gözlər.
Gah xəyala daldın, gah da oyandın,
Qəlbimi odlara yaxdın, a gözlər.

Baxışın cəlladdı, tökdü qanımı,
Unutdum özümü, öz vicdanımı.
Apardın ağlımı, aldın canımı,
Şimşəklərə döndün, çaxdın, a gözlər.

Süzgünlük bir adət olanda səndə,
Əzilmək, sıxılmaq yarandı məndə.
Amandı, könlümü yıxma deyəndə,
Qaynar bulaq oldun, axdın, a gözlər.

1968, 22 aprel

BALLI BULAQ

Günəşli bir gündə, bahar çağında,
Mən də qonaq oldum Ballı bulağa.
Lökün dərəsində, çay qırağında,
Axır gözlərindən nur yağa-yağa.

Ruhuna sərinlik verir hər kəsin,
Başının üstündə cüt moruq tikən.
Ləkəsiz ürəyi bizdən küsməsin,
Onun təsvirini verək vaxt ikən.

Haça ağcaqayın qanad gərərək,
Otuna, suyuna kölgə salıbdı.
Belə mənzərədən doyarmı ürək?!
Yolçular bu yerdən ləzzət alıbdı.

Duyub ləzzətini, duyub dadını,
Ovçular gözündən içib doyublar.
Suyun bal kimidi, sənin adını,
Bəlkə, ona görə Ballı qoyublar.

Hər səhər, hər axşam, yayda, payızda,
Suyundan içməyə qonaqlar gəlir.
Çimir sularında oğlan da, qız da,
Axır dəstə-dəstə uşaqlar gəlir.

Üst yanın qüzeydi, alt yanın dərə,
Hüsnünə heyrandı hər gəlib-gedən.
Qonağın olmuşam bir neçə kərə,
Adi daşıyın da vurğunuyam mən.

Nazlana-nazlana çağla, cilvələn,
Hüsnün, gözəlliyin daim var olsun.
Gedirəm eşqinə nəğmə deyim mən,
Sənə də bu şeirim yadigar olsun.

1968, 21 aprel

PALID AĞACI

Faldaşın dərəsində,
yolun sağ tərəfində,
bir palıd ağacı var,
ağacların tacı var.
Yorulanda yolçular
kölgəsində dincəlib.
Onun qəddi-qaməti
hər insana xoş gəlib.
Ancaq, bu gün gövdəsinə
neçə balta dəymişdi.
Bəlkə ona görə də
qocalmaqdan deyil,
o aldığı bu yaradan
qamətini əymişdi.
Dedim: – Neçə yaşın var?
Soruşanda yaşını,
O dəm çatdı qaşını.
– Min il sürdüyüm ömür
bir anlıq oldu, – dedi,
Qəlbimə yara dəydi,
bütün aləm gözümdə
qaranlıq oldu, – dedi.
Əlləri qanlı cəllad,
Azad həyat düşməni,
ömrümü verdi bada.
Olmasaydı sinəmdə
balta açan yaralar,
min il yenə yaşardım
bu sehrkar dünyada.

1968, 29 aprel

NƏ SƏFALIDI

Gözəl təbiətə, gözəl dünyaya,
İnsanın baxmağı nə səfalıdı.
Bahar gecəsində zümzümə çalıb,
Suların axmağı nə səfalıdı.

Qayanın ucası, dağın göyçəyi,
Qalın meşələrin qara birçəyi,
Yaşıl çəmənlərin gülü, çiçəyi,
Qəlbinə taxmağı nə səfalıdı.

Quşlar oxuduğu nəğmənin səsi,
Bahar günlərinin isti nəfəsi,
Göyün gurlaması, göyün nərəsi,
Şimşəyin çaxmağı nə səfalıdı.

1968, 3 may

KƏNDİMİZ

Ey könül, izin ver, söhbət açım mən,
Doğma kəndimizin təbiətindən.
Gəzsin, seyr eyləsin düzlər boyunca,
Tarlaya, çəmənə baxsın doyunca.
Sözümü dinləsin ellər, obalar,
Görsün bu yerlərdə nə təmtəraq var.

Bostan üstə şamamanın, qovunun,
Qıvrılan, uzanan tağından deyim.
Barlı payızının, xoş baharının,
Ən şirin, ən gözəl çağından deyim.

Cüyür yerişindən, kəklik səsindən,
Qəlbə qanad verən mənzərəsindən,
Nərəli çayından, göy dərəsindən,
Zirvəsi dumanlı dağından deyim.

Ürəklərin soyumayan közündən,
Dodaqların söhbətindən, sözündən,
Qaynar bulaqların durna gözündən,
Almalı, armudlu bağından deyim.

Əyir budağını ərik, albalı,
Qurulur hər yanda gözəl bir çalı.
Tənəklər başını salır aşağı,
Qırmızı salxımlar bəzəyir bağı.
Günəşdən rəng alır, yanaqlanır nar,
Onun bahar qədər təravəti var.
Çınqıllı qayalar, göy meşəliklər,
Enişlər, yoxuşlar, dərələr, diklər,

Dovşanlı dolaylar, cüyürlü çöllər,
Bülbüllü bağçalar, sonalı göllər,
Nərə çəkən sellər, çağlayan sular,
Müqəddəs arzular, şirin duyğular,
Böyüdür insanda eşqi, həvəsi,
Ucaldır nəğməni, ucaldır səsi.
Gəl, ey dost, gəz dolan "Qara qüzeyi",
Ruhları məst edir çobanın neyi.
Göylərə baş çəkən "Lök"ün, "Ləlvər"in,
Havası dərmandı, suları sərin.
Çıxsan zirvəsinə "Qatar qaya"nın,
Səndən aşağıda durar hər yanın.
Xəyalı güldürür "Almalıq bağ"ı,
Ağıza dad verir "God"un bulağı.
Saçlara daraqdı səhərin mehi,
Otlara naxışdı buludun şehi.
Bu yerə vurğunam, hər şeydən əvvəl,
Suyunda inci var, torpağında ləl.

1968, 9 may

SƏADƏT NƏĞMƏKARI

Mikayıl Müşfiqə

İlhamı dövrandan, odu günəşdən,
Sürəti şimşəkdən alan şairim!
Rübabında məhəbbətin, ülfətin,
Elin havasını çalan şairim!
İncilər axtaran, incilər tapan,
Dərin dəryalara dalan şairim!
Qəlbi ehtiraslı, təbi Arazlı,
Əbədi dünyada qalan şairim!
Yaratdın, aləmə səs saldı adın,
Ucaldın şərəflə, şanla yaşadın!

Çoxları ad aldı, yazdı, yaratdı,
Sənətin gözünün nuru sən oldun!
Həyatı ləkəsiz, ürəyi təmiz,
Eşqi bulaqlardan duru sən oldun!
Muğamlar oxuyan gül dodaqların
"Segah"ı, "Qatar"ı, "Şur"u sən oldun!
Neçə sənətkarın coşdu ilhamı,
Onların coşqunu, guru sən oldun!
Cənnətə döndükcə Milin, Muğanın,
Tələtümə gəldin, qaynadı qanın!

Nə dincini aldın, nə də yoruldun,
Vaxta sığışmadın, röya bilmədin.
Xəyalın yelkənli, fikrin qanadlı,
Qələmi əlindən qoya bilmədin.
"Ah, sən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan" doya bilmədin.
Hər nə yazmısansa o həqiqətdi,
Şeirində yalançı boya bilmədin.

Axıtdın incitək alın tərini!
Göstərdin bəşərə öz hünərini!

Təbi dərya kimi coşan sənətkar,
Dünyaya sığmadı hünərin sənin.
Yer oldun, göy oldun, Kainat oldun,
Günəşdən rəng aldı səhərin sənin.
Sənət meydanında cövlan eylədin,
Bir an büdrəmədi kəhərin sənin.
Ürəkdən ürəyə axdı, yaşadı
"Sındırılan saz"ın, "Səhər"in sənin.
Aldın vüqarını işdən, əməkdən,
Doymadın dünyanı seyr eyləməkdən!

Bakımın, Gəncəmin canlı sənəti,
Oxu, tar! Oxu, tar! Oxu, tar! – dedin.
Səsindən ən lətif sözlər dinləyim,
Səni kim bircə an unudar, – dedin.
Çıxsın birdəfəlik söz meydanından,
Qəlbi məhəbbətsiz, fikri dar, – dedin.
Həyatda həm sevdin, həm də sevildin,
Soyumaz atəşim, odum var, – dedin.
Çaxdın şimşək kimi, axdın su kimi,
Açıldın ellərin arzusu kimi.

Ölməzlik qazandın qüdrətinlə sən,
Qəmlərin yükünü çiynindən atdın.
Güc aldın həyatın yüksəlişindən,
Saf əməl uğrunda qan-tərə batdın.
Yarışa çağırdın qəhrəmanları,
Səadət naminə dastan yaratdın.
Yazdın azadlığın nəğmələrini,
Səsini ellərin səsinə qatdın!
Şairim! Bu günsən, xoş gələcəksən!
Hələ yüksələcək, yüksələcəksən!

1968, 16-19 may

YAXŞI-YAMAN

Yaxşı adam yola çıxdı,
Yerişindən yol sevindi.
Dağa-daşa nəzər saldı,
Meşə güldü, kol sevindi.
Yön çevirdi səhralara,
Çəmən, çayır, çöl sevindi.
Yaman adam yola çıxdı,
Onu gördü bağ iyrəndi.
Bostanı gəzdi-dolandı,
Ayağından tağ iyrəndi.
Əl gəzdirdi budaqlarda,
Əlindən yarpaq iyrəndi.
Dedi: Çıxım zirvələrə,
Arzusundan dağ iyrəndi.
Yaxşıların söhbətindən
Qəlbin gülər, üzün gülər,
Ürəyinə nur süzülər.
Yamanların hər sözündən
Qaş çatılar, üz bürüşər.
Can alışar, dodaq yanar,
Ürəklərə ağrı düşər.
Yamanlara vermir aman,
Yaxşını yaşadır zaman!

1968, 4 sentyabr

SİNƏMDƏDİR

Həsəd aparmıram ayna sulara,
Çağlayan bulaqlar öz sinəmdədir.
Hələ dil açmamış, üzə düşməmiş,
Nəğmə sinəmdədir, söz sinəmdədir.

Xalqın yetirdiyi bara vurğunam,
Yurdumdakı xoş bahara vurğunam.
Odlar yurdu bu diyara vurğunam.
Atəşi soyumaz köz sinəmdədir.

Mənliyimdə iradə var, dözüm var,
Ürəyimdən ürəklərə sözüm var.
Həqiqəti yaxşı seçən gözüm var,
Hər şeyi düz görən göz sinəmdədir.

1968, 6 sentyabr

BİLMİRƏM

Ürkək maral kimi baxıb hər yana,
Nə üçün düşürsən huya, bilmirəm.
Gahdan ağlayırsan, gahdan gülürsən,
Mən sənin qəlbini duya bilmirəm.

Güləyən, oynağan şıltaq sevgilim,
Hər şeyi açıq de, dərdini bilim.
Sənincün ağzımda titrəyir dilim,
Səndən qeyrisinə uya bilmirəm.

1968, 7 sentyabr

DÖNÜR

Xəyal qanadlanıb, ilham coşanda,
Çəmənlər qarşımda varağa dönür.
Tənha dolaşanda göy dərələri,
Hər söz bir kəsərli yarağa dönür.

İzim dolaylardan açdıqca cığır,
Həvəs nə kiçilir, nə qəlbə sığır.
Qara tellərimi dağıdır, yığır,
Küləklər saçımda darağa dönür.

Qəlbimi saz kimi tutub çalanda,
Baxıb hər lövhədən qüvvət alanda,
Əlvan təbiəti seyrə dalanda,
Lalələr gözümdə çırağa dönür.

1968, 10 sentyabr

ŞEİRİM

Yazmışam, oxudum, mənası varmı,
Barı, ürəkləri aldımı şeirim?
Bilmək istəyirəm, uçub getdimi,
Oxucu qəlbində qaldımı şeirim?

Sənət yollarında addım atdımı,
Lövhə yaratdımı, ruha yatdımı,
Dillərdə gəzdimi, xalqa çatdımı,
Yoxsa, öz yanımda qaldımı şeirim?

Bulaq kimi süzüldümü, axdımı,
Axdısa, yerində iz buraxdımı.
Bu günümə, sabahıma baxdımı,
Özünə bir yuva saldımı şeirim?

1968

DOSTUM-DÜŞMƏNİM

O gün ki, dil açdım, gəldim həyata,
Ürək sözlərimi insana dedim.
Ayı qardaş sandım, Günəşi ata,
Bu qara torpağa mən Ana dedim.

Böyüdüm, düşüncəm qol-qanad atdı,
Könlümdə bir sevinc, bir də qəm oldu.
Onlar da böyüdü, kamala çatdı,
Hərəsi bir dünya, bir aləm oldu.

Yaxşıya-yamana yetirdim nəzər,
Göz qoydum hər böyük, hər adi şeyə.
Görməmək, duymamaq qəlbimi əzər,
Görməyi, duymağı bacarım deyə.

İradəyə baxdım, dözüm öyrəndim,
Sel kimi çağlayıb, yeltək əsmədim.
Asanı, çətini özüm öyrəndim,
Arzular tələsdi, mən tələsmədim.

O gün ki fikirlə yükləndi başım,
Gah ulduzum doğdu, gah çənim oldu.
Səadət ən böyük dostum, qardaşım,
Fəlakət ən böyük düşmənim oldu.

1968, 8 oktyabr

ŞAİRİN ÖMRÜ

Fikri beyinlərə, eşqi gözlərə,
Sözü ürəklərə axan sənətkar.
Qəlbini, hissini xalqa bağlayıb,
Böyük gələcəyə baxan sənətkar.
Səadət uğrunda, Vətən yolunda
Canını odlara yaxan sənətkar.
Yağılar önündə, düşmən başında
Şimşəklərə dönüb çaxan sənətkar.
Öz sənət mülkündə hələlik təksən,
Böyüyübsən, yenə böyüyəcəksən!

Sarayda keçsə də ömrünün çoxu,
Yoxsulun adını andın, a şair!
Söylədin: "Kor kimi qalmasın insan",
Onun həsrətiylə yandın, a şair!
Qacarla döyüşdün pəncə-pəncəyə,
Özünü pəhləvan sandın, a şair!
Dedin: Ölərəm ki, təslim olmaram,
Dönmədin yolundan andın, a şair!
Ölüm ayağında qorxu bilmədin,
Dağlar baş əyərdi, sən əyilmədin!

Şairim! Aləmi dolandı sözün,
Oymaq-oymaq gəzdi, ellərə düşdü.
Odlu ürəyindən qopan nəğmələr
Sədəflər qoynunda tellərə düşdü.
Yaşılbaş sonalar səni görəndə,
Qıy vurdu, çalxandı göllərə düşdü.
Eldarda yaranan o səs, o qüvvət
Sənin nərən idi, çöllərə düşdü.

Sazını Vətənin eşqiylə çaldın,
İlhamı, vüqarı torpaqdan aldın.

Sən bir Günəşsən ki, daim yanarsan,
Coşar, alovların sönməz dünyada.
Sən bir nəğməsən ki, min illər keçər
Varlığın heçliyə dönməz dünyada.
Sən bir fəzasan ki, dağlar alçalar,
Tufanlar qarşında dinməz dünyada.
Sən bir fəzasan ki, aylı-ulduzlu,
Xəyalın göylərdən enməz dünyada!
Bulanmaz bulaqsan, nadir incisən,
Azəri yurdunun şah sevincisən!

Sən mənim xalqımın uzaqgörəni,
Gələcəyə baxan gözüsən, Vaqif!
Odlar diyarının odu-alovu,
Yanar ürəyisən, közüsən, Vaqif!
Dünənin, bu günün, həm də sabahın
Ən böyük söhbəti, sözüsən, Vaqif!
O dağ duruşunda vətən görürəm,
Sən elə Vətənin özüsən, Vaqif!
Adınla fəxr edib, öyünür sənət,
Alqış hünərinə, ölməz məhəbbət!

Qeyd: *Şeir 1968-ci il noyabrın 23-də M.P.Vaqifin yubileyi münasibəti ilə yazılmışdır.*

SÖNƏN DEYİLƏM

Çəkinmə! Hünərlə gir ümmanlara,
Qorxuda bilməsin ləpələr səni!
Həqiqət, ədalət göyə qaldırar,
Yaltaqlıqla yalan ləkələr səni.
R.Acalov

Səfərə çıxmışam... ünvanım, adım,
Döndərməz yolumdan ləpələr məni.
Şimşəklər sürətim, yellər qanadım,
Yorammaz dərələr, təpələr məni.

Ürəkdən-ürəyə nur yolu çəkə,
Deyirəm, aləmdə səsim var ola.
Əgər vicdanıma düşsə bir ləkə,
İndidən məskənim dar məzar ola.

Səfərə çıxmışam, dilimdə andım,
Bu yoldan geriyə dönən deyiləm.
Yazıb-yaratmağı bir şərəf sandım,
Sularda qərq olsam, sönən deyiləm!

Əgər dediyimin üstə durmasam,
Zəhmətin canıma qoy qənim olsun.
Bu yolu hünərlə başa vurmasam,
Bütün bəşəriyyət düşmənim olsun!

Sənətə vurğunam, vurulacağam,
Nə qədər ömrüm var, nə ki, sağam mən!
Axıb bulaq kimi durulacağam,
Yaratmaq eşqiylə yanacağam mən!

1968, 28 noyabr

VAQİF

Məzardan dur, cövlan eylə, açılıbdır yaz, ey Vaqif!
Sən coşa gəl bülbül kimi, gözəl çəksin naz, ey Vaqif!
Könül coşsun, ruh oynasın, xəyal yeldən qanad taxsın,
Çal! Bir də çal, dilə düşsün sinəndəki saz, ey Vaqif!
Gərək təbiət verəydi sənə yüz insan ömrünü,
Bircə ömür eşqin üçün az deyilmi, az, ey Vaqif!
Odlu şair xəyalından küsər bugünkü gözəllər,
Qələm götür, ilhama gəl, onlar üçün yaz, ey Vaqif!
Deyir-gülür, bayramıdır Azərbaycan torpağının,
Bu günləri gözünlə gör, gəl eylə pərvaz, ey Vaqif!

1968, 29 noyabr

BABALAR

Dərd əzə bilmədi şah vüqarını,
Əzdi qəzəbiylə dərdi babalar.
Namərdə tuşladı güllələrini,
Sevdi, əzizlədi mərdi babalar.
Bir el qulaq asdı bir ağsaqqala,
Dar günə köksünü gərdi babalar.
“Tökdüyü yaşlara şeh dedi, getdi”,
Ömrünü torpağa verdi babalar.
Gözünün yaşına şeh deyənə bax,
Yamanda yaxşını gördü babalar.
Ot kökü üstündə bitər, demişlər,
Ərdən törəmişdi, ərdi babalar.

YAŞAMAQ HƏVƏSİ

Çəmənlər, çiçəklər, yarpaqlar, otlar,
Fidanlar yaşamaq həvəsindədi.
Dolana-dolana bağın başına,
Bağbanlar yaşamaq həvəsindədi.

Təbiət istəyir al-əlvan geyə,
Könül vurğun ola nəğməyə, neyə.
Ovçu nişan alır "öldürüm" deyə,
Ceyranlar yaşamaq həvəsindədi.

Qəlbi də, beyni də sıxmaq istəyir,
Ömrün axırına çıxmaq istəyir.
Kimisə, nəyisə yıxmaq istəyir,
Tufanlar yaşamaq həvəsindədi.

Günəşli səhəri, aylı axşamı,
Doya bilməsə də, seyr edir hamı.
Ey külək, söndürmə odlanan şamı,
Yananlar yaşamaq həvəsindədi.

MEŞƏ

Dağlar vüqarısa, çaylar eşqisə,
Anamız torpağın tacıdır meşə.
Qovurar, qızardar, közə döndərər,
Qızıl yarpaqların sacıdır meşə.

O, KÖNÜLDÜR

Sinəmdə bir dünya yatır,
Həm sevinci, həm qəmi var.
Eşq adlanan həmdəmi var,
Hər gün yanar güldür-güldür,
O, könüldür!

Oylaq olub bağlar ona,
İlham verib dağlar ona.
Sevən ümid bağlar ona,
Vursa – həyat, yansa – küldür,
O, könüldür!

Mən də haqsız, o da haqsız,
İnsaf eylə, nolar, ay qız.
Qırma onu, çalış güldür,
O, könüldür!

MƏN OLAYDIM

Əlində bir dəstə gül, dağdan düzə enəndə,
Gözəlin dodağında bayatı mən olaydım.
Payız toylar başlayıb, el arana dönəndə,
O istəkli dilbərin həyatı mən olaydım.

Rəssam olsa, lövhəsi, memar olsa, sarayı,
Şair olsa, qələmi, dəftəri mən olaydım.
Çataydı qulağına qəlbimin hay-harayı,
Alim olsa, ən böyük əsəri mən olaydım.

Nə qədər gözlərindən çəkilsəm də qırağa,
Əziz günü, bayramı, şənliyi mən olaydım.
Könlümü bənzədəydi şölə saçan çırağa,
Başının ucalığı, mənliyi mən olaydım.

Könlü istəyən yerə addımını atanda,
Hər dəqiqə, hər saat gərəyi mən olaydım.
Uzun sözün qısası,
Sinəsində döyünən ürəyi mən olaydım.

SAZ

Yuxuda gördüm dinir sinəmdə sədəfli saz,
Coşub nəğmə deyirəm, könlüm edibdi pərvaz.
Baş pərdədə qıy vurub səslənəndə “Sarıtel”,
Sandım ki, yaylaqdayam, gurladı dağlarda sel.
Dilləndirdim telləri “Yanıq Kərəmi” üstə,
Elə bil qəm calandı qəlbimin qəmi üstə.
Onda duydum, bu hava havaların şahıymış,
Od tutub yanan Kərəm məhəbbət allahıymış.
Ağlatmazdı, bəlkə də, dağdan ağır qəm məni,
Tellərdə qüdrətə bax, ağlatdı “Dilqəm” məni.
“Cəngi” zilə düşəndə
Elə bildim minmişəm Koroğlunun atına,
Lap ucaldı xəyalım göyün yeddi qatına.
Sanki Nigar soruşdu: “Dağlar, Eyvaz hardadı,
Üç ərənim, üç balam azaddı, ya dardadı?”
Oyandım sərsəm kimi, bu səsdən, bu nalədən.
Neylim, doya bilmədim o çağlayan bulaqdan,
tökülən şəlalədən.
Məndən ötrü hər hava şirinlikdə bal idi,
Ancaq həqiqət deyil, heyif ki, xəyal idi.

OLUR

Həyat qəribədir, budağın üstə
Həm qızılgül olur, həm tikan olur.
İnsan qəribədir, dodağın üstə,
Sevinc gül açanda, qəm tikan olur.

GÖZLƏR

Odur ulduzum da, odur ayım da,
Torpağam, mənimdi səmavi gözlər.
Mən ona bağlıyam, daha gözlərim
Nə qara axtarar, nə mavi gözlər.

MƏHƏBBƏTİMİZ

Sutək hər çuxura axan deyiləm,
Axsam, bir ürəyə axacağam mən.
On gözlə on yerə baxan deyiləm,
Sənin gözlərinə baxacağam mən.

Sevgimə göz yumma, kor qalar eşqim,
Sıxma kirpiyini, yaş düşər, gülüm.
Sənsiz kim yaşadar ürəyimi, kim,
Üzük taleyimdən qaş düşər, gülüm.

Gün var ki, mənası bir ilə əvəz,
İl var ki, bəxş edər sənə yüz ömrü.
Hələ insan nədir, daş da istəməz,
Sevgisiz həyatı, könülsüz ömrü.

Nələr çəkdiyimi bilmək istəsən,
Doğma ürəyinə cala qəlbimi.
Sənə də, mənə də ağ gün istəsən,
Sonra tonqal kimi qala qəlbimi.

Orda hənirtiyə yaxşı qulaq as,
Dinlə, sənin ləyəm deyən eşqimi.
Kül olsa, bir daha yandırmaq olmaz,
Köynəyi alovdan geyən eşqimi.

MƏNİM DƏRMANIM

Gördünüz ağır xəstəyəm,
Tamam axır nəfəsdəyəm,
Fikirləşib qəm yeməyin,
"Həkim çağırın" deməyin.
Verə bilməz təbib şəfa,
Qat-qat artar cövrü-cəfa.
Başqadı dərmanım mənim,
Çıxmamışkən canım mənim,
Saz gətirin, tar gətirin,
Könlümə bahar gətirin.
Ruh oynadan Habil hanı,
Deyin çalsın kamançanı.
Ədalət sazı dindirsin,
Ürəyimi sevindirsin.
Vaqifimdən gözəl deyin,
Vahidimdən qəzəl deyin.
Aradabir, hərdən-hərdən
Deyin gəlsin Ələsgərdən.
"Ala gözlərin görəndə,
Alışıram, yanıram mən".
Vurğunu gətirin yada,
Mən vurğunam o ustada.
"Dağlar"ından qüdrət alım,
Hər şerindən qüvvət alım.
Ürəkdən çıxsın dərdi-qəm,
Ondan sonra heç ölmərəm!

1969, 11 fevral

MƏKTUBLAR OLMASAYDI

Məhəbbətin həsrəti qəlbi ruhdan salardı,
Arzular uça bilməz, oylağında qalardı.
Saçlara dən tez düşər, insan tez qocalardı,
Məktublar olmasaydı.

Ürəklərin hər sözü dodaqlarda donardı,
Xəyal nə qanadlanar, nə mənzilə qonardı.
Hicran ayrılanları balta kimi yonardı,
Məktublar olmasaydı.

Eşqin qaynar bulağı quruyar, soğulardı,
Gözəllər yaş içində udqunar, boğulardı.
Sevincin əvəzinə təhlükə doğulardı,
Məktublar olmasaydı.

Qoynunda nə yaşadar həm sevinci, həm qəmi?
Nə olardı insanın təsəllisi, həmdəmi?
Nə gəzər, nə duyardı könül adlı həmdəmi?
Məktublar olmasaydı.

1969, 12 fevral

MƏNİM ŞEİRİM

Mənim şeirim qaranlıqlar dünyasına lərzə salıb,
Azadlığın səsini dalğa-dalğa ərzə salıb.
Nizamidən hikmət alıb,
Füzulidən qüdrət alıb,
Nə bir dəfə əsir düşüb, nə bir dəfə cilovlanıb.
Yeri gəlsə, Koroğlunun qılıncından kəskin olub,
Yaralara məlhəm olub, ürəklərə təskin olub.
Könüllərə axıb dolub Vaqifimin gözəlində,
Gözəlləşib, min gül açıb Vahidimin qəzəlində.
Hünərli bir çaya dönüb Vurğunumun nəfəsində,
Çiçəklənib, bahar olub Müşfiqimin həvəsində.
Mənim şeirim əbədidir, yaşamağa haqqı vardır,
Bünövrəsi ulu babam Xaqanidən yadigardır!
Təzə-tərdi, göy Xəzərdi, Kür, Arazdı mənim şeirim.
Aşıq Ələsgər adlanan telli sazdı mənim şeirim.

1969, 14 fevral

BU SAZ

Saza ağız büzən, dodaq çevirən,
Ellərin danışan dilidir bu saz.
Görüş təntənəli, həsrət ağrılı,
Həyatın bəmidir, zilidir bu saz.

“Sarıtel” sevinci, “Mansırı” qəmi,
“Şərili” çiçəkli dağlar aləmi.
Bir “El havası” var, ləngərli gəmi,
Gör neçə dalğanın gölüdür bu saz.

Hətəm səxavətli, Yusif camallı,
Dönməz əqidəli, yüksək amallı,
Bəzən Qurbanitək dərya kamallı,
Bəzən Məcnun kimi dəlidir bu saz.

“Hicran Kərəmi”də qar alır fəsli,
Ağlayıb Kərəmdən ayrılır Əsli.
Tahir məhəbbətli, Zöhrə həvəsli,
Sevginin odudur, külüdür bu saz.

Odu düşmənidir şaxtanın, buzun,
Tamı qardaşıdır çörəyin, duzun.
Yar deyib, yar gəzən şair Novruzun
Qəndaba uzanan əlidir bu saz.

Xalları çəməndə bənzəyir şehə,
Gülləri əl verib qarışır mehə.
Aşıq Zərnigarı Aşıq Valehə,
Çatdıran sevginin yoludur bu saz.

Onunla eyləyib sənətin şiri,
Ələsgər Talıbı, Qurban Şəmşiri.
Yüz dildə danışır pərdənin biri,
Sənətkar qəminin selidir bu saz.

"Borçalı" havası mahalın səsi,
Sevirəm bu səsdən doymayan kəsi.
Bizim aşıqların sevgi nəğməsi,
Bizim gözəllərin telidir bu saz...

1971, 18 sentyabr

BARMAQLAR

Həkimdə olanda həyat gətirər,
Xəstəyə şəfalı dərman yazarsız.
Cəlladda olanda ölüm yetirər,
Minlərin qətlinə fərman yazarsız.

1971, 17 sentyabr

QOCALIRIQ

Yanaqlar qızarır yaş çoxalanda,
Titrəyir yollarda diz, qocalırıq.
Bəzən səs veririk əbədiyyətə,
Bəzən də qoymuruq iz, qocalırıq.

Hanı o cavanlıq, dağları dələ,
Yüz əlləş, keçən gün gələrmi ələ.
Enişi, yoxuşu demirəm hələ,
Yoranda baldırı düz, qocalırıq.

Təbiət heç nəyi heç kəsdən almır,
Könül çalmadığı bir hava qalmır.
Bəs bu nədəndir ki, dünya qocalmır,
Həmişə dünyada biz qocalırıq.

1971, 18 sentyabr

BİR OLMUR

Dostum, gileylənmə yaddan, yaxından,
Əzəldən belədir, hamı bir olmur.
Hər kəsin evinin öz qibləsi var,
Çırağı bir olmur, şamı bir olmur.

Zaman dövr eləyir hər axşam-səhər,
Bir günü bal olur, bir günü zəhər.
Birində sevinc var, birində qəhər,
Hər günün ləzzəti, tamı bir olmur.

Zəlimxan söyləsin, bil, yavaş-yavaş,
Bir yerdə olarmı ayaq ilə baş.
Birində nəm hava, birində daş-qaş,
Həyatın sarayla damı bir olmur.

1971, 25 sentyabr

* * *

Nəğmə istəyirəm, elə nəğmə ki,
Eşqimə, ruhuma həmahəng ola.
Nəğmə istəmirəm odsuz, ürəksiz,
Könül küskün ola, qulaq dəng ola.

1971, 13 oktyabr

USTAD AŞIĞA

Ürəklər bu gün də əzizlər onu,
Nəğməli dillərin Ələsgəridir.
Çiçək mövsümündə, yaz aylarında,
Açılan güllərin Ələsgəridir.

Üstünə nur yağsın, ay dəli Qoşqar,
Sənətkar bu gün də sənինlə yaşar.
Adına yaraşan nəğmələr qoşar,
Kükrəyən sellərin Ələsgəridir.

Ay çərşənbə günü, ay bulaq başı,
Qoyma alagözün çatılsın qaşı.
Zamanla əkizdir şairin yaşı,
Ayların, illərin Ələsgəridir.

Adı zinətidir şərəfin, şanın,
Eşqi mayasıdır ürəyin, qanın.
O, bizim dövranın, bizim zamanın,
O, bizim ellərin Ələsgəridir.

1971, 19 oktyabr

MARAL

Səni xəstə görüb gələndən bəri,
Mənim də xəyalım xəstədir, Maral.
Yaman darıxmışam səndən ötəri,
Əlim ürəyimin üstədir, Maral.

Sağ-salamat qayıt xəstəxanadan,
Olmasın taleyin könlü qanadan.
Səni soruşuram qızdan, anadan,
O gündən qulağım səsdədir, Maral.

Gümrah ol, ürəyin qoy dönsün dağa,
Doyunca seyrə çıx bağçaya, bağa.
Sənintək çiçəyi qarşılamağa,
Çiçəklər əlimdə dəstədir, Maral.

1971, 4 noyabr

AŞIQ ABBAS

Qaytar o dağların qoynuna məni,
Şirin bir qaytarma çal, Aşıq Abbas.
Vurduğun xallara bir də vurulum,
Eylə söhbətini bal, Aşıq Abbas.

Nəğməsiz keçməsin ömrün bir anı,
Tapşır o tellərə ürəyi, canı.
"Dübeyti" üstündə "Alaçuxa"nı
Təzədən yadına sal, Aşıq Abbas.

Dindir nəfəsinlə torpağı, daşı,
Ucalsın göylərə sənətin başı.
Divarqan Abbasın körpə qardaşı
Ellərin qəlbində qal, Aşıq Abbas.

Könlünü toz basıb, qubar almasın,
İllər köhlənini yorğun salmasın.
Çıxa bilmədiyin zirvə qalmasın,
Aşa bilmədiyin yol, Aşıq Abbas.

Sözünə güc versin, söhbətinə can,
Qaraxaç, Başkeçid, Ləlvər, Ağlağan.
Məni də hər zaman öz yanında san,
Hərdən xəyallara dal, Aşıq Abbas.

Tellər qulaqların tökər pasını,
Seç oxu məclisdə sözün xasını.
Elə vur nadana söz yarasını,
Dəyməmiş tökülsün kal, Aşıq Abbas.

Vurulub, bağlanıb uca dağlara,
Çox gəlib bəzirgən, xoca dağlara.
Çağır Zəlimxanı qoca dağlara,
Olmamış saçları çal, Aşıq Abbas.

BİLMƏSİN

Amandı, çəkdiyim özümə yetər,
Nələr çəkdiyimi Araz bilməsin.
Mənə deməsin ki, niyə qəmlisən,
Vətən həsrətini yar az bilməsin.

Həqiqəti sevən, haqqa inanan,
Sevgini qəlbinin Allahı sanan,
"Şəbi-hicran" deyib yandıqca yanan
Füzuli dərdini tar az bilməsin.

Zəlimxan, öpərsən həmdəmi, yarı,
Silinər ürəyin dərdi, qubarı.
Gün gələr, əriyər dağların qarı,
Günəşin odunu qar az bilməsin.

1971, 7 oktyabr

QOŞMA

Həyatda hər şeyin öz qiyməti var,
Qızıl da lazımdır, mis də lazımdır.
Biri acılayar, biri yandırar,
Alov da lazımdır, his də lazımdır.

Qışın qış yeri var, baharın bahar,
Yayda dərman olur qışda yatan qar.
Dağlarda azmağın öz aləmi var,
Duman da lazımdır, sis də lazımdır.

Nə filə tapdaq ol, nə qarışqa əz,
Zəlimxan, hər zaman ayıq başla gəz.
Yamansız yaxşının qədri bilinməz,
Yaxşının yanında pis də lazımdır.

1971, 2 dekabr

ZƏLZƏLƏ

Ürəyi istəsə, tərpədər atını,
Titrədər torpağın ən dərin qatını.
Vüqarlı dağların endirər başını,
Gizlədər qoynunda tarixin yaşını.
Odlanar ən ağır dərdinin ahında,
Köksünü dərindən ötürən zəlzələ.
Qəzəbi tutanda silkələr dünyanı,
Aləmi çiynində götürən zəlzələ.
Enəndə dərədir, qalxanda dağ olar,
Torpağın qəlbində sağalmaz dağ olar,
Ünvanı, imzanı itirən zəlzələ.
Haqqı var öyünə, yaşada adını,
Kəpəzi göylərin fövqünə qaldırıb,
Göygölü dünyaya gətirən zəlzələ.

TƏBİİLİK

Bahar vaxtı gülən torpaq,
Süfrə açan çəmən olar.
Çiçəklərin şirəsini
Süzən olar, əmən olar,
Gül-çiçəyin təravəti
təbiidir.
Budaqlara bar yaraşır,
Zirvələrə qar yaraşır,
Uca dağın əzəməti təbiidir.

Şəfəqlərin hüsnünə bax,
Neçə rəngi, naxışı var.
Günəşin də, ulduzun da
Öz təbii baxışı var.
Göyün yerə məhəbbəti
təbiidir,
Təbiətin təbiəti
təbiidir.

1971, 20 oktyabr

ÖMÜR

Meyvəli payızlar, şaxtalı qışlar,
Ömür-gün bəzəyən naxış deyilmi?!
Alında düyünlər, üzdə qırışlar,
Ömür sərgisinə baxış deyilmi?!

Günəştək nurunu hər yana saçıb,
Dediyi zirvəyə ucalmağı var.
Fəslin baharında gül-çiçək açıb,
Fəslin payızında qocalmağı var.

1971, 6 noyabr

GETSİN, GƏLMƏSİN

Ağrılı günləri mən görməsəm də,
Duymuşam anamın çəkdiyi qəmdə.
Demişəm sözümü elə o dəmdə –
O aylar, o günlər getsin, gəlməsin!
O dağlar, düyünlər getsin, gəlməsin!

Gedənlər qırılıb, yarı gəlməyib,
Evin yaraşığı, varı gəlməyib,
Gör neçə gözəlin yarı gəlməyib,
O nakam məhəbbət getsin, gəlməsin!
O kədər, o həsrət getsin, gəlməsin!

Eh oğulsuz ata, qardaşsız bacı,
Dəyib qəlbinizə min ağrı-acı.
Bir də görünməsin qoltuqağacı,
41-in havası getsin, gəlməsin,
41-in davası getsin, gəlməsin.

1971, 15 noyabr

DÖNƏRDİM

Qəlbin desə idi qəlbim deyəni,
Sən gəzən dağlarda selə dönərdim.
Qovardım üstündən dumanı, çəni,
Saçını dağıdan yelə dönərdim.

Ruhları əllərdən almaq istəsən,
Nəğmənin heyranı olmaq istəsən,
Könlümü saz kimi çalmaq istəsən,
Sinəndə bir gümüş telə dönərdim.

Niyə bel bağladım sənintək qıza,
Gəzirəm qəlbimdən qan sıza-sıza.
Zəlimxan nə desin sən ilqarsıza,
Yerinə mən olsam, külə dönərdim.

1971, 17 yanvar

QILINC VƏ XƏNCƏR

Biri əyilməyib, biri əyilib,
Qılınc əyri olub, xəncər düz olub.
Niyə əyiləni tərifləyiblər,
Əyilməz tərifi ömürsüz olub.

1972, 8 yanvar

DOĞMAYAM

Heç yerdə, heç zaman deyiləm qərib,
Hara ayaq bassam, öz vətənimdir.
Əlim hər çəməndə gül-çiçək dərib,
Mən bu torpağınam, torpaq mənimdir.

DALĞANIN

Tanımır qorxu nə, ehtiyat nədir,
Yoxdu qabağında çəpər dalğanın.
Dənizin eşqini göyə qaldırar,
Olsa ürəyində təpər dalğanın.
Sevgiyə yaraşan sevgili kimi,
Sahil yanağını öpər dalğanın.

1972, 10 yanvar

QOŞMA

Elə hey deyirsən şeir yaz mənə,
Təpədən dırnağa şeirsən, ay qız.
Sənə verən verib bu gözəlliyi,
Sevgisən, fərəhsən, xeyirsən, ay qız.

Bozarmaq dumana, çənə yaraşır,
Saralmaq sünbülə, dənə yaraşır.
Qırmızı geyinmək sənə yaraşır,
Yaxşı ki, qırmızı geyirsən, ay qız.

Baxışın ocağın qaralmaz közü,
Hüsnünə baxanın nur alır gözü.
Sevdiyin kəlməni, dediyin sözü,
Lap mənim qəlbimdən deyirsən, ay qız.

1971

ŞAİRİ

Sızladar köz üstə düşən yağ kimi,
Kamanlar şairi, neylər şairi.
Gözəllik könlünü əlindən alıb,
Yolundan, izindən eylər şairi.

Ömr edər yaşamaq, duymaq eşqinə,
Səsini dünyaya yaymaq eşqinə.
Qəlbi bağlananda torpaq eşqinə,
Öpər, əzizləyər göylər şairi.

Onun qismətidir dağ da, yoxuş da,
Onun ürəyidir dolu da, boş da.
Anlayar arı da, çiçək də, quş da,
Anlamaz, anlamaz keylər şairi.

Dolanar həftələr, ötər fəsillər,
Azalar, çoxalar dağlarda sellər.
Gəldikcə dünyaya təzə nəsillər
Söylər sənətkarı, söylər şairi.

1971, 20-27 dekabr

MƏN KƏNDƏ GƏLMİŞƏM

Mən kəndə gəlmişəm, elimin yenə
Xeyrinə-şərinə yarayım deyə.
Çoxdan görmədiyim dostu-tanışı
Bir-bir yada salım, arayım deyə.
Səsləyim tarlada qızı, gəlini,
Tutsun o yerləri harayım deyə.
Mənim bu yerimdə, bu həvəsimdə
İlham da durmasın, köməyə gəlsin.
Olmasın əliboş, başıaşağı,
Söz desin zəhmətə, əməyə, gəlsin.
Necə ki, tükənən deyil arzular,
Necə ki, axdıqca tükənmir sular,
O elə çağlasın, o elə gəlsin
Nəğməsi bu eldən o elə gəlsin.
Mən kəndə gəlmişəm, unudularmı
Adı müqəddəsdir çörəyin, duzun.
Gəlmişəm görüşüm, könlünü alım
Bir qəlbi sınığın, bir oğulsuzun.
Mən kəndə gəlmişəm, yuvamdır bura,
Qartalın qədrini ucalar bilər.
Ocaqda vələsmi, palıdmı yanır
Tüstülü, dumanlı bacalar bilər.
Bu kəndin bu günü göz qabağında,
Dünəni, keçmişi qocalar bilər.
Sabahın qocası biz olmalıyıq,
Sabahın cavanı gözləyir bizi,
Zirək tərpənməli, tez olmalıyıq.
Hərə bir gələcək yaratmalıdır,
Nəğməyə dönməli, söz olmalıyıq.
Bir dənlə bir zəmi yaradır həyat,
Hər qarış torpağa göz olmalıyıq.

1971, 27 dekabr

KƏNDİMİZDƏ

Şəhərdə həmişə şəhər kimiyəm,
Kəndə qayıdanda kənd oluram mən.
Gülləri çox sevən səhər kimiyəm,
Çəmənə, çiçəyə bənd oluram mən.

A doğma ocağım, a doğma kəndim,
Odunu, hisini necə sevməyim.
Səni qəlbim kimi sevdim, bəyəndim,
Qəlbin istisini necə sevməyim.

Neçə cavan gəlin, ağbirçək qarı,
Məni qonaq edib kərəyə, bala.
Həmişə bu olub xoş arzuları:
"Axar su qapından axsın, ay bala!"

Dost-tanış yığışır ruhu gülər, şən,
Dostum, hər addımda qoçaq ol, deyir.
Mən kəndə gələndə "xoş gəldin" deyən,
Mən kənddən gedəndə "yaxşı yol" deyir.

Yenə gözəlliklər aləmindəyəm,
Sanki dağlar deyil, mən yüksəlmişəm.
Əliboş gəlsəm də, eyləmirəm qəm,
Ay ana, ürəyi dolu gəlmişəm.

Burdan bir gəncliyi aparsam da mən,
Ordan bir cavanlıq gətirdim sənə.
Hələ ki, düşməyib saçlarıma dən,
Cavankən özümü yetirdim sənə.

1971, 31 dekabr

YAMAN QOCALIB BABAM

Onu elə görəndə inanmadım gözümə,
O qırışan yanaq nə, o titrəyən əl nədir.
Gör bir, ey diliqafil, düşündüm öz-özümə,
Bahar sevən bağçaya düşən bu xəzəl nədir?

Ömrünə gah gün düşüb, gah dolu, yağış düşüb,
Həyatın yollarında enib, ucalıb babam.
Qocalmaram desə də, indi daha qış düşüb,
Günləri çatıb sona, axır qocalıb babam.

Mən yuxumu görürəm, yoxsa həqiqətmi bu?
Sevə-sevə yaradan insan qocalardımı?!
Qəlbi torpağa bağlı dağ oğlu, aran oğlu
Qocalsa da heç belə asan qocalardımı?!

Nədir onu qocaldan, son qisməti yeməmiş,
Toy gecəsi can verən bəy oğlunun yarası.
Toy evinə gələnlər gözün aydın deməmiş,
Başsağlığı verdilər, getdi ciyərparası.

Tər töküb, zəhmət çəkib bağ-bağat becərsə də,
Gör kişinin qəddini fikir nə yaman əydi.
Oğullar ataların itkisini görsə də,
Atalar oğul sarı bir itki görməyəydi.

1972, 7 yanvar

YOLLAR

Çatmaq istəyirəm şöhrətə, ada,
Yollara baxıram, dağdır, enişdir.
Keçib o yolları – kimin dünyada
Eşqi müqəddəsdir, qəlbi genişdir.

YENƏ BAHAR GƏLƏR

Bahar hər qarışı gülə döndərər,
Qarı gilə-gilə əridər yenə.
Kövrəldib yaşını selə döndərər,
Çayların üstünə yeridər yenə.

Şimşək qılıncını çəkər dağlara,
Daşların üstündə itilər yenə.
Külək yamaclara çəkər sığalı,
Sellər çəmənləri ütülər yenə.

Çaylar bulaqların görüş yeridir,
Öpər, bir-birini qucaqlar yenə.
Təbiət məst olar nəğmə səsindən,
Sevgidən söz açar dodaqlar yenə.

Günəşin nurunda həyat eşqi var,
Əridər şaxtanın buz ürəyini,
Sənət də, ilham da gül-çiçək açar,
Bahar gətirəndə öz ürəyini.

1972, 9 yanvar

ƏLƏSGƏRƏ

Unudulmaz el bəzəyi, el oğlu,
Hər gün onu saz dinlədi, saz andı.
Yaratdığı gəraylıda, qoşmada
Yüz il, min il şair ömrü uzandı.

Var oynayan, dümbək çalan, var aşıq,
Ustad aşıq hər məclisə yaraşıq.
Saz əhlinə, söz əhlinə yar aşıq,
Müqəddəsdi, bir ağsaqqal ozandı.

Yaxşı görsə, ocağına qalanan,
Yaman görsə, bağrı bişən, talanan,
Həmdəmiydi meyli Haqqa dolanan,
Düşməniydi kim yolunu azandı.

Ömür verib divarına, daşına,
Yaş artırıb sözümüzün yaşına.
Nanəcibin, müxənnətin başına
Sözü var ki, bircə qaynar qazandı.

El zərgərdi, eli seçdi, bəyəndi,
Eldən gəlsə, şöhrət göyə dəyəndi.
Dedilər ki, sinəsindən deyəndi,
Demədilər hecalayıb yazandı.

Nə Məcnuntək ürəkləri dağlayan,
Nə Kərəmtək yaş axıdıb, ağlayan,
Yeri gəlsə, çaylar kimi çağlayan,
Yeri gəlsə, nərə dönüb qızandı.

Qonaq oldu hər yurda, hər oymağa,
Tərif dedi Gülxanıma, Qaymağa.
Sənətində balı qatdı qaymağa,
El aşığı əbədiyyət qazandı.

1972, 17 yanvar

XATİRƏ

Yenə yadıma düşdü, o sərin yaz axşamı,
Eşqimin, həyatımın unudulmaz axşamı.
Sənինlə gəzdiyim gün
Baharıydı ömrümün.

Titrədikcə dodaqlar gül ətri qoxuyurdu,
Bütün varlıq, təbiət hey bizdən oxuyurdu.
Açılırdı çiçəklər,
Sevinirdi ürəklər.
Ulduzlar saçaq-saçaq hey yandıqca yanırdı,
Dünya sevincimizin başına dolanırdı.

1972, 30 yanvar

DÜNYA

İnsanın qəlbində həsrət olanda,
Yüz ilə döndərər yüz günü dünya.
Gətirər hər zaman yağı yağ üstə,
Lap candan eyləyər üzgünü dünya.

Haqqın sarayını vurar, uçurar,
Nahaqqın evində səltənət qurar.
Əyriyə min naxış, min bəzək vurar,
İynətək lüt qoyar düzgünü dünya.

Üzbəüz duranda yalanla gerçək,
Zəlimxan, doğrunun qılıncını çək.
Baxma ki, çirkinin günahkarıtək
Sındırır həmişə güzgünü dünya.

1971, 20 dekabr

ÜMİD BAĞLAYANDA...

Qayadan yaranır, daşdan yaranır,
Abbas yaxşı deyib, küldən dağ olmaz.
Ümid bağlayanda torpağa bağla,
Küllüyə bir ümid bağlamaq olmaz.

SƏNSİZ

Ürək, bir dəqiqə gəzə bilmərəm
Nə yamacı sənsiz, nə yalı sənsiz.
Ana təbiəti duymaq olarmı,
Yetimdir şairin xəyalı sənsiz.

1972, 10 yanvar

DAĞ EŞQİ

Qar zirvəmdə bəzək, gül ətəyimdə,
Torpağın qoynunda yüksələn dağam.
Ucayam, ucalmaq istəyənləri
Həmişə başımda saxlayacağam.

* * *

Eldən ilham alıb hər zaman, hər an,
Əlini hörmətlə sıxacağam mən.
Dərədən-dərəyə axan sel kimi,
Ürəkdən-ürəyə axacağam mən!

* * *

Fil adı verirlər sərçəyə bəzən,
Qara kəl deyirlər kəlçəyə bəzən,
Dözəmmirəm mən.

Adam var nöqtədir gözündə Vətən,
Qaza bülbül deyir, səhraya çəmən,
Dözəmmirəm mən.

Bunları eşidən, duyan ürəkdir,
Neyləyim, ürəksiz
Gəzəmmirəm mən.

1970, 28 oktyabr

* * *

Kökü baltalanmış ağaca döndüm,
Qupquru çürüyüb qaxaca döndüm,
Çiçəyi saralmış yamaca döndüm,
Sən qayıtmadın.

Bir suyu soğulmuş dəyirman oldum,
Həsrətdən əridim, yarıcan oldum.
Oğul deyə-deyə bağrıqan oldum,
Sən qayıtmadın.

Günəşin önündə nə hünəri var,
Gülməsin təbiət, əriməsin qar.
Ay oğul, qış getdi, qayıtdı bahar,
Sən qayıtmadın.

BİR VAXT

Bir vaxt uşaq idim, qürrələnərdim,
Özümü hamıdan yekə bilərdim.
Ən çətin işə də "asandır" deyib,
Həyatı bir yağlı kökə bilərdim.

Bir vaxt uşaq idim, fikirlərimdə
Yox idi yolların daşı-kəsəyi.
Cığırlar ən enli yolum olardı,
Dərib qoxlayardım gülü-çiçəyi.

İndi böyümüşəm, səmtim, səfərim,
Gah şəhərə düşür, gah da ki kəndə.
Heç yerə, heç yerə sığa bilmirəm,
Dünyamı kiçildi, mən böyüyəndə.

1972, 19 mart

NARAHAT OLMA

Səndə hünəri var yer ilə göyün,
Adınla, eşqinlə fəxr elə, öyün.
Arzuma çatıram, lap rahat döyün,
Ay ana ürəyi, narahat olma!

Göylər də əyilib üzündən öpər,
Ulduzlar nurunu üstümə səpər.
Gözümdə işıq var, qəlbimdə təpər,
Narahat olma!

Azmaram qoynunda dumanın, çənin,
Üstümdə gözü var ana Vətənin.
Qəlbim də, ruhum da sənindir, sənin,
Narahat olma!

Əriyib piltəyə can verən yağam,
Ümid çırağını yandıracağam,
Narahat olma!

DÜNYADA

Ürəyin bir dərya sevinci olsa,
Bir damla kədərdən azdı, dünyada.
Baş uca, qəlb açıq, üz gülər olsa,
Qış fəsli insana yazdı, dünyada.

1972, 15 avqust

NƏNƏMƏ

Cavan idin, kəlağayın ağ idi,
Yaraşırdı ağa qara tellərin.
Örpəyinin rəngi hopdu tellərə,
İllər keçdi, döndü qara tellərin.

1972, 10 avqust

QIYMASIN

Sevgilim, seyr edək sevdiyin bağı,
Nə kədər, nə həsrət bizə qıymasın.
Hələ çox arzumuz gözümüzdədir,
Həyat xoş arzulu gözə qıymasın.

Qaynar nəfəsinlə ömrü təzələ,
Bağçamız dönməsin tezcə xəzələ.
Payız da özünü saxlasın hələ,
Çiçəyi saraldıb, düzə qıymasın.

Sevgidən kam alsın doyunca ürək,
Biz də bu dünyada görək, götürək.
Deyin, küyə düşüb əsməsin külək,
Ocaq təzə yanır, közə qıymasın.

Qoy kökdən düşməsin bir qəlbin sazı,
Hər il bu həvəslə çağıraq yazı.
İllər əsirgəyib eşqi, avazı,
Bu şirin söhbətə, sözə qıymasın.

1972

QALAR

Qovuşmasaq, gül yanağın inciyər,
Dodağıma həsrət çəkən xal qalar.
Meylim, gözüm sənin kimi yardadı,
Məni oda üzündəki xal qalar.

Atan atdı, barı atma sənsarı
Yaram olsa, əllərinlə sən sarı.
Cavan könlüm küskün olsa, sən sarı,
Sən olmasan yenə onu xalq alar.

Tutduğunu çox da bilmə yar, asan,
Ürəyimdə bir sağalmaz yarasan.
Zəlimxanı sinəsindən yarasan,
Ömrün boyu ürəyində xal qalar.

1972, 13 aprel

BİLMİRƏM

Olan olub, tutduğuma peşmanam,
Məni yaxın yar alarmı, bilmirəm?
Təzələyib bir aldığım yaranı,
Bir də üstdən təzələrmi, bilmirəm?

Öz əlimlə kökdən saldım telimi,
Sevinərmi yar ağ görsə telimi.
Sızıldayan ürəyimin telimi,
Göz-göz olan yaralarmı, bilmirəm?

Ya eşqini imtahan et, ya sına,
Gəl bürünmə bir sevginin yasına.
Ay Zəlimxan, ya kövrələ, ya sına,
Sınıq könlü yar alarmı, bilmirəm?

1972, 16 aprel

DEDİM

Yolumdan saxladı bir gözəl məni,
Ovsundu ya gözlər, ya xallar, dedim.
Yetər təbiətin özü verdiyi,
Nə lazım üzünə yax allar, dedim.

Çoxdu qəlbin yandıranı, yaxanı,
Ol eşqimin ya sultanı, ya xanı.
Aşiqi yandırıb, açma yaxanı,
Səni də yandırıb-yaxallar dedim.

Deməsinlər ağa qara yamandı,
Qoy desinlər sevdiyi qız yamandı.
Göz-qulaq ol, dilə düşmək yamandı,
Nahaqdan bir ləkə yaxallar dedim.

1972, 17 sentyabr

ONDA

Rəva görmə, odum keçə, kül qala,
Kül olsam, oduna nə yanar onda.
Sevgi yoxsa, çırpınanda ürəyin,
Nəyi yada salar, nəyanar[1] onda.

Məni oda qalasan da, qan qala,
Gül-çiçək ol, gəl bənzəmə qanqala.
Yaralasan, çətin məndə qan qala,
Nə qəlbim alışar, nə yanar onda.

Sinənin üstünə biri sinəndə,
Yar yarla bir yanıb, bir isinəndə,
Biri üzdə olsa, biri sinəndə
Nəyə lalə deyim, nəyə nar onda.

1972, 10 iyun

[1] nəyanar – nəyi anar.

DAĞLAR

Qış keçəndə yağar yazın yağışı,
Qarışar axına, haraya dağlar.
Sellərin səsindən ayağa qalxar,
Çağırar aranı haraya dağlar.

Qanadı altında qar tala-tala,
Sənsən, layiq deyil qartala tala.
Əriyər sinəndə qar tala-tala,
Çəkər dərələrin haray, a dağlar.

Dillənsə yanında telli saz, ya tar,
Tellər layla çalar, qayalar yatar.
Qayalar dillənər, qayalar yatar,
Harayın yetişər haraya, dağlar!

1972, 14 iyun

YARI

Yaxın gəl, qadanı yar alsın sənin,
Nə qədər istəsən yarından yarı.
Qara keşiş təki qaralsın qanı,
Hər kəs ayrı salsa yarından yarı.

İnsanlıq eləyər, qanandı, sayar,
Şirin can sadağa, qanandısa yar.
Yaxşılıq qazanar, qanandısa yar,
Kəsər tikəsini yarınnan yarı.

Aylar keçdi, illər gəldi, nə yaxşı,
Nə Əslisən, nə Leylisən, nə Yaxşı.
Yadın sənə nəyi yaxşı, nə yaxşı,
İstə, istəyəndə yarından yarı[1].

1972, 16 sentyabr

[1] yarı – köməyi.

DÖNƏ-DÖNƏ

Gəldim hüzuruna, ay çiçəkli dağ,
Dolandım qoynunda mən dönə-dönə.
Gəzdi saçlarımda səhərin mehi,
Hərləndi başıma çən, dönə-dönə.

Sənə vurğun olmaq adətdi məndə,
Gərək sevgisinə qul ola bəndə.
Hər bulaq başında, hər göy çəməndə,
Qurdun məclisimi sən dönə-dönə.

Zəlimxan istər ki, xəyala varsın,
Fikrinin gücüylə dağları yarsın.
Sənin qarın kimi, birdən ağarsın,
Düşməsin saçıma dən, dönə-dönə.

1972, 8 may

YENƏ

Qəlbim varaqlandı bir kitab kimi,
Çəkdi xəyalımı uzaqlar yenə.
Dağlar deyiləndə doldu gözlərim,
Kükrədi sinəmdə bulaqlar yenə.

Aşıq mizrabını tellərə vurdu,
Götürdü harayı yaylağı, yurdu.
Elə bil gözəllər önümdə durdu,
Nəğmələr oxudu dodaqlar yenə.

Payızı yetişdi, barı saraldı,
Küləklər yarpağı əlindən aldı.
Cavan Zəlimxanı yadına saldı,
Hardasa titrədi budaqlar yenə.

1972, 21 may

MƏN OLUM

Sözümüz sözdürsə, əməl eyləyək,
Yanaq sən olanda, dodaq mən olum.
İçilən birimiz, içən birimiz,
Yanan sən olanda, bulaq mən olum.

Mənə həyat versin zilinlə pəsin,
Bəzəsin ömrümü avazın, səsin.
Qaranlıq bəxtinə yaxın düşməsin,
İşıq sən olanda, otaq mən olum.

Hər zaman bir olsa sözünlə sözüm,
Söngüməz ocağım, qaralmaz közüm.
Sənin pis üzünü görməsin gözüm,
Xəstə sən olanda, torpaq mən olum.

1972, 23 may

SƏNSİZ

Ay mənim çiçəyim, küsdün, gəlmədin,
Çiçəklər üzümə baxmadı sənsiz.
O gün yatağında dayandı çaylar,
Sular baş götürüb axmadı, sənsiz.

Yüz bahar dəyişə, yüz də yaz ola,
Çətin, gözəllikdə sənə tay ola.
Mən dedim, həmdəmim bəlkə yay ola,
Buludlar altından çıxmadı, sənsiz.

Sevgisiz günləri hədər say mənə,
Eşqimi itirsəm, onda vay mənə.
Əgər bağışlansa bir saray mənə,
Dağılmış, talanmış daxmadı, sənsiz.

1972, 20 iyun

QOCALIBSAN

"Mənmi, zəmanəmi" – demə, Koroğlu,
Zəmanə qocalmaz, sən qocalıbsan.
At Misri qılıncı, girmə meydana,
Daha Çənlibeldən en, qocalıbsan.

Nigar xəyaldadı, xəstədi Cunun,
Gəlmir qəhqəhəsi dağlar oğlunun.
Qalıb urvalığın, qurtarıb unun,
Hərlənir başında çən, qocalıbsan.

Daha çəkən olmaz nazı-qəmzəni,
Əymədi yaltaqlıq, əydi qəm səni.
Qıratla yola sal Keçəl Həmzəni,
Üyüt dəyirmanda dən, qocalıbsan.

1972, 4 avqust

AMANATI

Gedirəm, a dağlar, salamat qalın,
Dönüm başınıza, yar amanatı.
Odur dövlətim də, odur varım da,
Dövlət amanatı, var amanatı.

Titrəşən çiçəklər, yatan dumanlar,
Şairtək dərdimi deməmiş anlar.
Bilər nə deməkdi təptəzə canlar,
Vicdan, namus, qeyrət, ar amanatı.

Qayalı bulaqlar, göz kimi dolun,
İsladın otunu yar gələn yolun.
Zəlimxan nə desin, göz-qulaq olun,
Qoynunda bəslənən nar amanatı.

1972, 23 avqust

GEDƏNDƏ

Qəlbi gizli-gizli yandırar-yaxar,
Cavanlıq yan düşüb əldən gedəndə.
Güldə güllük qalmaz, düzdə gözəllik,
Baharın qoxusu güldən gedəndə.

Ha çalış, geriyə fırlanmaz təkər,
Ömrə payız gəldi, qaranlıq çökər.
Təbiət ağlayıb göz yaşı tökər,
Yaşılbaş sonası göldən gedəndə.

Zəlimxan, itirmə vaxtı, vədəni,
Anla ağsaqqalı, tanı gədəni.
El yadda saxlamaz evdən gedəni,
İnsan əzizlənər eldən gedəndə.

1972, 31 avqust

ZARAFATYANA

Bəxtinin ulduzu göydə göz vura,
Üstünə nur səpən ayın olaydı.
İsti bir otaqda keçəydi qışın,
Sərin bir yaylaqda yayın olaydı.

Yox yerdən var ola, çaxırın gələ,
İlxın, sürün gələ, naxırın gələ.
Əvvəlin gəlincə, axırın gələ,
Taledən qismətin, payın olaydı.

"Sabah gəl" sözünü biryolluq kəsən,
Dağ kimi dayanan, yarpaqtək əsən,
Gah sənə dost olan, gah səndən küsən,
Cibində qalağın, sayın olaydı.

Zəlimxan, odlarda bişənə kimi,
Yüz yerdə atlanıb-düşənə kimi,
Yüz qapı dabanı eşənə kimi,
Bir ağırtaxtalı dayın olaydı.

1972, 2 sentyabr

GÖZƏL AXTARIR HAMI

Elə ki, çatır əli
Gəncliyinin çağına –
Uçub qonmaq istəyir
Bir gülün budağına.
İstəyir ki, nur saça,
Yana bəxtinin şamı,
Gözəl axtarır hamı.

Deyir, gözlərin ala,
Qaşların da qaradır.
Gözəllikdən güc alıb,
Min bir əsər yaradır.
Aşiqlərin eşqidir,
Şairlərin ilhamı,
Gözəl axtarır hamı.

Ağır dərddir, həyatda
Gəzdiyin Allah ola,
Qismətinə din düşə.
Gözəl deyib, yanasan,
Payına çirkin düşə.
Arzulara çatmasan
Ömrün-günün, həyatın
Nə ləzzəti, nə tamı,
Gözəl axtarır hamı.

Geniş ürək, odlu göz,
Çilçıraqlar yandırar.
İşıq keçsə, otaqda

Sevinc işıqlandırar.
İşıqlı keçsin deyə
Ömrün səhər-axşamı,
Gözəl axtarır hamı.

Nənəmin nəvəsinə
Canım deyə, can ola.
Kişi belindən gələ,
Əsil bir insan ola.
Yaxşı olsa gəlinlər,
Oğulların bəxtidir,
Anaların bayramı,
Gözəl axtarır hamı.

1972, 17 iyun

ÇÜNKİ

Hər gözdə, hər ürəkdə nur olmaq istəyirəm,
Çay kimi, dəniz kimi gur olmaq istəyirəm.
Yanmıram, yananda da kül olmaq istəyirəm.
Gözyaşı qədər duru, çiçək qədər saf olmaq,
Ədalətlə yoğrulub haqq olmaq, insaf olmaq,
Bir sevmək səadəti, bir sevilmək arzusu,
Zamanın yaddaşında qala bilmək arzusu.
Birmi, beşmi arzular, eh, hansını sayasan?
Arzuları yaşaya, duyasan, anlayasan.
Yaşamaq istəyirəm, yüz il mənə bəs deyil,
Çünki mənim həvəsim ötərgi həvəs deyil!

1972, 30 iyul

NEYLƏYƏSƏN

Deyirdilər Borçalıda yağar keçir havalar,
Heç qurağa düzmədimi, yenə yağış yağırmı?
Dar ayaqda çoxmu çəkib anam mənim yerimi,
Ötən günlər, keçən aylar mənsiz ona ağırmı?

Barmağından o torpağa hər gün nur yağa-yağa,
Babam bağda çalışırmı hey səhərdən axşama.
Əllərində dolu yelin, dodağında oxşama,
Fatma nənəm sözə tutub ağ inəyi sağırmı?

Qarlı dağlar, göy dərələr əzəl başdan oylağım,
Aləm bilir, o yerlərdən kəsilməmiş ayağım.
Göynədi burnumun ucu, cingildədi qulağım,
Görən məni yada salan yolmu, izmi, cığırmı?

Hər ürəkdə bir dünyanın, bir aləmin eşqi var,
Arzu olur, ümid olur ona həmdəm, ona yar.
Deməyin ki, nə hay-haydı, yetməzmi bu suallar,
Neyləyəsən, söz ürəyə, arzu qəlbə sığırmı?!

1972, 2 iyul

YAYLIQ

Kədəri, həsrəti bəzən bir anlıq,
Bəzən də həftəlik, aylıq görübdür.
Qəlbi kövrələndə, gözü dolanda
İnsan əllərində yaylıq görübdür.

Dumanı dağıdan küləyə bənzər,
Nisgilli gözlərin silər nəmini.
Dünyanın dərdini yüngülləşdirər,
Silər ürəklərin dərdi-qəmini.

Bir qarış parçatək baxmayın ona,
Yağışda islanmış düz kimi baxın.
Yaylıq gözümüzün qayğıkeşidir,
Gözü qoruyana göz kimi baxın.

1972, 13 avqust

* * *

Deyirəm, bu dünya sevənlər üçün
Necə mehribandı,
necə gözəldi.
Küsülü gəzənə gündüz yaxşıdı,
Qol-boyun olana
gecə gözəldi!

1972, 8 dekabr

İNSAN DARIXANDA

İnsan darıxanda həmdəm axtarır,
Ona lazım olan hava, su kimi.
Sərinlik istəyir sinədə ürək,
Havalı dağların havası kimi.

Necə istəyirsə yananda torpaq,
Göylərin şıdırğı yağışlarını,
İnsan darıxanda elə istəyir
Düzün çiçəyini, dağın qarını.

İnsan darıxanda gələn olmasa,
Ahlar başı üstə tüstüyə dönər.
Təngiyər nəfəsi, kəsilər səsi,
Ümidi qırılan xəstəyə dönər.

1972

Xoşum gəldi sözündən,
Təmiz dedin, az dedin.
Qəlbindən qan axsa da,
Kişi ağlamaz, dedin.

1972, 8 dekabr

* * *

Yetimlik dünyada yaman bəladı,
Ölən ölüb gedər, sağ yetim qalar.
Əlvan çiçəklərin rəngi saralar,
Bağbanı öləndə bağ yetim qalar.

Kimi var elə bir canıyanası,
Mətləb anlayası, kəlmə qanası.
Ellərdi dağların ata-anası,
Payızı gələndə dağ yetim qalar.

Qara xal yanağı ağda gözəldir,
Bülbülün cəh-cəhi bağda gözəldir.
Zəlimxan, şamama tağda gözəldir,
Bəhrəsi olmasa, tağ yetim qalar.

1972, 10 oktyabr

* * *

Heç bilmədim necə deyim sevirəm,
Onu mənə bir baxışı lal, dedi.
Qoyarammı ürəyinə xal düşə,
Sənin olsun üzümdəki xal, dedi.

Oda yanım, sıx ovcunda əlimi,
Qollarına qurban verim belimi.
Coşa gələn mənim qara telimmi,
Al sinənə, saz yerinə çal, dedi.

Ay Zəlimxan, sevən ürək şad olar,
Sevgi ona ən müqəddəs ad olar.
Ömrə-günə ləzzət olar, dad olar,
Sən qaymaq ol, mən də sənə bal, dedi.

1972, 13 oktyabr

SƏN

Sən işıqsan, mən səsəm,
Sənə çata bilmərəm.
Sən Kainat, mən Günəş,
Sənsiz doğa bilmərəm,
Sənsiz bata bilmərəm.
Sənsiz necə bağlanar
Gözüm, könlüm, istəyim
Bu həyata, bilmərəm!

1972, 15 oktyabr

GƏTİRƏRSƏN

Sən dağa gedirsən, mən arandayam,
O dağdan arana sel gətirərsən.
Bir gözəl saçından üç tel ayırıb,
Sazın zil səsinə tel gətirərsən.

Duyub ürəyinlə, baxıb gözünlə
Mənim ruhumu da gəzdir özünlə.
Uzadıb ömrümü şirin sözünlə
İllərin üstünə il gətirərsən.

Xoşdu Zəlimxana dumanı, çəni,
Dağların nəfəsi yaşadar məni.
Mənim dodağımla öpüb çəməni,
Gələndə bir dəstə gül gətirərsən.

1972, 17 oktyabr

DÜNYANIN

Çoxları bac aldı eldən, mahaldan,
Heç kimə qalmadı bacı dünyanın.
Gör nələr bişirib isti təndiri,
Gör nələr qovurub sacı dünyanın.

Sazında ağrılı havalar çalır,
Köhləni yorulur, yollarda qalır.
Varlığı adamın gözündən salır
Günləri keçəndə acı dünyanın.

Zəlimxan, nahaqdan min qan olsa da,
Hələ də qoynunda zindan olsa da,
Həyatda ən alçaq insan olsa da,
İnsandı hər zaman tacı dünyanın.

1972, 14 fevral

PAYIZ HAQQINDA NATAMAM PARÇA

Payız gəldi, məclisimiz düzəldi,
Can ay usta, nə durmusan, saz eylə.
Oyna, a bəy, həyat eşqi səndədir,
Dur, ay gəlin, bir cilvələn, naz eylə.
Bir ananın ömründəki payızı
Sevincinlə bahar eylə, yaz eylə.

1972, 18 noyabr

DİVANİ

İnsan oğlu tez qocalar,
Vaxtsız ağarar başı.
Canı-dildən sevdiyi yar
Özünə tay olmasa!
Kür uşağa ana gərək,
Yatırda laylasına.
Sellər dağda mələr qalar
Anası çay olmasa!

Gərək haqqın, həqiqətin
Özü sənə yar ola.
Harda bağlı qapı görsən
Yox yerdən açar ola.
Yüz deyəsən varım olsun,
Çox çətin ki, var ola.
Təbiətin sidq-ürəklə
Verdiyi pay olmasa!

Kəpənəkçi Borçalıda
Ən böyük kəndim mənim.
O torpaqdan qüvvət alıb
Dağılmaz bəndim mənim.
Zəlimxanam, şirinlikdə
Şəkərim, qəndim mənim.
Əllərim bir yana çatmaz,
Ondan haray olmasa.

1972, 21 noyabr

DODAQDƏYMƏZ TƏCNİS

Dağların laləsi yanağındadı,
Qarı xəcil eylər yar, ağın sənin.
Çıxanda asta çıx el arasına,
Nahaq qan axıdar yarağın sənin.

Sinəsini əlli yerdən yarsalar,
Çətin yarı nəzərindən yar salar.
Yenə səni yada salsa, yar salar,
Qeyrisi qaraldar yar ağın sənin.

Əgər istəsən ki, alasan canı,
Çətinlik nə gərək, al asan canı.
Zəhərli iynədi, ala sancanı,
Aşiqə şəkərdi, yar, ağın sənin.

1972, 22 noyabr

MÜXƏMMƏS

Bizə gedək, söhbət edək,
Özgə yer arama, gözəl.
Hər sözünü üzümə de,
Danışma qarama, gözəl.
Halaldan istə mətləbi,
Əl vurma harama, gözəl.
Nə olsun rəngim qaradır,
Gəl gülmə qarama, gözəl.

Göy çəməndə ömür sürək,
Çiçək olsan, arın olum.
Dünya varı lazım deyil,
Təkcə sənin yarın olum.
Sənsiz açılmaz baharım,
Sarımaz barama, gözəl.

Sözlərinə heyran olum,
Danış, dilin lal olmasın.
Dodaqların olan yerdə
Olmur, heç də bal olmasın.
Zəlimxanı çox incitmə,
Dərd ürəkdə xal olmasın.
Bircə kəlmə acı sözün
Duz səpər yarama, gözəl.

1972, 24 noyabr

DÜŞMƏYƏYDİ

Yenə közə döndü bağrımın başı,
O günlər yadıma kaş düşməyəydi.
Qara gilələrdən al yanaqlara,
Süzülüb bir damla yaş düşməyəydi.

Bir eşqim var idi, bulaqdan duru,
Qurudu, axırda oldu qupquru.
Sənin gözlərindən həyatın nuru,
Mənim üzüyümdən qaş düşməyəydi.

Qəlbim gənc olaydı, saçlarım şəvə,
Gəzəydim dünyanı mən sevə-sevə.
Nolaydı, Zəlimxan, qurduğun evə
Taleyin əlindən daş düşməyəydi.

1972, 27 noyabr

* * *

Könlüm sevəni ver mənə,
Dağlar, dumanı neylərəm.
Sarıyam, Yaxşı gəzirəm,
Bədi, yamanı neylərəm.

Bivəfaya ölüm gərək,
İlqarsıza zülm gərək.
Mənə öz sünbülüm gərək,
Sarı samanı neylərəm.

Çevirmə üzünü yana,
Hicran odu düşər cana.
Qəm yaraşmır Zəlimxana,
Ahı, amanı neylərəm.

1972, 1 dekabr

BİZƏ

Çıxartsan yadından kəndi-kəsəyi,
Nə deyər tüstülü bacalar bizə.
Ağsaqqal, ağbirçək qədri bilməsək,
Çətin qismət olar ucalar bizə.

Nə yağış qorxudar, nə qar, nə dolu,
Getsək babaların getdiyi yolu.
Qəlbimiz tox olar, sinəmiz dolu,
Nağıl danışanda qocalar bizə.

Şəfa qaynağıdı o dağ, o binə,
Eldən söz düşəndə qabarır sinə.
Əlli yol dünyanı dolansaq, yenə
Fəsəli bişirən sac olar bizə.

Aranda sevgilim sərin səhərdi,
Yaylaqda həmdəmim qaşqa kəhərdi.
Ad alıb, onsuz da şəhər şəhərdi,
Kəndin şəhər adı tac olar bizə.

1972, 3 dekabr

MƏNİ

Mənim sözlərimi söyləyin yarə,
Verməsin acıdil yellərə məni.
Vurğun aşiqini Məcnun eyləyib,
Salmasın düzlərə, çöllərə məni.

Başına tac bilər qaya kəkliyi,
Bülbül məskən eylər gül-çiçəkliyi.
Mənə ağır olar onun təkliyi,
Bülbüləm, yetirsin güllərə məni.

Zəlimxan tanışdı yar həyatına,
Yaxşıca bələddi əsil-zatına.
Ucaldıb göylərin yeddi qatına,
Versə, o verəcək ellərə məni.

1972, 5 dekabr

MƏNİM

Billəm, kar eyləməz kar qulaqlara,
Olsa min fəryadım, min ahım mənim.
Namərd zərrə qədər halıma yanmaz,
Duman fikrim olsa, çən ahım mənim.

Gəlsə də başına ağır bir qəza,
Haqq ölüm tanımaz, həqiqət cəza.
Yazıqdı, vicdanı vermə güdaza,
Yoxdu bu işlərdə günahım mənim.

Göz-göz açılsa da sinəmdə yaram,
Əyriyə, oğruya mən göz yummaram.
Zəlimxan, heç kəsdən kömək ummaram,
Ancaq həqiqətdi pənahım mənim.

1972, 8 dekabr

TƏCNİS

Deyirlər sevdiyim qəmlənib bir az,
Heç ona qəm-qüssə yaraşandımı?
Görüşək, dost olaq sevincimizlə,
Dərdə həmdəm olmaq yara şandımı.

Ondan ötrü neyliyirsən görə, sən,
Gözüm, üstən küləkdimi gör əsən.
Məndən ayrı nə gündədi görəsən,
Yarın sinəsində yara şandımı?

Hökmlə deyil ki, deyəm yan, a şam,
Yersiz, ağır işdi, çətin yana şam.
Gərək özüm gedəm, özüm yanaşam,
Hicran dağlarını yar aşandımı?

1972, 8 dekabr

TƏCNİS

Gül açasan ömrün bahar çağında,
Budaq əyə, bar verəsən qışacan.
Gərək elə gətirəsən payızı,
Heç olmaya qış təntiyən, qış acan.

Nə yaratsan yaradasan ürəkdən,
Pis toxumdan heç tutmaya ürək dən.
Od almasan bir sevdalı ürəkdən,
Səni vaxtsız əldən salar qış, a can.

Mənzil kəsmək qış çətindi, yaz asan,
Yaxşı keçsə ömrü-günü yaza san.
Yazanda da yaza şeir yazasan,
Verməyəsən sərt ayaza, qışa can.

1972, 10 dekabr

DODAQDƏYMƏZ DÖRDLÜK

Dənizi seyr edən xəyala dalar,
Sanarsan xəyaldı, xəyal adalar.
Enər dəryaların dərinliyinə,
İnsan ad qazanar, xəyal ad alar.

1972, 12 dekabr

DODAQDƏYMƏZ TƏCNİS

Canıyanan gərək yandıra canı,
İşin yad əlində ha qalar, qalar.
Yeriyərsən canın çıxana qədər,
Həsrət səni dərdə ha qalar, qalar.

Əldən gedər qalan həya, qalan ar,
Yazıq canım atəşlərə qalanar.
Nakəs elə şər danışar, qal anar,
Ha yeri, istəyin ha qalar, qalar.

Yaralardan qətrə-qətrə qan sıza,
Çətin işdi yer eləyə qansıza.
Didələrin yaş axıda, qan sıza,
Ağrılar canında ha qalar, qalar.

1972, 13 dekabr

DODAQDƏYMƏZ DÖRDLÜK

Sənə çətin deyil, qara yax, asan
Gərək şər danışa, qara yaxasan.
Hər kəsə ilişdin, taxtı yıxıldı,
A kişi, nə qansız qarayaxasan.

1972, 13 dekabr

DODAQDƏYMƏZ DÖRDLÜK

Artıq nə danışaq indi sənlə,
Çətindi alışaq indi sənlə.
Nə qədər aşiqin sızladı, yetər,
İndi sən sızılda, indi sən inlə.

1972, 15 dekabr

DODAQDƏYMƏZ TƏCNİS

Aylar-illər həsrətini çəkərsən,
Hicran keçər, yetişərsən yara sən.
Tez yetirsən, çiçəklənər həyatın,
Gec yetirsən, alacaqsan yara sən.

Yaxşı keçsin yazın, qışın, yayın, gəz,
Yaxşı anla ləzzətini yayın, gəz.
Xainlərin nəzərindən yayın, gəz,
Aralı keç, qara yeldi yar, əsən.

Yaxın getsən ayaq altı qazana,
Salar səni hər an qaynar qazana.
Dərd anlaya, yaxşılığı qazana,
Can eşidə, can deyəsən yara sən.

1972, 13 dekabr

MƏNİ

Ömrün səhərçağı yatmaq olarmı,
Seyrinə çağırır axı, dan məni.
Çiçəyin ətridi, çəmənin şehi,
Belə avaz verib oxudan məni.

Həyatdı dilimin ən şirin sözü,
Gözümün nurudu ocağı, közü.
Hələ açılmamış səhərin gözü,
Bülbüllər oyadır yuxudan məni.

Xəyalım gəzəndə obanı, eli,
"Cəngi"yə köklənir qəlbimin teli.
Bilmirəm mənəmmi axıdan seli,
Sellərmi, qoynunda axıdan məni.

Başımın tacıdı sevdiyim sənət,
Ən uca zirvəmdi sevgi, məhəbbət.
Ən böyük varlığam, ana təbiət,
Yaradıb ətirdən, qoxudan məni.

1972, 14 dekabr

* * *

Ay nainsaf, döndəribsən üzünü,
Salam verrəm, heç almırsan vecə sən.
Gözləyirəm, soruşasan halımı,
Heç demirsən nə var, nə yox, necəsən?

Kim qatıbdı, qız, ağıya aşını?
Az qalırsan yandırasan yaşını.
Elə tökdün qabağını, qaşını,
Elə bildim ay qaranlıq gecəsən.

1972, 15 dekabr

DODAQDƏYMƏZ TƏCNİS

Yenə nə yerişdi, nə sallanışdı,
Yəqin xeyir işdi, gəlhagəlindi.
Yarıcandı həsrətinlə yanan kəs,
Çatdır əli ələ, gəl, ha gəl indi.

Çalış səndən razı qalsın qayın, ata,
Yaxşı deyil ər inciyə, qayın ata.
Şirin dillə "ay qız" desin qayınata,
Qaynana çağırsın gəl ha, gəlin, di.

Can yanandı, diş inləyən, dil əsən,
Yaxşılığı hər an gətir dilə sən.
Nə istəsən qarşı gələr, dilə sən,
Yaxşı yerindədi gəlhagəl indi.

1972, 16 dekabr

TƏCNİS

Bir az asta yeri, dağdan uçarsan,
Uca dağ dediyin Əsəlgərd[1] ədə..
Neçə yol bərəyə, bəndə düşübsən,
Xəstə Qasımda da, Ələsgərdə də.

Yanarmı, yüz od vur, ad-sanı qala,
Ömrü Dəlidağdı, ad-sanı qala.
Haqqı var bir belə ad-sanı qala,
Ölgün kəlmə yoxdu Ələsgərdə də!

Ona şeir yazdım, dedi yaz, anam,
Gərək ustadımı yay, qış, yaz anam.
Zəlimxan, demə ki, şeir yazanam,
Sən körpə uşaqsan, Ələsgər dədə.

1972, 16 dekabr

[1] Ələsgərdi, ədə

DODAQDƏYMƏZ TƏCNİS

Keçdi dərələri, açdı yolları,
Eşqi tanıtdırdı yara dağları.
Gərək qar əriyə, sellər yeriyə,
Sağala sinədə yara dağları.

Aşiq yetirərdi, Əsli dayansa,
Azıydı keşişin əsli də yansa.
Leyli də ağlasa, Əsli də yansa,
Çətin xəstə salar yara dağları.

Zəlimxan, dediyin yaxşıdır, de, di,
Sarı da yarına Yaxşıdır dedi.
Şirin əziyyəti yaxşıdır dedi,
Hər kəs ki, istədi yara dağları.

1972, 18 dekabr

TƏCNİS

Dodağın şirini, dişin incisi,
Gözlərin qarası gözəllərdədi.
Gözəl deyə-deyə yandım-yaxıldım,
Bir insafa gəlsin gözəllər də, di.

Verəndə canını gözəl ərinə,
Çətin, gözəl bezə, gözəl ərinə.
Sevdir bu dünyanı, gözəl, ərinə,
Həyatın ləzzəti gözəl ərdədi.

Səni canım qədər istərəm, yarım,
Yolunda dağ olsa, istərəm yarım.
İstər öldür məni, istər əm, yarım,
Doydur gözlərimi, göz əllərdədi.

1972, 20 dekabr

TƏCNİS

Yarının əlində ixtiyar olsa,
Bütün bu dünyanı Gülgəzin eylər.
Qaralsın çırağı, yanmasın şamı,
Abbassız bir otaq Gülgəzi neylər.

Qoyma sinən üstə özgə sinə, yar,
Qıyma özgə yata, özgə sinə, yar.
Heç naz eyləyərmi özgəsinə yar,
Yenə naz eyləsə, Gülgəzinə eylər.

Tükənməz bulaqdır elinsə sinə,
Zəlimxan, batmaq nə, elin səsi nə?
Hər zaman səs verər elin səsinə,
Unutmaz Abbası, Gülgəzi neylər.

1972, 22-23 dekabr

BÖLÜNDÜ

Zaman bölünməzi bölən eylədi,
Ürəyim ortadan yarı bölündü.
Ayrılıq qılıncı kəsdi, doğradı,
Sinəmin sərvəti, varı bölündü.

Hər kimi səslədim, gəlmədi haya,
Dövranın ürəyi oldu daş, qaya.
Sellərim qovuşa bilmədi çaya,
Elə bil dağların qarı bölündü.

Qovurdu ömrümü həsrətin sacı,
Ağartdı saçını çəkdiyi acı.
Yanında görmədi qardaşı bacı,
Namusu, qeyrəti, arı bölündü.

1973, 9 yanvar

KÖNÜL

Nadanın dediyi bir sözdən ötrü,
Gəl olma bu qədər pərişan, könül.
Amandı, heç kəsdən küsmə, incimə,
Böyükdü, küssə də barışan könül.

Ucalmaq istəyi qətidir, qəti,
Aşar zirvələri eşqi, qüdrəti.
Bəxtəvər deyilmi sözü-söhbəti
Zamanla qaynayıb-qarışan, könül.

Bir dünya sevgidi odlanan ürək,
Ona səcdə qılır hər gül, hər çiçək.
Ömrünü yellərə verməsin gərək,
Sənət meydanında yarışan, könül.

1973, 11 yanvar

TƏCNİS

Ləngərli, laylalı dənizə dönsən,
Say öz qucağında yar, ada məni.
Sənlə bir olsam öldürə bilməz,
Tufandan aldığım yara da məni.

Tez gəl, tab eyləməz könlümüz ilə,
Həsrət oynamasın könlümüz ilə.
Qaldır sevincinlə könlümü zilə,
Çatdır yar şöhrətə, yar, ada məni.

Eşqim gözlərinin həyatındadı,
Sənsiz əfsanədi həyatın da adı.
Səni min yaşada həyatın dadı,
Ölsəm də, təzədən yarada məni.

1973, 25 yanvar

TƏCNİS

Qara gün gətirər qaraqabaqlı,
Danışan, sevinən, gülən əm, gözəl.
Gəl dəstə bağlayaq, öpək üzündən,
Təzəcə düşübdü gülə nəm, gözəl.

Nədə qəmzə gördün, nədə naz, gülüm,
Nədən çox yarıdın, nədən az, gülüm.
Səni şən görəndə nədən az gülüm,
Sevinci sevənəm, gülənəm, gözəl.

1973, 25 yanvar

BİSAVAD AŞIĞA

O nə "Kərəmi"ydi, sən çaldın, aşıq,
Kərəm alışmadı, Əsli yanmadı.
Dedin, yetmiş iki hava çalıram,
Buna şair qəlbim heç inanmadı.

Gərək hər sözünü ələyə, süzə,
Aşıq həmdəm ola doğruya, düzə.
Birtəhər keçindin, vurmadım üzə,
Demə ki, ötüşdük, hərif qanmadı.

Mənanı anlayar, mətləbi duyar,
Aşıq söz oxuyar məclisə uyar.
Sənə usta desəm, dilim quruyar,
Ələsgər özünü usta sanmadı.

1973, 27 yanvar

KƏPƏNƏKÇİNİN

Şırhaşır sinəmdən axar bulaqlar,
Başlasa söhbəti Kəpənəkçinin.
Nəyinnən danışım, nəyinnən deyim,
Azdımı şöhrəti Kəpənəkçinin?!

Qoynunda ocaq var, ocaq buz olmaz,
Onsuz çörəyimdə heç vaxt duz olmaz.
İnşallah, heç yerdə o ucuz olmaz,
Bahadır qiyməti Kəpənəkçinin.

Aşıq meydan qursun, sinəsində saz,
Zəlimxan, gün keçir, sən durma, sən yaz.
Onu səsləməsəm səsim ucalmaz,
Böyükdü hörməti Kəpənəkçinin.

1973, 27 yanvar

DODAQDƏYMƏZ TƏCNİS

Gələn yaz ayları, ay istəkli yar,
Açılan çiçəklər, yeri dər indi.
Keçəndə asta keç, ehtiyat eylə,
Lal axan çayların yeri dərindi.

Gəlin eyləyəndi qarını dağlar,
Ağlığın dağların qarını dağlar.
Səcdənə gətirər qarını dağlar,
Selləri qarşına yeridər indi.

Sanki telim əsir nərgiz əsəndə,
Gəl, istək yaransın nərgizə səndə.
Ay çiçək, heyran qal nərgizə sən də,
Aşiqin gəzdiyi yeri dər indi.

1973, 30 yanvar-3 fevral

OĞLUNA

Bir ana gözləri baxar yollara,
Hər axşam yer salar itən oğluna.
Dünyanı analı yaşatmaq üçün,
Dar gündə imdada yetən oğluna.

Yer salmaq nə lazım əl əsə-əsə,
Ay ana, ürəkdə yer salan kəsə.
Yağılar nə qədər yandırdım desə,
Vətən yer verəcək Vətən oğluna.

1973, 2 mart

DƏYƏRMİŞ

Ey gözəl, qədrini niyə bilmədim,
Deməli, aramız belə dəyərmiş.
Üzülüb əllərim sənin əlindən,
Özgə bir yanağa, ələ dəyərmiş.

Neyləsin iradə, neyləsin dözüm,
Günahkar bu yerdə özüməm, özüm.
Baxdım çəmənliyə, aldandı gözüm,
Rəngin min çiçəyə, gülə dəyərmiş.

Daşlara dağıldı harayım, ünüm,
Bir də qovuşmağa yoxdu mümkünüm.
Sən demə, sənin lə bir keçən günüm
Anlayan yanında ilə dəyərmiş.

1973, 15 fevral

ÇOXDANDI KÖNLÜMƏ BİR GƏZMƏK DÜŞÜB

Qəlbim istəyəni bəxtim gətirə,
Qayıdam ömrümün uşaqlığına.
Qədəmim çatdıra o vaxta məni,
Baxmaya yolların uzaqlığına.
Başım açıq ola, ayağım yalın,
Yeriyəm, büdrəyəm, yıxılam, duram.
Çör-çöpə əvvəlki həvəsim ola,
Suların üstündə dəyirman quram.
İllər elə keçdi, sanki, göz açdım
Özümü iyirmi beş yaşında gördüm.
Böyüklər gördüyü dərdi, sevinci,
Ömrün divarında, daşında gördüm.
Yaxşı, o günləri nəyə bənzədim,
Yandığı, söndüyü bircə an çəkən
Ovçuya rast gələn bir maral kimi,
Uşaqlıq bu qədər ürkəkmi oldu.
Ömür, nə yatdım ki, nə yuxu görəm,
Qayğısız anlarım nə tez ötüşüb.
Həsrətdən burnumun ucu göynəyir,
Çoxdandı könlümə bir gəzmək düşüb.

Heç kəs deməsin ki, çox da göynəmə,
O vaxtda, o anda, o gündə nə var.
Şirindi nağıllı, dastanlı dünya,
Onda min həqiqət, min əfsanə var.
Torpaqdan götürüb öz mayasını,
Şirə var, qüvvə var kökümdə mənim.
Əsrimin sürəti yeyin olsa da,
Güc-qüvvət alsam da hər yüksəlişdən,

Bəzən yoruluram, darıxıram mən,
Bezirəm ürəksiz gördüyüm işdən.
Ürək darıxanda, can darıxanda
Keçir o günlərim qəlbimdən mənim.
Fikirsiz, xəyalsız dura bilmərəm,
Halımı bilirəm axı mən, mənim
Körpəlik arzusu, uşaqlıq sözü,
Gör gəlib mənimlə harda görüşdü.
Zamanı geriyə qaytarmaq gərək,
Çoxdandı könlümə bir gəzmək düşüb.

Onda çıxmamışdım geniş yollara,
Həmdəmim olmuşdu dağ döşü, cığır.
Görərdin Zəlimxan gəzir dağları,
Ya kəkotu dərir, ya təzək yığır.
Nazımla, sözümlə oynardı mənim,
Alardı ağrımı, qadamı mənim.
Ürək nə istəsə hazır olardı,
Çox tez eşidirdi sədamı dünya.
Yormurdu beynimi sərt düşüncələr,
Rəisim, müdirim yoxuydu mənim.
İş adı gələndə qaçaq düşərdim,
Ən çox istədiyim yuxuydu mənim.
Körpə dodaqlarım nə qədər desən
Çiçəklə öpüşüb, güllə öpüşüb.
Qaytar o günləri, təbiət, mənə,
Çoxdandı könlümə bir gəzmək düşüb.

1973, 21 fevral

* * *

Of! Sənə güllə dəysin,
Mənim şair ürəyim,
Sən niyə duyan oldun,
Sən niyə dərd anlayan,
Ürək oxuyan oldun!

1973, 24 fevral

OLDU

Aşıq Şəmşirin "Şərəf nişanı" ordeni ilə təltif olunması münasibəti ilə.

Şəmşir əmi, şad xəbəri eşitdim,
Körpə qəlbim fərəhləndi, dağ oldu.
Yer də, göy də al geyindi gözümdə,
Güldü eşqim, gül-çiçəkli bağ oldu.

Cavanlaşdın şehə, suya batanda,
Qanadlandın arzulara çatanda.
Sən Vurğunun ürəyinə yatanda,
Vurğun sənə bir arxalı dağ oldu.

Çəkən oldun şeirin, sözün nazını,
Qarşıladın baharını, yazını.
Sən götürdün Ələsgərin sazını,
İstədiyin dövran oldu, çağ oldu.

El səndədi, usta, sən də eldəsən,
Şeirindədi çiçək desən, gül desən.
Şeirə döndün dodaqda sən, dildə sən,
Xalq içində hər gün üzün ağ oldu.

1973, 15 mart

AĞLADI

Mat qaldım, şahımın kəsildi yolu,
Evim yasa batdı, xanam ağladı.
Dediyim arzuya çata bilmədim,
Gözləri yolçəkən sonam ağladı.

Bəxtimə bənzətdi nənəm sacını,
Göynətdi bu kəlmə qardaş-bacını.
Duyanda çəkdiyim ağrı-acını,
Atam hirsləndi, anam ağladı.

Qarlı qışa döndü gözümdə aləm,
Sandım, təkcə mənəm qismətində kəm.
Yaxşıca taladı Zəlimxanı qəm,
Şair gözlərində inam ağladı.

1973, 3 mart

MƏNİ

De, sənsiz neyləsin, nəyinə gərək,
Ya yaşıl dərələr, ya dağlar məni.
Üzünü görməsəm dərdim, həsrətim
Axır ya öldürər, ya dağlar məni.

Mən sənə nə deyim, gəl özün ağla,
Sarı yaraları, gəl özün ağla.
Ölsəm, kənar gəzmə, gəl özün ağla,
Sənsiz yalan ağlar, yad ağlar məni.

1973, 11 mart

LEYLİ

İstəkli yar, bir də demə,
Nə sən Məcnun, nə mən Leyli.
Bu gün də var, sabah da var,
Həmən Məcnun, həmən Leyli.

Getməsin ağzımdan dadın,
Canımı yandırsın odun.
Qoy bu gündən olsun adın,
Yar dodağı əmən Leyli.

Zəlimxanam, sağ canım ol,
Heyran olum, heyranım ol.
Gəl sən mənim ceyranım ol,
Mən də sənə çəmən, Leyli.

1973, 17 mart

AY USTAD

Aşıq Şəmşirə

Bir bağın var, bayatılı, qoşmalı,
Xəzan görməz, talan olmaz, ay ustad.
Götürəndə Ələsgərin sazını,
Çaldığıntək çalan olmaz, ay ustad.

Zaman saldı əllərindən camını,
Çox söndürdü aşiqlərin şamını.
Dövranından, dünyasından kamını,
Sənin kimi alan olmaz, ay ustad.

Sənətkara səksən nədir, azdır, az,
Görməlidir neçə bahar, neçə yaz.
Mən desəm ki, Aşıq Şəmşir qocalmaz,
Doğru sözüm yalan olmaz, ay ustad.

1973, 20 mart

MƏNİM

Qəlbimdə, ruhumda yer sala bilməz,
Qəm-qüssə yanımdan ötəndir mənim.
Eşqimdən yaranıb bu torpaq, bu yer,
Arzum cücərəndi, bitəndi mənim.

Şimşəklər şığıya, küləklər əsə,
Çaylar haray salıb yolumu kəsə,
Gur sellər nə qədər "güclüyəm" desə,
Əlim hər istəyə yetəndir mənim.

Mənə eldən gəlir cəsarət, dözüm,
Azalmaz alovum, qaralmaz közüm.
Birinci söhbətim, sonuncu sözüm,
Hər zaman, hər yerdə Vətəndir mənim.

1973, 20 mart

LÖVHƏ

Ərik ağacında çiçəklərə bax,
Elə bil budaqda yaza qar yağıb.
Bu necə qardı ki, əritmir günəş,
Qışın ömründənmi yadigar qalıb.

1973, 12 aprel

NƏSİMİYƏ

Altı yüz il!
Altı əsr.
Ey sənətkar, o zamandan bu zamana
söz köhlənin
meydan açıb, yorulmadan mənzil kəsir.
O bəşəri məhəbbətin,
O ölümsüz cəsarətin
Qarşısında donub qalmış,
Zaman belə olmuş əsir!
Qüdrətini düşünəndə
Başım üstə göy çaxnaşır,
Ayaq altda torpaq əsir.
Sənin adın çəkiləndə
Min qat artır cəsarətim,
Bu nə hikmət, de, bu nə sirr?!
Ulu ustad! Zaman keçə,
İnanmıram, ürək edə
Ölüm sənə yaxın gələ.
Şax duruşun səbəb olub
Bu dünyanın heyrətinə.
Bəşər səni unutmağı
Sığışdırmaz qeyrətinə!
Haqqın səsi ölməz olur,
"Haqqı danır" desələr də,
Alçaltmadı, əsrlərə qovuşdurdu
Bu şər səni.
"Allah yoxdur" deyə bilmir,
Allah bilir bəşər səni!

1973, 2 aprel

QARDAŞIM

Ələ düşən deyil bu fürsət, bu dəm,
Ürəklə, ilhamla oxu, qardaşım.
Qoy mənim ömrümdə toy-nişan olsun,
Payıma düşənin çoxu, qardaşım.

Səslə "Gəraylı"nı, səslə "Cəngi"ni,
Duyum qoşmaların xoş ahəngini.
Yığ bütün dünyanın neçə rəngini,
Nəğmələr çələngi toxu, qardaşım.

Zəlimxan oynayar sənin nazınla,
Tək dindir qəlbimi telli sazınla.
Bizi çox oxlayıb, xoş avazınla
Oxla, ürəyindən oxu, qardaşım.

1973, 26 aprel

NEYÇALAN QARA HÜMMƏTƏ

Sən neyi çalanda səcdənə gəldi,
Dinlədi quzeylər, güneylər səni.
Hər kəsi dünyada bir dərd yandırar,
Həmişə yandırıb bu neylər səni.

Eşq ilə yaşadın, nə göz işıqdan,
Nə də ki, dizlərin heydən düşübdü.
Söylə, qəlbindirmi neyi yandıran,
Yoxsa od qəlbinə neydən düşübdü.

1973, 9 may

* * *

Yaxan dağlar,
Seldə çim, yaxan, dağlar.
Gün vurdu, qar əridi,
Açıldı yaxan, dağlar.

1973, 11 may

* * *

Səni kül eylərəm, imkanım olsa,
Kərəmin ağzından çıxan ah ollam.
Qoymaram çıxasan öz cığırından,
Sən bəndə olanda, mən Allah ollam.

1973, 11 may

* * *

Görmək istəmirdin əzəldən məni,
Necəsən, gözündən yayınam indi.
Deyəsən, qədrimi bilirsən daha,
Yazınam, qışınam, yayınam indi.

Unudub ürəklər həsrəti, qəmi,
Başlanıb söhbətin qəlbaçan dəmi.
Sən mənim qoynumda üzən bir gəmi,
Mən sənin dənizin, çayınam indi.

1973, 11 may

DAĞLAR

Mən sizdən yazanda söz özü gəldi,
Gəzmədim bölgünü, hecanı, dağlar.
Alçağa düşmənəm körpəliyimdən,
Sevmişəm hər zaman ucanı, dağlar.

Yayda yaylaqların varı qız oldu,
Yarı gül olanda, yarı qız oldu.
Qoynunda gəzəndə qarı qız oldu,
Cavan eylədiniz qocanı, dağlar.

Nə qədər arzu var, hələ gözdədi,
Nə deyim, ixtiyar əlinizdədi.
Cavan Zəlimxanam, yarım sizdədi,
Göz üstə saxlayın o canı, dağlar.

1973, 17 may

BİZ DƏ ƏYRİ BAXSAQ...

Qurumuş əllərim kəsib, doğrayıb
Artıb ürəyinin nisgili, yası.
Durub beş il əvvəl durduğu kimi,
Qalıb kölgəsində balta yarası.

Dedim öz-özümə: bu nə sənətmiş,
İnsan yara vurmaz, yara bağlayar.
Biz də əyri baxsaq, onda təbiət,
Görən ümidini hara bağlayar.

Hansı bir həvəsdə yoldan çıxardıb,
Azdırıb fikrimi dumanda, çəndə.
Gəl keç günahımdan, ay qoca palıd,
Şair olmamışam səni kəsəndə.

1973, 21 noyabr

AĞLAYAR

Ürəksiz adama nə sevinc, nə qəm,
Gülsə, ürək gülər, ürək ağlayar.
Olmaz ağlamağa acizlik, demək,
Səhər açılanda sevindiyindən
İslanar yanağı, çiçək ağlayar.
Qəlbi daş olanın gözü yaşarmaz,
Ağlasa, həmişə kövrək ağlayar.

1973, 9 noyabr

DODAQLAR

Güldən şirə çəkən arıya bənzər,
Dodağın üstünə qonar dodaqlar.
Ağzından su tökən lalələr kimi,
Alovlar içində yanar dodaqlar.
Duyğulu ürəyə həyat bağışlar,
Duyğusuz ürəyi qınar dodaqlar.
Bir totuq çənəni, bir ağ buxağı,
Dünyanın mərkəzi sanar dodaqlar.

1973, 10 noyabr

SEVGİLİM

Könlünə dəyməsin hər xırda kəlmə,
Qoymaram ürəyin sına, sevgilim.
Yalanı, gerçəyi bilmək istəsən,
“Sevgilim” deyəni sına, sevgilim.

Yaxın gəl, sinənə əyilsin başım,
Eşqinlə çay kimi qaynayım, daşım.
Toyumu gözləyən qohum-qardaşım,
Qoysun əllərinə xına, sevgilim.

Gözümüz doludu, könlümüz də tox,
Yüz il ömr eyləyək, nə az, nə də çox.
Bir gün ayrı düşsək, onda məni yox,
Ana təbiəti qına, sevgilim.

1973

SƏMƏD VURĞUNA

Heç vaxt axar sular durğun olmadı,
Alovlu ürəklər yorğun olmadı.
Çoxları vuruldu doğma Vətənə,
Ancaq Vurğun kimi vurğun olmadı.

1973, 22 noyabr

GÖRÜM

Uzat ömrümüzü arzular qədər,
Gözəlim, hüsnünü daim şən görüm.
Nə geniş qəlbində bir damla kədər,
Nə qara gözündə duman, çən görüm.

Qıymaram şüşətək ürəyin sına,
Həyat çox görməsin yarı yarına.
Etibar eylədim etibarına,
Dəyişmə, hər zaman səni sən görüm.

Yaşat eşqimizi, yaşa yar kimi,
Tez gəlib, tez getmə sən bahar kimi.
Saçımız ağarsa bir gün qar kimi,
Mən onda günahı bəs kimdə görüm.

1973, 25 noyabr

* * *

Nə bəlalı karvan oldum, dərd aparmaq peşəm oldu,
Hansı səmtə seyrə çıxdım, yoldaşım yolda qəm oldu.

Min arzu bəslədim canda, heç birinə yetəmmədim,
Düşdü ayaqlar altına, şirin arzum həşəm oldu.

Yaxşı sözdən qanadlandım, gəzdim dünyanı baş-başa,
Yaman sözdən çiliklənən könül adlı şüşəm oldu.

Zəlimxan da Füzulitək az yanmadı eşq oduna,
"Fəqiri-padşahsa, gədai" – möhtəşəm oldu.

1973, 27 noyabr

ARZU-İSTƏK

Mən dağ istəyirəm, başı qarlı dağ,
Mənə daş yığını, təpə verməyin.
Ağzımda dağ boyda dalğa deyirəm,
Yazıq, hıçqırtılı ləpə verməyin.
İti Araz verin, dəli Kür verin,
Mənə həyəcanlı bir ömür verin.
Mənə həyat verin istədiyim tək,
Qəlbimdən keçəni yaşayam gərək.
Bir eşqin dərdidi, bir ömrün yası,
Böyük arzuların xırdalanması.

1973, 7 dekabr

NƏNƏMƏ

Bir xala görmüşəm ana tərəfdən,
Nənədən-babadan payım olmayıb.
Çoxuna hörmətlə dayı desəm də,
Mənim öz doğmaca dayım olmayıb.

Oğulsuz ömr edən yazıq nənəmin
Həmişə qəlbindən qara qan gedib.
Nəvə görməyə də vaxtı çatmayıb,
Bu fani dünyadan nigaran gedib.

Oğuldan biryolluq kəsilib əli,
Yetişə bilməyib qız nəvəsinə.
Deməli, bir dünya itirmişəm mən,
Hər nənə dünyasa öz nəvəsinə.

Aramla gəzirəm məzarıstanı,
Torpaq camalını gizlədib onun.
Yurdunu düzlədi, gözü doymadı,
Dünya qəbrini də düzlədib onun.

Anam səni gəzər, səni haraylar,
Ataya, qardaşa yetişməz əli.
Bu gün-sabahlıqdır bacımın toyu,
Ay nənə, həsrətin qırılsın beli.

Əvvəlin gəlmədi, axırın gəlib,
Axmasın qəlbindən qara qan, nənə.
Qızın qız köçürür, gəlin gətirir,
Qalx bircə günlüyə məzardan, nənə.

Min qarı-boranı yaddan çıxardar,
Üzünə xoş baxan bir çiçəkli yaz.
Neyləyim, ay nənə, şair könlümün
Səni oyatmağa hünəri çatmaz.

1973, 8 dekabr

ATA-ANA

Xeyrə də, şərə də qardaş olmuşam,
Bir gün toydayamsa, bir gün yasdayam.
Qəlbimdə dünyanın dərdi, sevinci,
Gah şeir məclisində, gah iclasdayam.

Bəzəyib ömrümü yollar, cığırlar,
Gah dağda gəzmişəm, gah da aranda.
Gözüm bulaqların gözünə düşüb,
İçmişəm suları dan qızaranda.

Vaxt olub, fərəhdən dönmüşəm dağa,
Yeddi rəng gözümdə yetmiş rəng olub.
Ellərin alqışı gül-çiçək kimi,
Başımda qızılı bir çələng olub.

Ziyarət bilirəm doğma kəndimi,
Oğlu sayıldığım böyük şəhər var.
Birini deyirəm, yüz biri qalır,
Kim bilir qəlbimdə hələ nələr var.

Gəzsəm də aləmi mən qarış-qarış,
Keçsə də günlərim toyda-düyündə,
Qəlbimin, eşqimin böyüklüyünü
Görmüşəm ellərin böyüklüyündə.

Ev də dinə gəlib, imana gəlib,
Bir yerdə olanda anam, atam, mən.
Qohumlu, qonşulu, elli, obalı
Qardaşlı, bacılı Kainatam mən.

Nə çoxdu dünyanın qarlı dağları,
Nə çoxdu dənizlər, qədimdən qədim.
Ata! Səndən uca, səndən qarlı dağ,
Ata! Səndən dərin dəniz görmədim.

1973, 14-16 dekabr

SÜKUT

Qala divarında yazıya bənzər,
Ömür tarixinə yazılan sükut.
Silinməz gəncliyin xatirəsindən,
Bir gözəl səsiylə pozulan sükut.
Bir səs eşitməsən, ağardar saçı,
Mənası yüz yerə yozulan sükut.

1973, 15 iyun

LÖVHƏ

Yay gəlib, yaylağa çəkilib ellər,
Aranın qoynuna bürkü düşübdü.
Görünmür dumanı qoca dağların,
Elə bil, çiynindən kürkü düşübdü.

1973, 1 iyun

NİGARAN OLDUM

Şeir gülşəninə düşdü güzarım,
Çəməndən, çiçəkdən nigaran oldum.
Gördüm yoxuşadı həyatın yolu,
Tövşüyən ürəkdən nigaran oldum.
Küləklər əsəndə var qüvvəsiylə,
Meyvəli budaqdan nigaran oldum.
Taya ilanyalı, çay da aralı,
Közərən ocaqdan nigaran oldum.
Ayağım altından bir daş qaçanda,
Bulağın gözündən nigaran oldum.
Bu sözü kim dedi, niyə yaratdı,
Nigaran sözündən nigaran oldum.

1973, 10 iyun

HƏDİYYƏ

Anam məni bu dünyaya
hədiyyə verdi,
Ötdü həzin nəğmələrlə
qəlbinin simi.
Mən də gərək bu dünyaya
hədiyyə verəm,
Mənə əziz övlad olan
şeirlərimi!

1973, 26 iyun

KİTAB DÜKANINDA

Kitab dükanında durduq üz-üzə,
Mən kitabsatanam, o kitab alan.
Dedim öz-özümə: bütün gözəllər,
Bu qızın yanında yalandı, yalan.

Gözüm gözəlliyi elə tutdu ki,
Bircə söz deməyi dilim tutmadı.
Dediyi kitabı vermək istədim,
Qəlbim can atdısa, əlim tutmadı.

Baxışım dikildi baxışlarına,
Danışan dilim yox, gözlərim oldu.
Eh, mənim lallığım nələr demədi,
Nə qədər mənalı sözlərim oldu.

Aldı kitabını, pozdu sükutu,
Şeir çəmənindən çiçək apardı.
Yox! Yox! Apardığı çiçək olmadı,
Sinəmdən söz dolu ürək apardı.

Rəngimdən, ruhumdan məni duysa da,
Özünü o yerə qoymadı, getdi!
Gözəllik həmişə əldən çıxandı,
Gözüm gözlərindən doymadı, getdi.

1973, 11-15 iyun

DADINA GÖRƏ

“O qızı sevirəm” deyən qardaşım,
Sevmə qohumuna, yadına görə.
Sevirsən, ağlını, ismətini sev,
Alma atasının adına görə.

Sinədə bir daşdı duyğusuz ürək,
Ona həyat verməz nə gül, nə çiçək.
Sevəndə insanı sevəsən gərək,
Qəlbinin eşqinə, oduna görə.

Zəlimxan yazdı ki, bir-iki bəndi,
Tanıya biləsən zəhəri, qəndi.
Onsuz da el özü qiymət verəndi,
Hər tikə dad alar dadına görə.

1973, 2 iyul

QURBAN

Oxu, bir də oxu, ay Məlik dayı,
Bir də de özündən, özünə qurban.
“Sarıtel” üstündə orta pərdədə
“Ay bulaq” dediyin sözünə qurban.

Odlu nəfəsinlə suya dönər qar,
Açılar qəlbində qaynar bir bahar.
Azaflı kəndində şeir ocağı var,
O sönməz ocağın közünə qurban.

Yaşın yetmiş iki, ürəyin cavan,
Hələ çay kimidi damarında qan.
Borçalı balası cavan Zəlimxan,
Sənin o görməyən gözünə qurban.

1973, 30 iyun

BİR QOCANIN DİLİNDƏN

Qocaldım, qocalmaq istəməsəm də,
Yanımdan yel keçsə zədələr məni.
Fil dizi bükərdi qadir əllərim,
İndi qarışqalar hədələr məni.

Səsim az qalardı dağları dələ,
Meydan oxuyardı qüvvətim kələ.
Nə qədər desəm də cavanam hələ,
Günbəgün dəyişdi vədələr məni.

Həyat saçlarıma yağdıranda qar,
Bilmədim əlimdən gedərmiş bahar.
İndi yellər yıxar, sellər aparar,
Çaylar qabağına sədd eylər məni.

1973, 28 iyun

BÖYÜK SABİRƏ

Başına tac bilib ellər əzəldən,
Ağsaqqal sayıbdı qoca dağları.
Torpaq sinəsində fəxri yer verib,
Uca saxlayacaq uca dağları.

Bir sözü od saldı milyon ürəyə,
Yandıra-yandıra yandı, əridi.
Bugünkü səhərin rəngi, bəzəyi
Sabir işığının şəfəqləridi.

Vətənin ən böyük qəhrəmanıdı,
Vətənə ən böyük oğuldu Sabir.
Duydu mənasını acı günlərin,
Dünyanın dərdindən doğuldu Sabir!

1973, 4 iyul

MƏHƏBBƏT

Ay gecəni sevər, günəş gündüzü,
Çaylara bağlanar sel məhəbbəti.
Ürəkdə layladı, dodaqda nəğmə,
Arıya bal olar gül məhəbbəti.

Varsa bir ürəkdə sevgidən maya,
Əriyər odunda, mum olar qaya.
Salam kəlməsiylə gəlib dünyaya,
Sıxıb bir-birini əl məhəbbəti.

Küləklər, tufanlar gəlməz eyninə,
Yüz nadan tənəsi girməz beyninə.
Quş bilər dağları, alsa çiyninə,
Olsa Zəlimxana el məhəbbəti.

1973, 3 iyul

QOŞMA

Ey könül, ağlama “qəmliyəm” deyə,
Gülən gülüb, gülməyənlər güləcək.
Vəfası kəm, meydanı gen dünyaya
Gələn gəlib, gəlməyənlər gələcək.

Kim nə bilər bu dünyanın yaşını,
Dərd yandırıb torpağını, daşını.
Çoxu töküb gözlərinin yaşını,
Silən silib, silməyənlər siləcək.

Yollar uzun, arzular çox, ömür az,
Aşıq, qoyma kökdən düşə telli saz.
Ay Zəlimxan, yaxşı yarat, yaxşı yaz,
Bilən bilir, bilməyənlər biləcək.

1973, 9 avqust

NATAMAM BİR TƏCNİS

Yeridi üstümə həsrət, qüssə, qəm,
Hərəsi üz gördü, bir ayaq aldı.
Bir günün içində düzələn işim,
Gecikdi, ləngidi, bir aya qaldı.

Aşiqiydim üzündəki nura mən,
Ölərdimi dodağından nur əmən.
Günəş batdı, həsrət qaldım nura mən,
Gecələr ümidim bir Aya qaldı.

1973, 24 avqust

DÜŞDÜ

Axıtdın sevincin selində məni,
Qəlbim gözündəki axına düşdü.
Yerişin, duruşun yatdı könlümə,
Gözlərim o boya-buxuna düşdü.

Şirin həyatımın şəkəri, qəndi,
Şeirimin ən gözəl misrası, bəndi.
Qəlbim səni sevdi, səni bəyəndi,
Nə olsun, iştahım çoxuna düşdü.

Çıxdı genişliyə uşaq yollarım,
Gül açdı, olmadı sazaq yollarım.
Sənsiz dağlar aşan uzaq yollarım,
Sənə qovuşanda yaxına düşdü.

1973, 2 sentyabr

ŞÖHRƏT

Yaşatdı dünyada qüdrəti qədər,
Hər kəsi özünün imzası, adı.
Ucalmaq eşqinə hamı düşsə də,
Ucalıq hamıya qismət olmadı.

Ən uca, ən məğrur dağın yanında
Balaca dağlara deyilər təpə.
Dənizin tufanı görünər gözə,
Dalğa olan yerdə görünməz ləpə.

İnsanın, torpağın, havanın, suyun
Dərin qatlarına enən ucalar.
Əməli xalqına yaraşıq olan,
Şöhrəti heykələ dönən ucalar.

Şöhrət qapısını döyən kəslərin
Gecikməz, qisməti vaxtına düşər.
Hər əsrin əlçatmaz bir zirvəsi var,
O da bir şairin bəxtinə düşər.

1973, 4 sentyabr

QƏZƏL

Hara düşdü Şəhriyarım, ax, diyar görmək istərəm,
Haqq diyarımtək orada da haqq diyar görmək istərəm.

Yenə yandı bağrım mənim, təzələndi ağrım mənim,
Zamanı, ruzgarı, dövrü, vaxtı yar görmək istərəm.

Nə müddətdi yolu gözlər bəxti kimi qara gözlər,
Arazdan körpü salmağa ixtiyar görmək istərəm.

"Eyvaz gəlib yatmayınca, yatmaram" – dedi şair,
Mən Eyvazam, çatmaq üçün baxtı yar görmək istərəm.

Şah taxtına baş əymədi Nəsimilər, Füzulilər,
Mən ölsəm də demərəm ki, taxtı yar görmək istərəm.

Dərman özüm, dərd özüməm, Azərbaycandı torpağım,
Yol gözləyən qoca, cavan, ixtiyar görmək istərəm.

Bu tayda Bəxtiyarımı bəxtiyar gördü gözlərim,
O tayda Şəhriyarımı bəxtiyar görmək istərəm.

QƏZƏL

Anam desə oğlum hanı, eşq oduna yandı deyin,
Eşqin yolunda ölməyi bir ölməzlik sandı, deyin.

Saraldı gözünün kökü tozlu yollara baxmaqdan,
İlqar verən yalan çıxdı, ilqarını dandı deyin.

Çatırmış ömrünün sonu, axır günüymüş aşiqin,
Cani-dildən sevdiyi yar unudanda andı deyin.

Gecə-gündüz yarım dedi, özgə xəyala düşmədi,
Həyat nədi, insan nədi son nəfəsdə qandı deyin.

Neyləsin ki, çatammadı maralının vüsalına,
Öldürən bir nazlı gözəl, ölən Zəlimxandı deyin.

1973, 18 sentyabr

“SARITEL”

Yenə coşdu dəli könlüm,
Atam, anam, ay “Sarıtel”.
Yetər nə ki sızıldatdın,
Qoyma yanam, ay “Sarıtel”.

Ürək sonsuz, dodaq yetim,
Sənsiz mənim nə qiymətim.
Sənsən eşqim, məhəbbətim,
Qaynar qanım, ay “Sarıtel”.

Az yandırsan, dərdim azmı?
Heç bilmirəm qışmı, yazmı?
Saz aşığı tanımazmı,
Zəlimxanam, ay “Sarıtel”.

1973, 9 oktyabr

NEYLƏDİN

Səndən yaman incimişəm,
“Dağlar, Eyvazı neylədin”.
Nə tez verdin qarlı qışı,
Çiçəkli yazı neylədin.

Çıxıbdı dünyanın bici,
Hanı Koroğlunun gücü.
Belində Misri qılıncı,
Əlində sazı neylədin.

Ələ düşməz keçən dəmlər,
Zəlimxanı bükər qəmlər.
Yar olmur dərdə həmdəmlər,
Çəkməyə nazı neylədin.

1973, 11 oktyabr

DEDİM-DEDİ

Qonşu qızdan qənd istədim:
– Özüm qəndəm, balam, – dedi.
– Qızarıbdı yanaqların,
– Alma kimi alam, – dedi.

Dedim: – Səndə bu dil nəymiş,
Dedi: – Qonşum əcəb bəymiş.
Dedim: – Gözəl olur dəymiş,
– Hələ tezdi, kalam, – dedi.

Dedim: – Məndə yoxdu dözüm,
Dedi: – Sənə qurban özüm.
Dedim: – Səni tutdu gözüm,
– Dilim yoxdu, lalam, – dedi.

1973, 10 oktyabr

DEDİM

Yar ilə vəfanı bir dəfə bağla,
Yersizdi yüz iman, yüz ilqar, dedim.
Dostun ətəyindən dördəlli tutdum,
Yaşasın arada düz ilqar, dedim.

Yaxşıya can vermək adətdi məndə,
Gərək sevgisinə qul ola bəndə.
Nəcib nanəcibə yaxın gələndə,
Kəs əhdi-peymanı, üz ilqar, dedim.

Dostum dost olanda canı sağ ollam,
Yanağı saralmaz bağça-bağ ollam.
Cavan Zəlimxanam, uca dağ ollam,
Saxlaram başımda yüz ilqar, dedim.

1973, 14 oktyabr

HAVASINI

Qorqudam, Abbasam, Ələsgərəm mən,
Könlüm çalmasınmı saz havasını.
Meylini verməzmi bağlara bülbül,
Tərlan istəməzmi yaz havasını.

Düşəndə gözlərin dodağı qəndə,
Günahdı salasan ürəyi bəndə.
Sallama yerişli bir qız görəndə,
Dinləmək istərəm naz havasını.

Sevdiyi varlığa tapşıranda can,
Uca dağlar kimi ucalar insan.
Aşıq! Nəğmə deyən dilinə qurban,
Çal mənim anamın öz havasını.

1973, 23 oktyabr

QOCALIQ

Bir cansağlığını verməz dünyaya,
Nə qızıl istəyər, nə zər, qocalıq.
Torpağın önündə əyib belini,
İtən cavanlığı gəzər qocalıq.

Susamaz bir daha şöhrətə, ada,
Bir gün əskik olmaz canından qada.
Keçən günlərini gətirib yada,
Fikir dəryasında üzər qocalıq.

Ah çəkər başının tükləri sanı,
Yersiz bir kəlmədən qaralar qanı.
Hər zülmə, sitəmə öyrəşər canı,
Təbiət neyləsə dözər qocalıq.

1973, 27 oktyabr

DƏRDİMİ

Açdım ürəyimi ürəksizlərə,
Qoydular söhbətə, sözə dərdimi.
Daddım ləzzətini, bildim işimi,
Heç kimə demədim təzə dərdimi.

Anlamaz yanında qaraldı qanım,
Gülmədi üzümə axşamım, danım.
Gördüm, söyləməsəm yanacaq canım,
Söylədim ocağa, közə dərdimi.

Zəlimxan biləndi bəmin qədrini,
Söhbətin qədrini, dəmin qədrini.
Nanəcib bilməyə qəmin qədrini,
Qorxuram gətirə gözə dərdimi.

1973, 30 oktyabr

DODAQDƏYMƏZ GƏRAYLI

Tərlan təki seyrə çıxar,
Qarlı dağlar aşar xəyal!
Gah dediyi yerdə gəzər,
Gah yerini çaşar xəyal!

Qardaşıdı qeyrətlə ar,
Qara saça yağdırar qar.
Şəlalədi, işıq saçar,
Dəli seldi, daşar, xəyal!

Şirin candı can içində,
Eşq əhlisən, yan içində.
Ərzi gəzər an içində,
İnsan ilə yaşar, xəyal!

1973, 8 noyabr

* * *

Yuvadı, məskəndi dərdə, sevincə,
Görünər kitabtək oxunan olsa.
Şairin ürəyi incədən incə,
Şüşədi, qırılar toxunan olsa.

1974, 4 yanvar

DİL

Mənim doğma Azərbaycan dilimdir,
Alov dili, atəş dili, köz dili.
Şöhrətimi fələklərə qaldırıb,
Nəsiminin haqq ürəyi, düz dili.

Öz Kürüm var, milyon dənə Nil olsa,
Öz gülüm var, dünya dolu gül olsa.
Ulduzların sayı qədər dil olsa,
Bir dünyadı hər insana öz dili.

Onsuz coşub çağlamaram, dolmaram,
Onunlayam, heç bir zaman solmaram.
Zəlimxanam, iki dilli olmaram,
Bir dil ilə danışaram yüz dili.

1974, 12 yanvar

* * *

Etibar olarmı özgə dağlara,
Söykənmək istəsən, öz dağın ola.
Olmaya sinəndə nə dağ, nə düyün,
Olanda arxanda yüz dağın ola.

1974, 17 yanvar

* * *

Güldürər üzünü yar, yar olanda,
Dili şəkər eylər, sözü qənd eylər.
İncisən, könlünü almaq eşqinə
Qara saçlarını bir kəmənd eylər.

Ürək öz gücünü sevgidən ala,
Döndərər ömrünü şərbətə, bala.
Məhəbbət bir evi qoymaz tək qala,
Neçə şəhər eylər, neçə kənd eylər.

1974, 17 yanvar

DAMCILAR

Göyün ətəyindən üzülər əli,
Üzünün üstündə gələr damcılar.
Bərəkət göyərdər, torpağa düşsə,
Dənizə düşəndə ölər damcılar.
Daş üstə yüz yerdən maraqlansa da,
İnamın eşqinə, səbrin gücünə
Daşın da bağrını dələr damcılar.

1974, 19 yanvar

SƏNƏ

Bağrıma basıram gecələri mən,
Axşamda, səhərdə səni gəzirəm.
Gəzən olmasam da küçələri mən,
Hər kənddə, şəhərdə səni gəzirəm.

Mən səni gəzirəm əliçıraqlı,
Sən kimi gəzirsən, onu bilmirəm.
Mənim sevgi yolum hardan başladı,
Harda qurtaracaq sonu, bilmirəm.

Gəl mənim sevgilim, həqiqətim gəl,
Qəlbimdən şübhəni, gümanı dağıt.
Bir dağam, dəlisov külək istərəm,
Başımdan şübhəni, gümanı dağıt.

1974, 20 yanvar

* * *

Yuxunun əlindən alıb gecəni,
Bir sirdaş olmuşam əriyən şama.
Yanmışam hər sözün istisində mən,
Yazmışam gözümdən yaş dama-dama.
Səhərin yanına üzüağ gəlib,
Varlığım güvənib eşqə, ilhama.
Gecəni gündüzə qata bilməsə,
Kim çatar arzuya, kim çatar kama.

1974, 23 yanvar

* * *

Nə gəl bənövşətək boyun əy, gözəl,
Yandırma bağrımı nə lalə kimi.
Eşqinlə odlanan bir ürəyim var,
Tökül ürəyimə şəlalə kimi.

1974, 27 yanvar

BİLMİRƏM

Neyləyim, mənimki belə düşübdü,
Yersiz kəlmələrə dözə bilmirəm.
Doğruya öyrənib dilim-dodağım,
Yalandan, yarğandan düzə bilmirəm.

Sevgisi dənizdi, nərəsi çaydı,
Vətən xoş sözümü aləmə yaydı.
Gəl mənə demə ki, nə hay-haraydı,
Ürəksiz, ilhamsız gəzə bilmərəm.

Şair varlığını elə bağlayar,
Məsləkə bağlayar, dilə bağlayar.
Adam var, güllərdən şələ bağlayar,
Mən çiçək boğazı üzə bilmərəm.

1974, 27 yanvar

VƏTƏN

Yay günü yağdırıb üstünə qarı,
Ağardıb saçını yağılar, Vətən.
Haqqın ürəyinə güllə dəyəndə
Yandırıb dilini ağılar, Vətən.

Yıxıldı zülm evi, çəkildi ayaz,
Yenə sənin oldu tər çiçəkli yaz.
Xəyanət dağ olsa, daşı da qalmaz,
Göl olsa, suları soğular, Vətən.

Azalmaz ananın eşqi, hünəri,
Hər gün çəkilsə də balanın yeri.
Bir oğlun dönmədi cəbhədən geri,
Min oğlun təzədən doğular, Vətən.

1974, 1 fevral

BACI

Yeni bir şeirimi yazıram sənə,
Bilirəm, sözümün acısan, bacı.
İlhamsız vaxtımı, yorğun anımı
Şeirsiz günümü acı san, bacı.

Eşqinlə dillənən kamandı, sazdı,
Şairlər adına min nəğmə yazdı.
Şirin sözlərinə bal desəm azdı,
Kim deyir "soğandan acısan", bacı.

Nə sevdin boranı, nə yersiz nazı,
Gülüşün könlümə gətirdi yazı.
Bir evin gəlini, bir evin qızı,
Bir eşqin qızılı tacısan, bacı.

Yüzü, yüz əllini keçsə də yaşın,
Bir gün çatılmasın kədərdən qaşın.
Təkcə mən deyiləm sənin qardaşın,
Qardaşlı dünyaya bacısan, bacı.

1974, 16 fevral

AY ANA

Dost deyəndə səndən düşdü söhbətim,
Köhlənimi yüyrək gördüm, ay ana.
Ürək coşdu, qəm dağıldı başımdan,
Buludları seyrək gördüm, ay ana.

Eşqin çatıb harayıma, dadıma,
Çox yanmısan alovuma, oduma.
Uşaqlığım gəldi düşdü yadıma,
Yağ içində böyrək gördüm, ay ana.

Daha sənin deyib-gülmək vədəndi,
Qarmı yağıb, saçındakı nə dəndi?
Hara getdim, heç bilmədim nədəndi,
Anaları kövrək gördüm, ay ana.

1974, 27 fevral

QALDI

Bizi ayırdılar, ayrı saldılar,
Baxışım titrəyən dodaqda qaldı.
Axdı qəhərimdən gözümün yaşı,
Gözlərim o qoşa bulaqda qaldı.

Bir görüş kimsənin deyildir bəsi,
Vaxtsız ayırmasın tale heç kəsi.
Ümidi qırılan bir qəlbin səsi
Fikirdən çıxmadı, qulaqda qaldı.

Getməz xəyalımdan o vaxt, o vədə,
Daha gəlməsə də nə səs, nə sədə.
Dolanıb ömrümdən illər keçsə də,
Demərəm o günlər uzaqda qaldı.

1974, 3 mart

DÜŞÜNCƏLƏR

Gündüzlər düşünə bilmirəm demə,
Gündüz düşüncədi, gecə düşüncə.
Ağlına arxalan, fikrinə güvən,
Yersiz zor işlədib gücə düşüncə.

Kövrək bir duyğunun nişanəsidir,
Cavan bir alimin saçındakı dən.
Ən böyük kitablar, ən böyük işlər,
Yaranıb ən incə düşüncələrdən.

Baxışlar zərrədə bir aləm görər,
Bölər bölünməzi min bir yerindən.
Eşqimiz o qədər qalxar, ucalar,
Fikrimiz nə qədər gəlsə dərindən.

İncə duyğulardan çox-çox uzaqdır
Gülmək xatirinə gülünc olanlar.
Aldı qüvvətini düşüncələrdən,
Sözünün kəsəri qılınc olanlar.

Alanda qoynuna duyğular məni,
Bir zəmi görmüşəm bircə dəndə mən.
Haraydan, həşirdən heç nə çıxmadı,
Tapdım gəzdiyimi düşünəndə mən.

İnsan düşünəndə, insan duyanda
Ən çətin suala cavab tapılar.
Ağlın qarşısında dayana bilməz,
Taybatay açılar bağlı qapılar.

1974, 28 fevral

* * *

Ey ilhamım! Zəhərin də şirinmiş,
Şəkərincə, şərbətincə, balınca.
Qoy təbiət alsın cavan canımı,
Könül qırıb, səni məndən alınca.

Anam kimi açılıbdı qolları,
Qucaqlayaq gəl-gəl deyən yolları.
Seyr eyləyək yaşılları, alları,
Heydən düşüb, yarı yolda qalınca.

Xoş olmazmı sözdən naxış vurmağım,
Hər ürəkdə isti yuva qurmağım.
Daha bəsdi dayanmağım, durmağım,
Getməliyəm mən arzumun dalınca.

1974, 13 mart

* * *

Həyatın verdiyi dərdə, sevincə,
Hamı bir sevinə, hamı bir yana.
Dünyanın üstünə xoş xəbər gələ,
Süfrədə hamının şamı bir yana.

1974, 15 mart

BİR YUXU GÖRÜRDÜM...

Yoluna düşmüşdü bütün işlərim,
Bilmirdim nizamı pozulacaqmış.
Bir yuxu görürdüm, səadət idi,
Sən demə, tərsinə yozulacaqmış.

Bir yuxu görürdüm, yuxu nə yuxu,
Bənzətmə tapılmaz şirinliyinə.
Bilmədim dünyanın harasındayam,
Endim nəşələrin dərinliyinə.

Səni coşqunluqda, səni hünərdə
Şəlalə az olar, çay az olardı.
Ən dərin dənizin adını çəksəm,
Eşqinin yanında dayaz olardı.

Bir yuxu görürdüm, razıydı atan,
Elçilər söz verib, söz almışdılar.
Mənə gözüm seçən, könlüm istəyən,
Mənə sənin kimi qız almışdılar.

Bir yuxu görürdüm, çalınırdı toy,
Min səs qarışmışdı neyin səsinə.
Yuxuda səadət, həyatda dəhşət,
Bax insan ömrünün mənzərəsinə.

Bir ağac budağı yaylı çarpayı,
Kölgəsi müqəddəs otağınıydı.
Olsa da gecənin rəngi süd kimi,
Qaymağı, şübhəsiz, dodağınıydı.

Yoluna düşmüşdü bütün işlərim,
Bilmirdim nizamı pozulacaqmış.
Bir yuxu görürdüm, səadət idi,
Sən demə, tərsinə yozulacaqmış.

1974, 17 mart

DEDİM

Başım üstdən böhran keçdi,
Sözüm səni çapar, dedim.
İtirsən də ilim-ilim,
Məni şeirim tapar dedim.

Lap olsan da oddan betər,
Gələ bilməz mənə xətər.
Tək ilhamım, eşqim yetər,
Nəyim varsa apar, dedim.

Yaxşı düşün şair haqda,
Bir nəğmədi min dodaqda.
Kök atmışam bu torpaqda,
Hünərin var qopar, dedim.

1974

* * *

Əməkdə, zəhmətdə, hərəkətdədir,
Həm beynim, həm qəlbim, həm əlim mənim.
Nurdu barmağımın süzülən təri,
Torpağa can verər nəm əlim mənim.

Həmi ev ucaldar, həmi tar çalar,
Həm gül tumarlayar, həm dağ parçalar.
Qüdrəti önündə dağlar alçalar,
Üzümü güldürər əməlim mənim.

Bütün zirvələrin ucası olsam,
Ayı, qollarımla qucası olsam,
Ən uzaq ulduza uçası olsam,
Torpaqdı bünövrəm, təməlim mənim.

1974, 25 mart

GƏLƏR

Sənin gəlişinlə gülər taleyim,
Öz hökmüm, öz vaxtım, öz anım gələr.
Uzanar məclisim səhərə qədər,
Söhbətə Qorqudum, ozanım gələr.

Heyranam vurduğu hər incə xala,
Mümkünmü qəlbimdə bir nisgil qala.
Sevincim sel olar, inamım qala,
Dərdin pərənini pozanım gələr.

Hələ gözümdədi neçə arzu-kam,
Sənin eşqinədir yandırdığım şam,
Sənlə hər zaman baharam, yazam,
Döndərsəm üzümü, xəzanım gələr.

1974, 23-26 mart

AĞRIYIR ÜRƏK

Davaya-dərmana dözə bilmərəm,
Ağrıma ürəyim, ağrıma hələ.
H.Arif

Daş atıb qıranda dilbilməz, naşı,
Ürək qəzəbindən ağrımadımı?
Elə göynədi ki, bağrımın başı,
Çıxartdı yadımdan ağrım adımı.

İncə bir gözəlin zərif ruhuna
Bir naşı tənəsi toxunan kimi, ağrıyır ürək.
Odlu baxışından, nurlu gözündən
İztirab kəlməsi oxunan kimi, ağrıyır ürək.

Ehtiyac üzündən əlacsız qalıb,
Açılan əl görür, ağrıyır ürək.
Haqqı utandırıb hörmətdən salan,
Əyri əməl görür, ağrıyır ürək.

Tez yanıb, tez sönən bir şimşək bilir,
Közü kömür görür, ağrıyır ürək.
Vaxtsız şaxta vuran gül-çiçək bilir,
Solan ömür görür, ağrıyır ürək.

Yarpaq da düşəndə öz budağından,
Birinci ürəyi yaxalayır qəm.
Ağır bir xəbəri götürə bilmir,
Beş addım getməmiş ağrıyır ürək.

Tufanlar göylərə kül sovurur, kül,
Qara yel əsəndə ağrıyır ürək.
Şair sinəsində dincəlməz könül,
Ağrıma desən də, ağrıyır ürək.

1974, 9 dekabr

VƏTƏN

Vətəndir alovu, vətəndir közü,
Eşqimin gözləri kor olan deyil.
Ona məhəbbətim sönməz işıqdır,
Yatıb kül altında qor olan deyil.

1974, 11 dekabr

QOŞMA

Seyrə çıxar şairlərin xəyalı,
Gəzər yenə bu bağların içində.
Qızılgülün yanağından yayınmaz
Nəzər yenə bu bağların içində.

Yarpaq saxlar harayını, ününü,
Gül əridər qəzəbini, kinini.
İnsan olan öz ömrünü, gününü
Bəzər yenə bu bağların içində.

Sevər, duyar həqiqəti, doğrunu,
Yox eyləyər hər acını, ağrını.
Qoca bağban dərdin-qəmin bağrını,
Əzər yenə bu bağların içində.

1974, 7 dekabr

SƏNİ

Burax təbiətlə zarafatını,
Yandırıb şam kimi əridər səni.
Cavansan, quş kimi göyə qaldırar,
Qocasan, çəliklə yeridər səni.

Vaxt olar, adına saray tikdirər,
Vaxt olar, bağında bostan əkdirər,
Dəli sellər kimi nərə çəkdirər,
Yazıq göllər kimi kiridər səni.

Zəlimxan, həyatın mənasına bax,
Saralır payızda yamyaşıl yarpaq.
Can verən olsa da bu ana torpaq,
Can alıb qoynunda çürüdər səni.

1974, 8 dekabr

“TOYUNU GÖRÜM” DEDİ

Ömrün oğlan çağında,
Bir dünya sevgi duydum,
Bir qarış torpağında,
Gəzdim doğma kəndimi.
Qoy özü versin cavab,
Ona olan istəyim,
Bircə gün azaldımı,
Bircə gün tükəndimi?!
Bağlarına su verdim,
İçib-içib doyunca,
“Toyunu görüm” dedi.
Baş qaldırdı çiçəklər,
Yaşıl yollar boyunca,
“Toyunu görüm” dedi.
Düzəltdi öz qəddini,
Baharda bənövşəsi.
Sığal verdi hüsnünə,
Toy biçimli meşəsi,
“Toyunu görüm” dedi.
Boya-başa yetirdi,
Nağıllar, əfsanələr,
Dilində xeyir-dua,
Ağbirçəkli nənələr,
“Toyunu görüm” dedi.
Ağsaqqal babalar da,
Baxdı uca boyuma,
“Toyunu görüm” dedi.
Sevənlər, sevilənlər,
Hazırlaşdı toyuma,
“Toyunu görüm” dedi.
Toyum oldu payızda,
Gizli yandım-yaxıldım,
Qəlbim nəşə görmədi.
Niyə mənim sevgimi,
Toyunu görüm deyən
O bənövşə görmədi,
O bənövşə görmədi!

1974, 10 dekabr

GÖZƏLLƏR YIXIB

Odu dalğa vuran ocaq kimiydim,
Od söndü, oynatdın külümlə məni.
Kədərdən, həsrətdən uzaq kimiydim,
Sən qohum eylədin zülümlə məni.

Aylarmı, illərmi çıxdı əlimdən,
Elə qismətimə bir günmü düşdü.
Üzünü-gözünü bozardanda çən,
Sevinc bu yerlərdən sürgünmü düşdü.

Görüşlər olsa da şirindən şirin,
Vaxtsız ayrılıqlar qəlbini sıxıb.
Sevilən şairin, sevən şairin,
Evini həmişə gözəllər yıxıb.

1975, 13 dekabr

BEŞİK

Keçsə də fəsillər, ötsə də illər,
Hələ çox köhnəlib əldən düşməyib.
Sozalıb baxışlar, yorulub dillər,
Onun söz-söhbəti dildən düşməyib.

Yatmışam bir zaman dar qucağında,
Bağlanıb qollarım bələklə mənim.
Ömrümün-günümün körpə çağında
Oxşayıb ruhumu küləklə mənim.

Gün keçir, ərisin qəm də, qəhər də,
Həsrəti bələklə boğulsun gərək.
O beşik qalmasın durduğu yerdə,
Yeni bir körpə də doğulsun gərək.

Qaynar ürəyində neçə arzu-kam,
Gör nələr eyləyir həvəsi üçün.
Mən yatan beşiyi saxlayır anam,
Hələ yaranmamış nəvəsi üçün.

1974, 18 dekabr

DƏNİZƏ BAXIRAM

Dənizə baxıram dalğın, fikirli,
Baş vur, qucağımda üz deyir mənə.
Ömrü əbədidi, tarixi sirli,
Əfsanə danışır, söz deyir mənə.

Dənizə baxıram, sevinir ürək,
Dalğa şöhrətinə çatır ləpələr.
Sevdiyim nəğmənin şirinliyitək,
Mənim ürəyimə yatır ləpələr.

Çatdığı zirvədən istəmir enə,
Olub dalğaların saçı qar kimi.
Dənizin sinəsi qabarıb yenə,
Oğlu şair olan analar kimi.

1974, 22 dekabr

İŞIĞINDA

Ömrün yollarında yanan çıraqdı,
İnsanın eşqi var göz işığında.
Günəşin gücünü, Ayın nurunu
Hər ürək yaşadar öz işığında.

İşıqlı arzular ürəyə yatar,
Süzülər sinədən söz qatar-qatar.
Gözəllər könüldə gur ocaq çatar,
Sevənlər qaynaşar köz işığında.

Alışar nəfəsi, qaynar ilhamı,
Qalmaz gözlərimdə istəyi, kamı.
Odlu sətirləri yandırar şamı,
Şair həyat tapar söz işığında.

1974, 26 dekabr

ÖPÜŞƏNDƏ

Vədəsində yetir, haqla,
Ey təbiət, özün saxla.
Qaynar gözlü bir bulaqla
Yanan dodaq öpüşəndə.

Xəyal qarlı dağlar aşar,
Zirvələrdə yolu çaşar.
Yer göy ilə qucaqlaşar,
Üfüqlə dağ öpüşəndə.

1974, 28 dekabr

DEYİR

Hərdən havalanıb eşqə düşəndə,
Könül, ya kamanam, ya taram deyir.
Süzülüb ən şirin duyğular kimi,
Ellərin ruhuna yataram deyir.

Qoymaram arzunu, xəyalı darda,
Gül-çiçək açaram boranda, qarda.
Məndədi məclis də, toy da, mağar da,
"Segah"am, "Şahnaz"am, "Qatar"am deyir.

Fikirlər beynində geyməsin qara,
Zəlimxan, sən hara, yorulmaq hara.
Uzaq mənzillərə, uzaq yollara
Yeriyib, yüyürüb çataram deyir.

1975, 1 yanvar

KƏNDƏ GƏLİŞ

Qırıb damarını uzun yolların,
Bir payız axşamı mən kəndə gəldim.
Şimşək qılıncını qına qoyanda,
Palıd yarpağını tökəndə gəldim.
Yarpaq tökülsə də, belə gəlməyim
Heç demək olarmı xəzana düşdü.
Bu yerdə ürəklə dinmək, danışmaq
Mənim qismətimə – yazana düşdü.
Ev-ev, ocaq-ocaq dolandıqca mən,
Söhbət dodaqlarda aşıb-daşırdı.
Uşaqlar gözümdə qalxır, ucalır,
Qarılar, qocalar cavanlaşırdı.
Əgər şairsənsə, dağlar, dərələr
Dedi: – Bu qüdrətin önündə əyil.
Əyildim, torpağın öpdüm üzündən,
Bu gəliş yadımdan heç çıxan deyil.
Könül həsrətiylə gəldi, görüşdü,
Eşqimin başına yollar dolandı.
Gəlişim toyların vaxtına düşdü,
Boynuma nə qədər qollar dolandı.
Dodaqda gülüşü, gözdə sevinci
Gözəllər üstümə axın eylədi.
Sevinc doğma saydı özgələri də,
Məhəbbət uzağı yaxın eylədi.
Ruhuma qol-qanad verməyən baba,
Qadamı almayan nənəmi qaldı.
Gəzmədiyim çəmən, içmədiyim su,
Ayağım dəyməyən binəmi qaldı.
Xəyala dönsə də aylar, fəsillər,
Çıxsa da yadımdan ən istəkli il,

Dünyaya gəldiyim əziz gün kimi,
Bu gəliş yadımdan heç çıxan deyil.

Gördüm xoş arzulu, şirin diləkli,
Analı, bacılı, yarlı dünyamı.
Gördüm dağ cüssəli, cavan ürəkli,
Atalı dünyamı, varlı dünyamı.
Aşsa da başımdan varı-dövləti,
Atasız yoxsuldu, kasıbdı dünya.
Atalı övlada gözəlsən deyib,
Həmişə bağrına basıbdı dünya.
Öz doğma oğlutək bağrına basdı,
Öpdü ağsaqqallar gözümdən mənim.
Qəlbimin səsinə hey qulaq asdı,
Bircə kəs çıxmadı sözümdən mənim.
Sən də mənasını anla, ey ürək,
Günlərin qədrini, qiymətini bil.
O da cəsarətlə dilə gəldi ki,
Bu gəliş yadımdan heç çıxan deyil.
Gizlədə bilmədi öz sevincini,
Zirvələr qoynunda əridi qar da.
Dedi, hayandasan, ay etibarsız,
De, fikrin, xəyalın hardadı, harda.
Yellər qanad verdi, qayalar vüqar,
Alışan ocaqlar közə bax, dedi.
Tellər sığallandı, güllər bəzəndi,
Titrəşən çiçəklər düzə bax, dedi.
Gözə göz demərəm, sevindiyindən
Laləni görəndə oda düşməsə.
Ömrümüz mənasız bir kitab olar,
Şirin xatirələr yada düşməsə.
İllərlə izinə düşə bilməsəm,
Həsrət başım üstə ötsə də dil-dil,
Gözümün nurunda həyat tapacaq,
Bu gəliş yadımdan heç çıxan deyil.

1975, 4 yanvar

YAXŞI Kİ...

Səni oyadım deyə
Pəncərənə daş atdım.
Ah, şüşə niyə sındı,
Mən ki lap yavaş atdım.

Bu sevgi şıltaqlığı
Qırdı tökdü şüşəni.
Kim təmkinli görübdü
Eşq oduna düşəni.

Sənə olan istəyim
Yanar oddu, kül deyil.
Sındırdığım şüşədir,
Yaxşı ki, könül deyil!!!

1975, 5 yanvar

QAYITMALIYDIM

İnsanın acığı, hirsi tutanda
Özgəni tanımaz, özündən çıxar.
Tüstü təpəsində dumana dönər,
Qəzəb qığılcımı gözündən çıxar.
Əl nədən yapışar yadına düşməz,
Sıyırar qılıncdan xəncərə kimi.
Mərhəmət üzünə çəkər pərdəni,
Bağlanar önündə pəncərə kimi.
Özümdən çıxanda dünyadan çıxıb
Ulduza getmişəm, Aya getmişəm.
Yerdə qala kimi bir könül yıxıb,
Göydə bir nişana, toya getmişəm.
Orda ayılmışam yer o yer deyil,
Susub həm qəzəbim, həm kinim mənim.
Yaylaqdan arana köçən el kimi,
Yerinə qayıdıb təmkinim mənim.
Heyif, bu yollarda yordum özümü,
Ömrümə-günümə, vaxtıma qıydım,
Mən niyə bilmədim qayıtmalıydım.

Özümə qayıtdım, dünyaya gəldim,
Dağlar səbir qoydu səbrimin üstə.
Harda dəfn olardım torpaq olmasa,
Orda kim gələrdi qəbrimin üstə.
Sən demə, yenidən başlanıb həyat,
Könüllər, duyğular barışmalıymış.
Sellər, şəlalələr, çaylar, bulaqlar
Axıb bir-birinə qarışmalıymış.
Gün vurub, əridib quzeydə qarı,
Gül-çiçək açılıb yaz olmalıymış.

Dağlar od sinəli aşığa dönüb,
Haraylı dərələr saz olmalıymış.
Kinə, küdurətə könlünü versən,
Bütün həyatını zəhər eyləyər.
Yaşamaq həvəsi başqa həvəsdi,
Dumanlı gecəni səhər eyləyər.
Gətirib qəlbimdə səhər eşqini,
Bütün qəzəbləri soyutmalıydım.
Yol gəldim özümdən çıxdığım qədər,
Qayıtdım, qayıtdım, qayıtmalıydım.

1975, 6 yanvar

DEYİLDİ

İnsan xoş diləklə gəldi dünyaya,
Torpağa bağçası, bağı deyildi.
Coşqun cavanlığın qaynar vaxtına,
Ömrün ən istəkli çağı deyildi.

Kim istər həyatda günü puç keçə,
Varlığı yox olub, dönə bir heçə.
Vaxtsız ayrılığa, vədəsiz köçə
Sinənin sağalmaz dağı deyildi.

Açıldı gül-çiçək, yağdı yağış, qar,
Gözü həm qış gördü, həm əlvan bahar.
Gələndə eşqinə layla çaldılar,
Gedəndə üstündə ağı deyildi.

1975, 23 yanvar

OVÇU DA VAR, OVÇU DA

Mən də kişiləndim, ovçuyam deyə,
Özümə şahintək ov alan dedim.
Dolan bu yerləri, qır bu tilsimi,
Könül, nə yatmısan, havalan, dedim.

Dolandım həvəslə çölü-çəməni,
Səsimi qoynuna yüz dərə çəkdi.
Qartal ucalara səslədi məni,
Cüyür xəyalımı düzlərə çəkdi.

Dərəyə səs düşdü tərpənəndə əl,
Hürkütdüm ovumu, kiriyəmmədim.
Tüfəngim açıldı vaxtından əvvəl,
Ovçu yerişini yeriyəmmədim.

Ovçu ov axtarıb, dolanar dağı,
Qarğanı, sərçəni ov sana bilməz.
Düşsə də qüvvətdən əli-ayağı,
Sevdiyi sənətdən ovsana bilməz.

Dumanlar endirdi gözümə pərdə,
Pusquda, bərədə dura bilmədim.
Şirlə pəncələşdi babam bu yerdə,
Mənsə bir çaqqalı vura bilmədim.

1975, 28 yanvar

OLUB

İşığa çevrilib gözümdə dünya,
Hər yanım aynalar, güzgülər olub.
Elə sevinmişəm, sanki bir zaman
Qəm çəkən özüm yox, özgələr olub.
Güldürüb ömrümü, məhəbbətimi,
Nə yaxşı səndəki üz gülər olub.

1975, 4 fevral

ƏSMƏSİN

Çiçək sayrışanda bağda, bağçada,
Deyirəm meh əssin, külək əsməsin.
Arzunun gülşəni solar həyatda,
Yarpaq titrəməsin, ürək əsməsin.

1975, 7 fevral

HEYİF

Zəhmətdən qaçanlar dağlar aşmadı,
Yolları həmişə düzdən saldılar.
Naşılar sənətə heç yaraşmadı,
Gözəl şairləri gözdən saldılar.

1975, 9 fevral

ŞAİRİN

Hüseyn Arifə

Qarlı yaylaq, qızıl qaya, göy çəmən
Bəzəyidi, xınasıdı şairin.
Qartal desə,baş endirib zirvələr
Mətləbini qanasıdı şairin.

Bu torpaqda hər kim açsa gözünü,
Əziz bilsə ocağını, közünü,
Kəlməsini, hikmətini, sözünü
Yada salıb anasıdı şairin.

Xan Arazdı sahilini aşması,
Dəli Kürdü havalanıb coşması.
Ürəklərdə bayatısı, qoşması
Sarayıdı, binasıdı şairin.

Nəfəsidi çəmənlərin tər gülü,
Nəğməsidi, incə-incə dər gülü.
Vətənimin hər çiçəyi, hər gülü,
Dilbəridi, sonasıdı şairin.

Qəlbini duy, asan bilmə gəl qəmi,
Ağır olub el möhnəti, el qəmi.
Yad eyləsən Ələsgəri, Dilqəmi,
Kövrək qəlbi yanasıdı şairin.

Hey dilində əzbər olub dost adı,
Zərgər kimi zər seçəndi, ustadı.
El atası, Səməd Vurğun ustadı,
Azərbaycan anasıdı şairin.

1975, 5 fevral

VƏTƏN NƏĞMƏLƏRİ

Göz açanda dünyaya
Bu torpağa vuruldum.
Hər ota, hər çiçəyə,
Hər yarpağa vuruldum.
Qəlbimdə torpaq eşqi
Göylər qədər dərindi.
Əzəl gündən, ey Vətən,
Məni havalandıran
Sənin nəğmələrindi.

Əlvan çəmənlərindən
İncə-incə dərdiyim,
Əziz bir nemət kimi
Yarıma göndərdiyim
O gülşən də, o gül də
Naxışındır, zərindir,
Sənin töhfələrindir,
Sənin nəğmələrindi.

Nəfəsiylə isinib,
Həvəsiylə coşduğum,
Oxuduğum, duyduğum,
Öyrəndiyim, qoşduğum
Yaşın qədər qədimdi,
Özün qədər şirindi.
Ürəkdən nə gəlirsə,
Sənin nəğmələrindi!

1975, 13 fevral

DANLAMA

Ay gözəlim, sözdü, çıxdı dilimdən,
Pərişanam, pərişanı danlama.
Yetməmişəm məhəbbətin sirrinə,
Soruşanam, soruşanı danlama.

Gözlərində sevinc də var, qüssə də,
Vurğunuyam, ürəyimi üzsə də.
Ürək dönməz, incisə də, küssə də
Barışanam, barışanı danlama.

1975, 15 fevral

ARASINDA

Göz gözdən od alar, ürək ürəkdən,
Barmaqlar qızınar əl arasında.
Arı nemətini bala döndərib,
Tapar həyatını gül arasında.

Söhbəti haqlayar ağaran danı,
Aşığın saz ilə qaynayar qanı.
Ölməz havalara tapşırıb canı,
Təzənə əriyər tel arasında.

Tərpənsə qəlbimin incə bir simi,
Uzadar ömrümü nəğmələr kimi.
Ana, tez ölsəm də çəkmə dərdimi,
Əgər səsim qalsa el arasında.

1975, 17 fevral

ÖMÜR İSTƏMƏ

Olub-keçənləri gətirmə yada,
Qəlbini buz kimi saxla deyirsən.
Dövran sür, doyunca yaşa dünyada,
Yüzü, yüz əllini haqla deyirsən.

Eşqimiz alovlu, ömrümüz qısa,
Mən necə saxlayım qəlbi buz kimi.
Nəyimə gərəkdi işıq yaymasa,
Qaranlıq gecəyə bir ulduz kimi.

Min insan ömrünü yola salır daş,
Nəyə nəfəs verir, nəyə can verir.
Bir ürək qaynayıb coşanda, qardaş,
Min qəlbə ruh verir, həyəcan verir.

Qoy yansın köz kimi duyğular üstə,
Qəlbi daş istəmə, dəmir istəmə.
Bir günlük mənalı yaşamaq istə,
Yüz günlük mənasız ömür istəmə.

1975, 19 fevral

GƏZƏR

Qar kimi kövrələr, əriyər babam,
Ruhu axşam-səhər bağçalar gəzər.
Gözü yaşamaqda, özü yataqda,
Eşqi dağlar deyər, ucalar gəzər.

Ayların, illərin keçər başından,
Qəlbi soyuq olar divar daşından.
Evin ortasında taxtın qaşından
Körpə uşaq kimi güc alar gəzər.

Yersizdi, dərmanı, davanı neylər,
Lap dərman olsa da, havanı neylər.
Cavanlıq itirən cavanı neylər,
Gözü hara baxsa, qocalar gəzər.

1975, 23 fevral

YOLLARIN

Havası hər zaman ürəyimdədi,
Havalı yolların, dəli yolların.
Ömrümü özündən uzun eyləyər,
Astadan əsəndə yeli yolların.

Sevinsə, hər yanı gül-çiçək açar,
Sükut baş götürüb əlindən qaçar.
Yarğandan atılar, qayadan uçar,
Arzuya çatmaqçün əli yolların.

Çoxunun ömrünü versə də bada,
Azını çatdırar şöhrətə, ada.
Düzlərdə düzəlib cavanlaşsa da,
Dağlarda əyilər beli yolların.

1975, 26 fevral

AY BƏNÖVŞƏ

Sən hələ dünyaya təzə gəlmisən,
Səhərin şehindən iç, ay bənövşə.
Üzündən öpəndə duyduğum ətir,
Eyləsin dərdimi heç, ay bənövşə.

İncə görkəminə dəysə bir xətər,
Göynədər ruhumu güllədən betər.
Kolların dibində qaldığın yetər,
Yerini qəlbimdə seç, ay bənövşə.

Səndə təbiətin sadəliyi var,
Eşqini duymasam, el məni qınar.
Nə boynun əyilər, nə qəlbim sınar,
Olmasa vədəsiz köç, ay bənövşə.

1975, 14 mart

QALDI

Ayağım dəyməmiş qoca dağların
Nə yamacı qaldı, nə yalı qaldı.
İncə çiçəklərin, zərif güllərin
Başımda sevdası, xəyalı qaldı.

Bəslədim bağçanı, becərdim bağı,
Dərdim qucağına döşənən tağı.
Nə qədər duydumsa ana torpağı,
Qarşımda min sirli sualı qaldı.

Düşəndə yanına şimşəyin qolu,
Gün doğdu, açıldı yaylağın yolu.
Min dəfə çəməni döysə də dolu,
Yenə də ismətli, həyalı qaldı.

1975, 17 mart

* * *

Müqəddəs eşqimiz xırdalanmasa,
Hər addımbaşında sınama məni.
Qəlbində şübhələr, bəlkələr olsa,
Qına ürəyini, qınama məni.

1975, 29 mart

* * *

Ömrə qanad verən yollar,
Dağdan aşır, düzdən keçir.
Bu yolların hesabına,
Yaş var, gəlir yüzdən keçir.

Dəniz, üfüq, sahil, ada,
Gəzmək düşür hər an yada.
Yollar çoxdu bu dünyada,
Ən gözəli bizdən keçir.

1975, 25 mart

* * *

Küsmək də gözəldi, barışmaq olsa,
Küsülü qalmaqdan çəkin, əzizim.
İncə duyğuları olan könlünə
Nə nifrət dolmasın, nə kin, əzizim.

Yar yarın hökmüylə barışan olar,
Xeyrinə, şərinə qarışan olar.
Halı xəyalından pərişan olar,
Yalqızın, yarsızın, təkin, əzizim.

1975, 2 aprel

GÖZLƏR MƏNİ

İlk görüşdə “arzum” dedi,
Dilək saydı gözlər məni.
Allah bildi öz eşqinə,
Fələk saydı gözlər məni.

Ocaq olmaq idi qəsdim,
Qismətimi özüm kəsdim.
Baxışından tir-tir əsdim,
Külək saydı gözlər məni.

Gör, endirdi hardan hara,
Adım üstdən çəkdim qara.
İncəlib, düşdüm yollara,
Lələk saydı gözlər məni.

1975, 10 aprel

SULAR

Dağda da, düzdə də ömrümüz kimi,
Gecəli-gündüzlü çağlayar sular.
Baharda gülməkdən uğunub gedər,
Payızda kövrəlib ağlayar sular.

Öpüşü güllərin bəsidir, bəsi,
Verər hər ləçəyə həyat nəfəsi.
Müğənni dağların tutulmaz səsi,
Dərə boğazını yağlayar sular.

Torpaq istəyincə içməsə onu,
Yanar Əsli kimi çöllərin donu.
Damladır əvvəli, dənizdir sonu,
Bizi eşqimizə bağlayar sular.

1975, 12 aprel

GÜL

Sənə baxan gözlərə
Hər zaman qəm olmusan.
Elə batıb ocağın,
Ömürlük dəm olmusan.

Nə közsən, nə kömürsən,
Sona çatmış ömürsən.
Özün heç nə yemirsən,
Yellərə yem olmusan.

Düşür qulağım səsə,
Çıxmır yadımdan nəsə.
Sən hansı qəbirdəsə,
Əsli-Kərəm olmusan.

1975, 12 aprel

* * *

El gözünə qurbanam,
Tərəzidir, tərəzi.
Heç kəs ilə heç zaman
Yoxdu qəsdi, qərəzi.

O gözlərdə əks olub,
Sevgisi də, kini də.
Ədalətdir, ədalət,
Tanrısı da, dini də.

Uca dağı el görər,
Nə olsun çoxu görməz.
El gözündən düşənin,
Gözləri yuxu görməz.

İstəsən ki, həyatda
Həyat boyu qalasan,
Gərək elin, Vətənin
Gözündə ucalasan!

1975, 21 aprel

QORUYA BİLMƏDİM

Şamil babamın xatirəsinə

Sən dağa çıxanda əriyərdi qar,
Yaylaq sevincindən haya düşərdi.
Daş çiçək bitirər, qaya gül açar,
Nurundan hər yana saya düşərdi.

Çirmədin qolunu dirsəyə qədər,
Gözləri tutulan bulaq görəndə.
Göynətdi qəlbini acı bir kədər,
Gövdəsi yaralı budaq görəndə.

Palıd da tanıdı bir bağban kimi,
Önündə hörmətlə başını əydi.
Duydu bu hikməti bir insan kimi,
Bu ləzzət yüzillik dünyaya dəydi.

Ölümün qəlbimi vurdu qanatdı,
Kədəri çiynimdən ata bilmədim.
Könlüm görüşünə yaman can atdı,
Heyif, sağlığına çata bilmədim.

Qayası qartallı məğrur dağ oldun,
Şimşəkdən qoruya bilmədim səni.
Budaqdan asılan son yarpaq oldun,
Küləkdən qoruya bilmədim səni.

Baxsan duruşuma, görməzsən daha
Bir zaman gördüyün şəvə saçları.
Sən köçüb gedəli yaman oxşayır
Baba saçlarına nəvə saçları.

Həyatda yadigar qoyub getdiyin,
İzəm, nişanəyəm, ləpirəm, baba.
Həmişə əlindən öpərdim sənin,
İndi torpağından öpürəm, baba.

1975, 11 may

TƏRPƏNƏR

İncə duyğuları duymayan insan,
Həmişə xam düşər, naşı tərpənər.
Arif gözlərinə verməz əziyyət,
Mətləb anladanda qaşı tərpənər.

Bağbana əzizdir xətri hər bağın,
Danışan dili var otun, yarpağın.
Dilbilməz əlindən ana torpağın,
Qayası titrəyər, daşı tərpənər.

Kim ki, dünya görüb bu dağlar kimi,
Atılıb-düşərmi uşaqlar kimi.
Əl-qolu oynamaz budaqlar kimi,
Astadan-astadan başı tərpənər.

1975, 14 may

PALIDLAR OLDU

Küləklər qovanda qaraldı qanı,
Bulud göy üzündə buluda dəydi.
Şimşək meşələrə saldı tufanı,
Zərbəsi yenə də palıda dəydi.

Məğrur bir ağacın aldığı zədə,
Budaqdan-budağa gəzdi, car oldu.
Günəşin nurunu hamı içsə də,
Şimşəklə döyüşən palıdlar oldu!

1975, 17 may

YOLLAR

Düyünsüz ağacın taxtası kimi,
Təmizdi, şumaldı, hamardı yollar.
Qoynunda sel kimi insan axıdar,
Həyatı yaşadan damardı yollar.

Udmazmı insanı ayaqlı, əlli,
Əgər tutduğu yol deyilsə bəlli.
Düzlüyü olmasa mənə təsəlli,
Qəlbimə şübhətək damardı yollar.

1975, 22 may

VAXTIDI

Baharçağı Borçalıya gəlmişəm,
Ömrün-günün köhlən yoran vaxtıdı.
Dilə gəlib bulaqların başında,
Telli sazın qızqaytaran vaxtıdı.

Yaylaq yeri çiçək açıb, xallanıb,
Həyat yenə şəkərlənib, ballanıb.
Ağ şəlalə qayalardan sallanıb,
Sel gücünün dağlar yaran vaxtıdı.

Yaz fəslidi, yaz günüdü, yaz anı,
Dağ səsləyir yaradanı, yazanı.
Bircə yerdə görmədim ki, xəzanı,
Deyəm köçün, daha aran vaxtıdı.

1975, 16 may

BELƏ GÖRDÜM

Aran yolu qovuşanda dağlara,
Gül ətirli sərinliyə yetişdim.
Dərə dərin, daş sıldırım, dağ uca,
Yüksəkliyə, dərinliyə yetişdim.

Bu gün məni öz qoynuna səsləyən,
Daşaltıdı, qayaların qaşıdı.
Bir səfərim min bir səfər olsa da,
İlk görüşüm görüşlərin başıdı.

Sinəsində yorub neçə köhləni,
Cıdır düzü cıdırıma bax deyir.
Tər çiçəyi öz ətrinə qərq edir,
Boz dumanı, çadırıma bax deyir.

Həvəs ilə, heyrət ilə gəzirəm,
Vaqif yatan, Vurğun gəzən yerləri.
Dost üzünə qapı kimi açılan,
Hər qarışı düşmən əzən yerləri.

Dağ şəhəri üstələyə bilərmi,
Bu yerlərdə şəhər dağın üstədi.
Yaşıl donlu, qəlb ovlayan gözəldi,
Dəli çayın, gur bulağın üstədi.

Ana torpaq hər diyara verməyib
Bu isməti, bu şöhrəti, bu şanı.
Şeirə döndü, yaddaşıma yazıldı,
Belə gəzdim, belə gördüm Şuşanı.

1975, 29 may

BAXA BİLƏYDİM

Yayın ortasında heç kəs inanmaz,
Desəm, qara baxdım, qırova baxdım.
Əlimi qaldırıb qaşımın üstə,
Qarabağ düzündən Murova baxdım.

Qaynar ürəyimdən bir arzu keçdi:
O qarlı zirvəyə çıxa biləydim.
Düzlərdən dağlara baxdığım kimi,
Dağlardan düzlərə baxa biləydim.

1975, 30 may

MƏNƏM

Könlü arzuların izinə düşən,
Gözü uzaqlara dikilən mənəm.
Xəyalı düzlərə, fikri dağlara,
Yuxusu göylərə çəkilən mənəm.

Görüşək, eşqinlə axım çay kimi,
Yanım Günəş kimi, doğum Ay kimi.
Gəl ki, gəlişinlə bir saray kimi,
Ucalan, qurulan, tikilən mənəm.

Sanama anları, san yeri deyil,
Bizə illər gərək, an yeri deyil,
Əzizim, sökülən dan yeri deyil,
Sənin həsrətinlə sökülən mənəm.

1975, 10 iyun

ŞUŞADA PALID

Daşaltı üstündə palıd əkiblər,
Boyu biçənəkdən seçilmir hələ.
Meh də tərpənəndə əsir budaqlar,
Yanından heyrətlə keçilmir hələ.

Dərər nəfəsini təmiz havada,
Gücü torpaq adlı mayadan çəkər.
Pöhrələr böyüyüb gövdələşəndə,
Köklər şirəsini qayadan çəkər.

Üşüdər qar, yağış, üşüdər dolu,
Aşırar min ili palıdın yaşı.
Körpəlik çağını salanda yada,
Kökünün üstünə əyilər başı.

On əsrin dizini yerə qoysa da,
Yenə yaşamağa bir aman istər.
Baxar həsrət ilə keçmişə sarı,
Vaqif arzulayar, Xuraman istər.

Bəlkə o zamankı çarpaz budaqlar
Mənimlə görüşü salacaq yada.
Ağac ömrümüzdən vəfalı çıxar,
Bizi xatırlayıb, anar dünyada.

Zaman dalğalanar bir dəniz kimi,
Neçə qasırğadan çıxar palıdlar.
Təkcə qayaları, daşları deyil,
Dağları bağrına sıxar qayalar.

Daşaltı altında palıd əkiblər,
Müqəddəs arzular bitirmək üçün.
Bugünkü qayğının sədalarını,
Sabahkı dünyaya yetirmək üçün.

1975, 2 iyun

ŞUŞA

Qala da görmüşdüm, qartal da, qar da,
Şəhər görməmişdim dağ zirvəsində.
Ömür gödələrmi belə diyarda,
Yaşıl bir aləm var ağ zirvəsində.

Bulud kürəyindən, çay ətəyindən,
Sellər sinəsindən axır şəhərin.
Seçir yerişindən dostu-düşməni,
Gözü uzaqlara baxır şəhərin.

Bir də görürsən ki, kişnədi göylər,
Körpə cığırları dolu bağladı.
Yenə əsir aldı təbiət səni,
Qayalar yıxıldı, yolu bağladı.

Çal-çağır başlayar bulaqlar üstə,
"Ərim gəldi" deyər əri gələnlər.
Qoynuna gedəndə quşa dönsə də,
Çox çətin ayrılar bəri gələnlər.

Hər kəs çiçəyindən, gülündən dərib,
Özünü bu yerdə saymamış qərib.
Dostun ürəyini dağa döndərib,
Düşmən sinəsinə dağ olan Şuşa!

Səbri, dözümüdür bu daş, bu qaya,
Saymazı ömründə almamış saya.
Ata qeyrətiylə gəlib dünyaya,
Ana ismətindən doğulan Şuşa!

1975, 12 iyun

ŞUŞA QAYALARI

Qayalar Şuşada varaq-varaqdı,
Hər qolda min dastan oxumaq olar.
Bu yerə bir şeir yazmaq nahaqdı,
Nəğmələr çələngi toxumaq olar.

Qonaq gəldiyimi duyub elə bil,
Yenə sığallanıb, daraqlanıbdı.
Qayalar küləyin əliylə deyil,
Zamanın eşqiylə varaqlanıbdı.

Qoynundan uçurub neçə qartalı,
Neçəsi uçmağa hazırdı burda.
Vaqif qoşmasını Vaqif xəyalı
Qayalar qaşına yazırdı burda.

Bu Çətin dərəyə baxdığı anda
Fikrini uçurdu sirlər, soraqlar.
Xəzinə qayası qırışlarında
Hələ açılmamış xəzinə saxlar.

Duyğular selində çağlayıb axsan,
Qanadın açılar, quşa dönərsən.
Bir parça daşına biganə baxsan,
Quruyub yerində daşa dönərsən.

Cabbarın, Bülbülün, Xanın səsini
Qəlbinə yazdıran haldı qayalar.
Dağlar yaxşı bilir vəzifəsini,
Lal olar, kim desə laldı qayalar.

1975, 28 may

ŞƏHƏRDƏ BAĞA ÇIX...

Qəlbin bir sərinlik eşqinə yanıb,
Yayın bürküsünə, oduna düşsə,
Aramla yeriyib, məğrur dayanıb,
Hardasa dincəlmək yadına düşsə,
Vaxtın olmasa da, bircə aylığa
Şəhərdə bağa çıx, kənddə yaylağa.

Səpsin sinən üstə gur işığını,
Bəxtinə gecədən bir ulduz istə.
Duy ana torpağın yaraşığını,
Tağdan qarpız istə, dağdan buz istə.
Get döşə üzünü döşənən tağa,
Şəhərdə bağa çıx, kənddə yaylağa.

Gəlişin güllərin könlünü alsın,
Bulaqlar aşığın sazına dönsün.
Gəzdiyin çəmənin eşqi ucalsın,
Elin bir ərköyün qızına dönsün.
Küləyi əlində döndər yaylığa,
Şəhərdə bağa çıx, kənddə yaylağa.

Yollar cavanlaşsın ayağın altda,
Dola cığırları biləklərinə.
Onsuz da ömrümüz azdı həyatda,
Könül ver axşamın küləklərinə.
Dağlar ürəyini döndərsin dağa,
Şəhərdə bağa çıx, kənddə yaylağa.

1975, 1 iyul

GÖZƏLLƏR

Üzə vurmaz ürəyindən keçəni,
Keçib-gedər duymazyana gözəllər.
Külək vurub dağıtsa da saçları,
Tellərini yaymaz yana gözəllər.

Sevən kəslər on göz ilə baxsa da,
Baxışları şimşək kimi çaxsa da,
Ürəyini yandırsa da, yaxsa da,
İnadını qoymaz yana gözəllər.

Yanaqları çiçəklənər, xallanar,
Dodaqları şəkərlənər, ballanar.
Yeriyəndə salatıntək sallanar,
Yeriş vurar saymazyana gözəllər.

1975, 25 avqust

SƏNDƏN ÖTRÜ

Şeirim, səndən ötrü varaq gəzirəm,
Yazılma qələmim, mürəkkəbimlə.
Yazıl dağlar üstə, qayalar üstə,
Qızılı qanımla, qaynar təbimlə!

1975, 7 avqust

ŞEİRİMƏ, SÖZÜMƏ

Bir gün ayrı düşdük, qarlı Qoşqarın
Başında mən yandım, ətəyində sən.
Eləmi göynətdi həsrətin məni,
Olma bir çobanın tütəyindəsən.

Sən bir Yaxşısansa, mən də Sarıyam,
Hər yerdə, hər zaman sənə sarıyam.
Güllərin gözündən öpən arıyam,
Ömrümün şanında, pətəyindəsən.

Yorulsam yolların yoxuşlarında,
Taparam həyatı naxışlarında.
Həm anaların baxışlarında,
Həm ataların kötəyindəsən.

Özülsüz şöhrəti yellər uçurur,
Deşməsin sinəni yersiz bir qürur.
Qarşıda nə qədər zirvələr durur,
Sən hələ dağların ətəyindəsən.

1975, 26 iyul

OLDU

Heç düşmədi bu yol mənə,
Arzum yoldan, izdən oldu.
Göz işıqdan yaman düşdü,
Taqət yenə dizdən oldu.

Soyuq baxış məni yordu,
Səadətin gözü kordu.
Sinən işıq qalan qordu,
Ocağımız közdən oldu.

Gözlər məni yaxmaz daha,
Üzümə xoş baxmaz daha,
Axar sular axmaz daha,
Bulağımız gözdən oldu.

Səmimiyyət eşqin tacı,
Köntöylüyün yox əlacı.
Nə çəkdimsə ağrı, acı –
Bircə quru sözdən oldu.

1975, 11 avqust

O GÖZƏL KİMDİRSƏ

Aləmə car olub nişanlanmağım,
Bulağa demişdim, çay hardan bilir.
Nədir gizli-gizli belə yanmağım,
Ulduza demişdim, Ay hardan bilir.

Sən demə, əlüstü toy sədasını
Dənizə çatdırar çaylar o günü.
Dəniz də səsləyər öz adasını,
Ada da sahili haylar o günü.

Parlayar incisi, alışar zəri,
Dalğalar qoynuna vurhavur düşər.
Günəş də eşidər bu şad xəbəri,
Torpağın üstünə göydən nur düşər.

Quşlar bu müjdəni çatdırar yerə,
Təzədən başlanar toylar o günü.
Sularda çırpınan qağayılara
Ləpələr muştuluq paylar o günü.

Oxuya-oxuya bu əziz günə,
Arılar balını gətirər gələr.
Qayalar qartalı alar köksünə,
Tərlan xəyalını gətirər gələr.

Min aləm sevindi bir şad xəbərdən,
Çiçəyə demişdim, çəmənə yaydı.
Bir səs qulağıma dəyirdi hərdən,
O gözəl kimdirsə, xoşbəxt olaydı.

1975, 26 avqust

YARPAQ

Ətri də, rəngi də cana can verər,
Şamama tağında gözəl görünər.
Havalı qəlbimə həyəcan verər,
Yarpaq budağında gözəl görünər.

İstilik alsa da dodaqdan, əldən,
Nə səndə, nə məndə səadət tapar.
Axar sevincindən göz yaşı dən-dən,
Çiçəklər çəməndə səadət tapar.

Gözümə sarılıq gətirməzmi qəm,
Yolun ortasına yarpaq düşübdü.
Ürəyim titrəyir, elə bilirəm,
Könül dəftərimdən varaq düşübdü.

1975, 30 dekabr

GÖZLƏYİR

Boylanır yaylaqdan arana doğru,
Anam binəsində məni gözləyir.
Həsrəti gözündə, sözü dilində,
Eşqi sinəsində məni gözləyir.

Atam da məhlənin qaşından enib,
Gündə neçə dəfə alışıb, sönüb.
Düzə dirsəklənən dağlara dönüb,
Əli çənəsində məni gözləyir.

Nə həsrət tükənər, nə ağrım, acım,
Quruyur fəsəlim, soyuyur sacım.
"Qaqam hanı" deyir dil açan bacım,
Gözü nənəsində, məni gözləyir.

1975, 1 sentyabr

SALARSAN

Eşqimi dağlara verən gözəlim,
Bu dəfə yolunu bizdən salarsan.
Çox da yüksəklərə getməsin ağlın,
İndi də meylini düzdən salarsan.

Gələrsən, qızarıb söküləndə dan,
Közərəndə könül, alışanda can.
Mənim yorğanımı oddan-alovdan,
Mənim döşəyimi közdən salarsan.

Sükut meydanında xəyal yas tutar,
Gəlməzsən, sinəmdə ürək pas tutar.
Hardasa gözünü ehtiras tutar,
Gözlə, məhəbbəti gözdən salarsan.

1975, 4 sentyabr

OLMUR

Dağlar çağıranda öz qucağına,
Arandan yaylağa köçməmək olmur.
Çəmən sinəsini, qaya döşünü
Ömür-gün həmdəmi seçməmək olmur.

Gəzməli yerləri gəzmək gözəldi,
Düzləri zirvədən süzmək gözəldi,
Laylalı göllərdə üzmək gözəldi,
Nərəli çayları keçməmək olmur.

Gündə aynasına yüz gözəl baxır,
Oğulsan sən baxma, ürəyini qır.
Eləmi süzülür, eləmi axır,
Dirilik suyunu içməmək olmur.

1975, 7 sentyabr

SƏN OL

Gəl öz ömrümüzə bir dastan qoşaq,
Alı xan mən olum, Pəri də sən ol.
Toyum da, yasım da sənə bağlıdır,
Ömrümün xeyri də, şəri də sən ol.

Baxma bu yollarda gördüyün çənə,
Yağsa da başına qar dənə-dənə.
Dünyanı gəzsəm də qayıdım sənə,
Dünyamın göyü də, yeri də sən ol.

Əslinin getdiyi iz gözəl qalıb,
Sənət ölməz olub, söz gözəl qalıb.
Eşqin kitabında yüz gözəl qalıb,
Həyatda qalanın biri də sən ol.

1975, 14 sentyabr
İsmayıllı

BAXMA

Gözəl kəməndinə düşən bəxtəvər,
Axtar anasını, özünə baxma.
Alovlu baxışlar aldadar səni,
Ağlını dərk eylə, gözünə baxma.

Eşqi bala kimi bağrına bərk bas,
Ona toxunmasın nə kədər, nə yas.
Həyatda hamıya yaxşı qulaq as,
Sevgidə heç kəsin sözünə baxma.

1975, 15 sentyabr
İsmayıllı

DANIŞMADI

Bir bulaq başında üz-üzə gəldik,
Gözlər danışsa da, dil danışmadı.
Damla da səsini içinə çəkdi,
Çiçək danışmadı, gül danışmadı.

Sinəni şeirimə varaq istədim,
Gözünü eşqimə çıraq istədim,
Əlini saçıma daraq istədim,
Barmaq oynamadı, tel danışmadı.

Getmədi ürəkdən həsrətin izi,
Pəhləvan olanın titrədi dizi.
Biz necə sevdik ki, bir-birimizi,
Bizim eşqimizi el danışmadı.

1975
İsmayıllı

İNSAN

Dağa da, düzə də salır meylini,
Gah sağa, gah sola burulur insan.
Yoxuşu qalxanda çoxalır gücü,
Enişi enəndə yorulur insan.

Nədir axtardığı, hardadı, harda,
Alışır istidə, üşüyür qarda.
Baxıb varlığına ayna sularda,
Qaynar bulaq kimi durulur insan.

Gəzir dərinliyi, tapır incini,
Bölür insanlarla öz sevincini.
Elə ki, dərindən alır dincini,
Həyata təzədən vurulur insan.

1975, 18 sentyabr

TALISTAN

Payız axşamında qoynuna gəldim,
Güldü gözəlliyin taxtı Talıstan.
Bir nazlı, sığallı gəlinə döndü,
Sinəmə gül-çiçək taxdı Talıstan.

Qızıl meşəsinə yeriyəndə çən,
Düşdü ağacların saçlarına dən.
Yanıqlı bir sual qopdu dilindən,
Qəlbimi yandırdı, yaxdı Talıstan.

Min çəmən göyərdi xəzan deyəndə,
Dərələr saz oldu, ozan deyəndə.
Hanı "Talıstan"ı yazan deyəndə,
Yeridi dağ-dərə, axdı Talıstan.

Yollar ətəyini sərdi düzlərə,
Töküldü dağların dərdi düzlərə.
Sükut sinəsini gərdi düzlərə,
Şairsiz görəndə vaxtı Talıstan.

Zirvəsi ucalıb dəysə də göyə,
Bəzənib girmədi yaşıla, göyə.
Vurğunu gözlədi gələcək deyə,
Yola Zəlimxanla baxdı Talıstan.

1975, 20 sentyabr

PƏRDƏDƏ

Aşıq, bir qaydalı “Kərəmköçdü” çal,
Duyğular alışsın neçə pərdədə.
Amandı, dilbilməz saza dəyməsin,
Endirər havanı heçə pərdədə.

Saxlasın aşiqin dolu dilləri
Göydə durnaları, yerdə selləri.
Elə göynədəsən gərək telləri,
Kərəm yanğısını keçə pərdədə.

Fürsət tez keçəndə az düşür ələ,
De görüm, dağlarda neyləyir lələ.
“Şah pərdə” şahını gözləsin hələ,
Yandır Zəlimxanı “Beçə pərdə”də.

1975, 3 oktyabr

KÖNLÜMƏ DÜŞƏN

Yaxın, yad bilməsin özünə məni,
Bu axşam uzaqdı könlümə düşən.
Ana əllərilə odu çatılan,
Alışan ocaqdı könlümə düşən.

Dağlar qucağında yaylam var mənim,
Çəmən sinəsində Leylam var mənim.
Laylamı çalanım, laylam var mənim,
Deməyin nahaqdı könlümə düşən.

Kim deyir olanı insan unudur,
Durur göz önündə həsrətim budur.
Udduğum havadır, içdiyim sudur,
Gəzdiyim torpaqdı könlümə düşən.

1975, 13 oktyabr

ÇİÇƏK QƏLBİ

Göy üzündə çaxnaşma var,
Yenə şimşək çaxasıdır.
Neçə vüqar silkələyib,
Neçə şöhrət yaxasıdır.

Çalxandımı bulud qanda,
Haray qopar bu cahanda.
Odlu qılınc bircə anda,
Öz qınından çıxasıdır.

Elə ki, kişnədi çaxdı,
Zirvələrin gələr baxtı.
Qaya başında papaqdı,
Duman qara çuxasıdır.

Tək şairdi fikrə dalan,
Nədir onu dərdə salan?
Soyuq vuran, açıq qalan,
Çəmənlərin yaxasıdır.

Gəl çaxma, göylər şimşəyi,
Kəs dolunu, kəs küləyi.
Çiçək qəlbi, gül ürəyi
Yuxaların yuxasıdır.

1975, 22 noyabr

“QATAR” İSTƏYİRƏM

Yaman könlümə düşüb,
Ya kaman, ya tar ola.
Eşqimi, xəyalımı
Yerdən göyə qaldıran
Dəli bir “Qatar” ola.
Yarıb keçəm layları,
Uçam, arxada qoyam
Ulduzları, ayları.
Qarlı zirvələr belə
Baxa qarlı zirvəyə,
Müəmmalı dünyaya,
Bu “Qatar”lı zirvəyə.
Ən uzaq sahillərə,
Ən uzun mənzillərə
Kamanla, tarla gedəm.
Dahilər görüşünə
Mən bu “Qatar”la gedəm.
Bir aylıq yolum olsa,
Bircə gündə qət edəm.
Bağdadda Füzulini,
Hələbdə Nəsimini
Bol-bol ziyarət edəm.
Aşiqəm, gəzəmmərəm
Sevgili yardan ayrı.
Durnayam, süzəmmərəm
Mən bu qatardan ayrı.
Mən “Qatar” istəyirəm,
Onu çala, dindirə
Ya Habil, ya da Əhsən.
Deyəm, məni yaşadan
Alova, oda əhsən.

Duyğularım dil açа,
Min yerə naxış vuram,
Min bir xalı toxuyam.
Füzuli hikmətini
Bu təsniflə oxuyam.
“Razıyam, könlümü bir
zülfü sitəmkar apara,
Sına, hər parəsini
zülfdə bir tar apara”.
Mən “Qatar” istəyirəm,
Gah göylərə qaldıra,
Gah yerlərə endirə.
Onun odlu nəfəsi
Təkcə insanı deyil,
Daşları da dindirə.
Onun gözüylə baxam
Anamız təbiətə.
Ləpələr dalğa ola,
Təpələr dağa dönə.
Çəməndəki lalələr
Qızıl bayrağa dönə.
Məhəbbəti əbədi,
Eşqi var istəyirəm,
Mən “Qatar” istəyirəm.

1975, 23 noyabr

BİTİR

Əlimizdən yerə bir dən düşəndə,
Payız qalır, qış dincəlir, yaz bitir.
Bənövşənin naz boyuna biçilir,
Bahar vaxtı ətəklərdə naz bitir.

Yaz fəslidi bizi eşqə gətirən,
Arzumuzu boya-başa yetirən.
Öz yerimdi tər çiçəklər bitirən,
Özgə yerdə belə güllər az bitər.

Bitməliyəm, vaxtım-vədəm var mənim,
Sabahımda səsim, sədəm var mənim.
Torpaq əkən Qorqud Dədəm var mənim,
Hər qarışda saz göyərir, saz bitir.

1975, 5 dekabr

KƏPƏNƏKÇİDƏ
ELOĞLUM ZİYƏDDİNƏ

Sazını götürüb səndən xəbərsiz,
Qəlbində bir incə teli qırmışam.
Elə bilirəm ki, cəllada dönüb,
Obanı dağıdıb, eli qırmışam.

Şairi qınasa haqlıdı ellər.
Döndərsə üzünü, doğrudu, sellər,
Aşığın sağ əli tellərdi, tellər,
Əllərim quruyub, əli qırmışam.

O gündən xəyalım dağlar aşmadı,
Duyğular sel olub coşub-daşmadı.
Fikrim xəstə düşdü, ayaqlaşmadı,
Gərdəni sındırıb, beli qırmışam.

Xatasız qul olmaz, kərəmsiz ağa,
Çəkmə Zəlimxanı arana, dağa.
Bağbana deməmiş girmişəm bağa,
Bağbanı incidib gülü qırmışam.

1975, 24 noyabr

AXTARIR

Getdin, gedişinlə getdi sevincim,
Səni varım gəzir, yoxum axtarır.
Sənsiz göyərmədi torpağım, daşım,
Əllərim səpməyə toxum axtarır.

Dönmüşəm düzlərdə dəlisov yelə,
Sel gəlib, özümü atmışam selə.
Göyəmi çıxmısan, səni bir belə
Göylərə çəkilən yuxum axtarır.

1975, 21 dekabr

NEYLƏYİM

Demə, niyə alovlanıb yanırsan,
Od-ocaqsız sözüm tutmur, neyləyim.
Misralarım ürəyimdə qaynamır,
Dodağımda düzüm tutmur, neyləyim.
Danışıram, sözüm olur baş-ayaq,
Yeriyirəm, dizim tutmur, neyləyim.
Könül gərək od yurdundan od ala,
Buz olmağı üzüm tutmur, neyləyim.
Alışmasa bu torpağın eşqinə,
Ürək canda dözüm tutmur, neyləyim.

1975, 28 dekabr

GƏTİRMƏLİDİR

Ellər məclisinə şair gələndə
Günəşi gözündə gətirməlidir.
Bir dünya mənanı, bir dərya eşqi
Bir kəlmə sözündə gətirməlidir.

Xalqının şərəfi, adı dilində,
Vətən torpağının dadı dilində,
Çayı sinəsində, odu dilində,
Ocağı közündə gətirməlidir.

İlhamı dağ seli, gözü-könlü tox,
Hər sətri namərdə ox olmalı, ox.
Şeirini qoynunda, qoltuğunda yox,
Özündə, özündə gətirməlidir.

1975, 24 dekabr

MƏNİM ZİRVƏM

Mənim eşqim, mənim zirvəm,
Yollarıma çəpər olub,
Qoşun çəksə üstümə qəm,
Daş-kəsəkli yoxuşlarda
Didilsə də dizim, sinəm.
Qayaların qucağına
Göz yaşlarım axsa belə,
Başım üstə at oynadıb,
İldırımlar çaxsa belə,
Nə inadı buraxası,
Nə səbrimi atasıyam.
Yüz gün əlim boşa çıxsa,
Bir gün sənə çatasıyam.

Zirvələrə gedən yolun
Yolçuluğu çətin olur.
Kimin ora əli çatır,
Məğrur olur, mətin olur.
Bu həvəs ki qanımda var,
Tükənməzdi mətinliyim.
Yüz bilirəm, az bilirəm
Min olsa da çətinliyim.
Gecələri nurlandırıb
Gündüzlərə qatasıyam.
Qarlı zirvə, havalanma,
Bu gün çata bilməsəm də,
Sabah sənə çatasıyam!

1975, 30 dekabr

ÜSTÜMƏ

Yuxum qaçdı dodaqların qaçanda,
Elə bildim səhər gəldi üstümə.
Ürəyimdə toy təzədən başladı,
Kənd yeridi, şəhər gəldi üstümə.

Baxışını bəstələdim gözümdə,
Söhbətini əzizlədim sözümdə.
Dağ oynadan qüvvət duydum özümdə,
Qızıl yallı kəhər gəldi üstümə.

Göz yaşımda kirpiklərim çimməndə,
Sevincindən gül ağladı çəməndə.
Bir gözəlin eşqi düşdü kəməndə,
Şirin-şirin xəbər gəldi üstümə.

1975, 30 dekabr

İLHAM

İlham bir ağacdı, şairin halı
Od olar, köz olar, qor ola bilər.
İlham bir bulaqdı halal mayalı,
Haram əl toxunsa, kor ola bilər.

İlham bir uşaqdır, təmiz, müqəddəs,
Nə versən ağlını kəsdirmək olar.
Qaynadar eşqini qaynar bir nəfəs,
Soyuq bir baxışla küsdürmək olar.

İlham bir budaqdı, barlı-bəhrəli,
Çox əymək istəsən sınar, dayanmaz.
İlham bir yarpaqdı qızılı zərli,
Yanağı od alıb yanar, dayanmaz.

İlham bir torpaqdı, öz ətri, iyi,
Dediyin neməti yetirə bilər.
Min ildə zamanın bitirmədiyi,
Minillik bir şöhrət bitirə bilər.

1975, 30 dekabr

SİLAHDAŞIYAM

Mənim də silahım sözdü, şeirdi,
Gərək söz daşıyam, silah daşıyam.
Neçə sənətkarın, neçə ustadın,
Neçə sərkərdənin silahdaşıyam!

1975, 30 dekabr

QORXURAM

Söhbətin, ülfətin şirin yerində
Kimsə sözümüzü kəsə, qorxuram.
Üzürəm suların dərin yerində,
Nəsə qısqanıram, nəsə qorxuram.

1976, 4 yanvar

* * *

Beyindən bir fikrin toxumu düşsə,
Qəlbin torpağında cücərməlidir.
Şirin nəğmələri, şirin sözləri,
İlham bağban kimi becərməlidir!

1976, 11 yanvar

OLANDA

Qış da bahar kimi yatar meylinə,
Odunun, ocağın, istin olanda.
Yayın günəşi də görünməz gözə,
Başında dumanın, tüstün olanda.

Mənasız nə fayda, yaşamaq olar,
Birtəhər, bir qayda yaşamaq olar.
Dörd fəsli bir ayda yaşamaq olar,
İmkan arzulardan üstün olanda.

1976, 13 yanvar

ÇƏKİR

Əllərin şeirimə verir sığalı,
İlmələr işləyir, naxışlar çəkir.
Yağır torpağıma bərəkət kimi,
Quraqda qayğımı yağışlar çəkir.

Sanıram dünyanın sərvəti, zəri
Alnımdan süzülən hər damla təri.
Ucalmaq eşqinə düşəndən bəri,
Nazımı enişlər, yoxuşlar çəkir.

Göynəyir kamanım, kövrəlir sazım,
Duyğular qoynunda açılır yazım.
Üzmək istəyənə dayaz nə lazım,
Məni dərinlərə baxışlar çəkir.

1976, 14 yanvar

UZAQLAŞARSAN

Heyranam gəzdiyin düzə, çəmənə,
Adın çiçək adı, özün gül kimi.
Yaxınsan, əzizsən, doğmasan mənə,
Sinəmdə döyünən bu könül kimi.

Yalqızam söyləyib, yaralı gəzmə,
Yazda da, qışda da qəlbimdə varsan.
Könül çəmənimdən aralı gəzmə,
Adından, özündən uzaqlaşarsan!

1976, 10 yanvar

ÜNVANIM

Əl atmaq nə lazım kağız, qələmə,
Heç kəsə demərəm yaz ünvanımı.
Kimə gərək olsa sözüm, söhbətim,
Ona göstərəcək saz ünvanımı.

1976, 18 yanvar

MƏNİM YADDAŞIMDA

Heç yerdə, heç zaman qış gecəsini,
Bahar gecəsinə tay görməmişdim.
Ömrümdə bu qədər sayrışan ulduz,
Bu qədər işıqlı Ay görməmişdim.

Səhərin qəlbinə dəyməsə sözüm,
Bu vaxta ən nurlu səhər deyərdim.
Ulduza göylərin payına düşən
Əvəzi tapılmaz şəhər deyərdim.

Fəsillər bir yerdə tutarmı qərar,
Nə qış əylənəcək, nə yaz qalacaq.
O gecə nurlu bir xatirə kimi,
Mənim yaddaşımda bəyaz qalacaq!

1976, 17 yanvar

QIFILBƏND

Niyə danışmırsan, açıla eyni,
Həyat könül verə bir şirin səsə.
Tufanlar kiriyə, dalğalar yata,
Şimşək nəriltini biryolluq kəsə.

Niyə danışmırsan, dünya çayları
Bizim düşdüyümüz axına gələ.
Günəş gözlərimdə gülüşə dönə,
Ulduzlar bir az da yaxına gələ.

Niyə danışmırsan, səndən ötəri
Ay desən, uşaqtək Aya qaçaram.
Tək sənin könlünü oxşamaq üçün,
Bütün zirvələrə ayaq açaram.

Niyə danışmırsan, məndən ötəri
Sözün şəkər ola, dilin qənd ola.
Aşığa dönsəm də, açа bilməyəm,
Qorxuram dodağın qıfılbənd ola.

1976, 5 fevral

OLSUN

Qoynuna baharla qoşa gəlmişəm,
Dağlar, yanaqların yansın, al olsun.
İzin ver, eşqinə bir hava çalım,
Hər bulaq sazımda şirin xal olsun.

Duruşun döndərsin qəlbimi dağa,
Dolanım üstümə nur yağa-yağa.
Sarı çiçəklərin dönsün qaymağa,
Gül pətək olanda, şeh də bal olsun.

Sevinc yaşlarımı duy gilə-gilə,
Yanğımın üstünə sərinlik çilə.
Hüsnün dilsizi də gətirsin dilə,
Sənə bu gözəllik qoy halal olsun!

1976, 28 fevral

QIZLAR

Ruhunuz nə incə, qəlbiniz nə saf,
Eşqiniz nə təmiz, nə tərdi, qızlar.
Gözəlsiz təbiət, sevgisiz ürək,
Körpəsiz beşikdən betərdi, qızlar.

Sizsiz kim çəkərdi ömrün nazını,
Unuda bilməzdi könül yasını.
Dünya itirərdi öz dünyasını,
Həyatdan bir həyat itərdi, qızlar.

Saldı gözləriniz üstümə saya,
Həsəd aparmadım ulduza, Aya.
Günəş doğmasa da, bütün dünyaya
Sizdəki gözəllik yetərdi, qızlar.

1976, 9 mart

ARZULAR SABAHA APARIR MƏNİ

Yollara vermişəm məhəbbətimi,
Çoxdu dağ yolları, aran yolları.
Çəkir imtahana dəyanətimi,
Arabir tutanda boran yolları.
Cığır çözələnib gedir sap kimi,
Yeriyib sonuna çatmaq istərəm.
Dərələr açılır bir kitab kimi,
Oxuyub ruhuna yatmaq istərəm.
Ömrün oğlançağı çıxmışam yola,
Hələ ki görünmür saçımın dəni.
Sevincdən az qalır gözlərim dola,
Arzular sabaha aparır məni.

Cəsarət öyrədir yolçularına,
Ucalıq nəğməsi deyir zirvələr.
Gözüm sataşanda dümağ qarına,
Qəlbimdən keçəni deyir zirvələr.
Dediyim yerlərə əlim çatmayıb,
Hələ imkanımın boyu bəstədir.
Yarış meydanında at oynatmayıb,
Könül hər addımda bir həvəsdədir.
Nəfəsim bir dəli küləyə dönür,
Gələndə üstümə dağların çəni.
Buludun qoynunda şimşəyə dönür,
Arzular sabaha aparır məni.

Təzə qanadlanır istəyim, kamım,
Yoruldum sözündən xəbərim olmur.

Fikirsiz, xəyalsız gələn axşamım,
Duyğusuz açılan səhərim olmur.
Bir kəlmə xoş söz də həyatdır mənə,
Qayanı sarsıdan inadım olur.
Dəyişən fəsillər, ötüşən illər
Yolundan saxlamaz eşqə düşəni.
İnamsız bir ömrün başına küllər,
Arzular sabaha aparır məni.

1976, 1 aprel

İSTƏYİRƏM

Xoş söz ağız şirinliyi,
Səmimiyyət eşqin tacı.
Rəndə tutmaz, sığal görməz
Köntöylüyün yox əlacı.
Qəlbi xain, dili zəhər
Danışanda acı-acı,
Şirin olub, söhbətimi
Şirin salmaq istəyirəm.

Bir ürəyin yanar səsi
Çatmayanda qulaqlara,
Göz yaşımı döndərirəm
Axıb gedən bulaqlara.
Qanad açıb, qədəm basıb
Yaxınlara, uzaqlara,
Haray çəkib, dağa-daşa
Bir ün salmaq istəyirəm.

Ömrün-günün sınağından
Harda üzüağ çıxanda,
Pələng dişli ölümlərin
Pəncəsindən sağ çıxanda,
Qayaları qat-qat olub
Qarşıma bir dağ çıxanda,
Fərhad kimi xəyalıma
Şirin salmaq istəyirəm.

Dayan şimşək, qoy eşidim
Dağ nə deyir duman haqda.
İtil şübhə, qoy düşünüm
Ümid haqda, güman haqda.
Səksəkəli, qorxuluyam
Bu narahat zaman haqda.
Rahat olub, ürəyimi
Sərin salmaq istəyirəm.

1976, 15 mart

MURAZ ÜSTƏDİ

Zirvədən-zirvəyə atını çapan
Cilovsuz küləklər muraz üstədi.
Haraylı qayalar, havalı dağlar,
Ətirli çiçəklər muraz üstədi.

Gözəllər Günəşin əlini sıxdı,
Gülüşün sədası göylərə çıxdı.
Bulud kişnərtisiz yaman darıxdı,
Havada şimşəklər muraz üstədi.

Yazın sevgi çağı, oğlan vaxtıdır,
Çəmən təbiətin yaşıl taxtıdır.
Açılan lalə yox, insan baxtıdır,
Döyünən ürəklər muraz üstədi.

1976, 2 aprel

GƏTİRRƏM

Mən dağda, sən düzdə – bu ola bilməz,
Enib, dağ eşqimi düzə gətirrəm.
Ayrılıq aranı kəsmək istəsə,
Bir yola, ərkana, izə gətirrəm.

Gözəllik gəl deyir, gözümü yığım,
Bir yerə, bir ömrə mən necə sığım.
Yüz yerdə gül açsa bəxtim, varlığım,
Yığıb hamısını sizə gətirrəm.

Gələrəm, çəkilər duman da, çən də,
Xoş xəbər yetirər özünü kəndə.
Yüzillik həsrəti, bərkə düşəndə
Bir günün içində dizə gətirrəm.

1976, 4 aprel

ÇAĞIRIR

Cavan ömrüm, hər səfərə layiq ol,
Həyat səni xeyrə, şərə çağırır.
Bircə yerdə necə durum, dayanım,
Arzu, dilək min bir yerə çağırır.

Bir də gördün "mənəm" deyən yaşında
Fikirlərin duman olur başında.
Dayanırsan uçrumların qaşında,
Ölüm çəkir, səni dərə çağırır.

Dözümsüzə bir ötərgi səs deyir,
Yenilməzi öz qoynuna səsləyir.
Dağlar qaşı neçə qartal bəsləyir,
Ömrü-günü zirvələrə çağırır.

1976, 13 aprel

KÜRƏ BAXDIM

"Bir gecəlik Kür olmuşam"
şeirinin müəllifi Əli Kərimə

Axşamüstü Kürə baxdım,
Min səhərin eşqi ilə
Bir gecəlik Kür olanı
xatırladım.
Nəfəsi də, nəğməsi də
Bu çay kimi gur olanı
xatırladım.
Yeni şeirin gözlərində
Nur olanı xatırladım.
Duydum onun qəlbindəki
Böyüklüyü, mətinliyi.
Duydum, nədir, nə deməkdir
Bir gecəlik Kür olmağın
Ağırlığı, çətinliyi.
Bir gecəlik Kür olmaqçün
Buludları əlçim-əlçim
əyirməli,
Yağışları damla-damla,
Bulaqları qurtum-qurtum
içməlisən.
İldırımın başı üstdən
atılmalı,
Sıldırımdan keçməlisən.
Öz yerini gölməçələr dibində yox,
Dənizlərdə seçməlisən.
Dolu yağsa, öz qoynunda
Əritməyi bilməlisən.
Şimşək çaxsa, layla çalıb
Kiritməyi bilməlisən.

Ürəklərə sərinliyi,
Fikirlərə dərinliyi
Vermək üçün yaşayana
Kür deyərəm.
Öz ömrünün axarında
Əsrlərin sevincini,
Kədərini,
Axşamını,
Səhərini
Yorulmadan daşıyana
Kür deyərəm.
Kür olanın axmadığı,
Gün olmamış,
Ay olmamış,
Həvəsi var, hünəri yox
Olanlardan
Arx olsa da, çay olmamış
Bir gecəlik Kür olana
Dağlar uca, düzlər geniş.
Əlindədir yoxuş, eniş,
İstədiyi məqamları
Enə bilər, qalxa bilər.
Onun şeiri göy çəmənlər,
Şirin sözü çiçəklərdir.
Laylasıdır səhər yeli,
Beşiyisə ürəklərdir.
Bu sularda bir ürəyin
Həm sevinci, həm yası var.
Dalğasında tufanları,
Damlasında dəryası var.
Nə gözəlmiş şair ömrü,
Dəli Kürdə bir gecəlik
Əli Kərim dünyası var.

1976, 21 iyul

MƏNİM

Yazın oğlan çağı yollara çıxdım,
Gül açdı yolum da, izim də mənim.
Dağlar qol açanda, dərələr qucaq,
Güldü ürəyim də, üzüm də mənim.

Günəş göy üzündə eləmi yandı,
Bilmədim çəmənmi, laləmi yandı.
Kərəmmi alışdı, Lələmi yandı,
Qarım da əridi, buzum da mənim.

Bahar buludları qədirbiləndi,
Ağlasam ağlardı, gülsəm gülərdi.
Üstümə göylərin şehi çiləndi,
Yatdı dumanım da, tozum da mənim.

Çağırdı qoynuna hər dağ, hər binə,
Daşan nəğmələrə dar gəldi sinə.
Gəldim bənövşənin ziyarətinə,
Boynum da büküldü, dizim də mənim.

1976, 10 may

YERDƏ

İldırım başını daşlara döydü,
Yazın bu vaxtında çaxdığı yerdə.
Niyə qarışdırdı düzü, dünyanı,
Sular saçaqlanıb axdığı yerdə.

Dondu dodağında bülbülün sözü,
Söndü, kömür oldu ocağın közü,
Saraldı, bulandı bulağın gözü,
Maral öz hüsnünə baxdığı yerdə.

Təbiət dəyişdi, döndü gözümdə,
Dünyanın işığı söndü gözümdə.
Göylər də alçalıb endi gözümdə,
Hörməti başıma qaxdığı yerdə.

1976, 18 iyun

GEDƏSİYƏM MƏN

Qol açıb qoynuna çağırır məni,
Bağlıyam torpağa, heyranam suya.
İstərəm gecəni gündüzə qatıb,
Tapşıram ömrümü hissə, duyğuya.

Uçam üfüqlərdə, üzəm sularda,
Hər yerə, hər yurda yeriyəm gələm.
Qar olub döşlərdə sellərə dönəm,
Düzlərin qoynuna əriyəm gələm.

Bir əsrin dizini yerə qoysa da,
Kim istər həyatdan çəksin gözünü.
Ürək istəməzmi coşsun, qaynasın,
Dodaq istəməzmi desin sözünü.

Dünən babamındı, sabah nəvəmin,
Bu günün öz vaxtı, vədəsiyəm mən.
Dünyaya ürəyi dolu gəlmişəm,
Qəlbimi boşaldıb gedəsiyəm mən.

1976, 25 may

QALDI

Dağdan ayrılmağım dağ oldu mənə,
Gözlərim çatılan qaşında qaldı.
Baxışım üzündən heç çəkilmədi,
Düşdü qayasında, daşında qaldı.

Əmanət tapşırdım hər addımbaşı,
Qartala zirvəni, kəkliyə daşı.
Kövrəldim, töküldü gözümün yaşı,
Qarışdı, bulağın yaşında qaldı.

Verdim öz ömrümü ötən hər ana,
Gah bürküyə düşdüm, gah da borana.
İlin köç vədəsi endim arana,
Ürəyim dağların başında qaldı.

1976, 26 may

APARDI

Gedişin tükətdi bərəkətimi,
Sanki yellər gəldi, sellər apardı.
Ayaz şillə çəkdi yanaqlarıma,
Qazdı, torpağımı bellər apardı.

Olsam da dünyanın sərti, mətini,
Nə bilim hardadı işin çətini.
Bizim eşqimizin səadətini
Fitnələr taladı, fellər apardı.

Bilmədim çoxunu, azını eşqin,
Çəkdim ömrüm boyu nazını eşqin.
O qədər çaldım ki, sazını eşqin,
Əlimi sim yedi, tellər apardı.

1976, 30 iyun

SAXLADI

Ağır yarasını çətin illərin,
Sarğılar qorudu, bağlar saxladı.
Sahilin sahilə sədaqətini
Körpülər yaşatdı, tağlar saxladı.

Döyündü ürəklər, düşündü başlar,
Qar-boran olanda çatıldı qaşlar.
Qartalı qayalar, kəkliyi daşlar,
İyidi qoynunda dağlar saxladı.

Zərgərin əlindən işıq aldı zər,
Gözlərdə od yandı, alınlarda tər.
Torpağa yük oldu qəlbi çürüklər,
Həyatı çiynində sağlar saxladı.

1976, 11 iyun

ŞEİR YAZACAQ

Başımı, beynimi yorsa da fikir,
Səhərlər yatmağa qoyma sən məni.
Yuxu dəniz kimi dibinə çəkir,
Quylanıb batmağa qoyma sən məni.

Şairin odlu bir təbiəti var,
Dilində söz yanar, qəlbində ocaq.
Xəyalı dağılsa, dünya dağılar,
Yuxusu dağılsa şeir yazacaq.

1976, 2 iyun

BULUDLAR

İldırım çaxanda yaz səhərində,
Dəyişdi rəngini ala buludlar.
Qaraldı üfüqün al yanağında,
Döndü göy üzündə xala buludlar.

Şimşək sinəsinə çəkəndə dağı,
Dağıldı, töküldü göylərin tağı.
Yenə qucaqladı ana torpağı,
Sərildi yamaca, yala buludlar.

Fikrindən ağardı saçı qar kimi,
Ağladı, ən ağır dərdi var kimi.
Mələşdi anasız quzular kimi,
Yellərə yem oldu bala buludlar.

1976, 21 may

YANDIRIR

Dünyaya gələli mənim könlümü
Bir kaman ağladır, bir saz yandırır.
Ömür qışla yazın arasındadı,
Bir qış donduranda, bir yaz yandırır.

Yaxına, uzağa meylimi saldım,
Aranın, yaylağın seyrinə daldım.
Mən bütün çaylardan sərinlik aldım,
Qəlbimi tək bircə Araz yandırır.

Olsa da ürəyim yumuşaq, həlim,
İstərəm hicrana bir gəliş gəlim.
Vətəndən Vətənə çatmayır əlim,
Ömrümü bir həsrət, bir naz yandırır.

1976, 21 iyun

İSTƏDİM

Oyandı qəlbimdə dəli bir həvəs,
Alışıb-yanmağa alov istədim.
Fikrim dağlar gəzdi, düzlər dolaşdı,
Meylimi verməyə bir ov istədim.

Başladı ömrümün yuxu sürgünü,
Külək gözlərimdən qovdu mürgünü.
Qışda arzuladım isti bir günü,
Yayın ortasında qırov istədim.

Dedilər torpağı qarış-qarış gəz,
Yoxdur cavanlığa yeni bir əvəz.
Çıxmağa Şahdağı, gəzməyə Kəpəz,
Dünyaya baxmağa Murov istədim.

1976, 23 iyun

NƏ BİLSİN

Bir söz bir aləmdi duyan kəslərə,
Hər naşı misranı, bəndi nə bilsin.
Şirinə yad olar, dili acılar
Zəhəri bilsə də, qəndi nə bilsin.

Görməsə dan üzü, qırov havası,
Dolmasa qəlbinə Murov havası,
Olarmı başında bir ov havası,
Bərəni nə bilsin, bəndi nə bilsin.

Kim könül verməyib ana torpağa,
Bağlanmaz arana, vurulmaz dağa.
El qəhri çəkməyən, ay Osman qağa,
Obanı nə bilsin, kəndi nə bilsin.

1976, 26 iyun

DÜNYASI

Körpə nəfəsində bahar ətri var,
Çiçəkdən zərifdi uşaq dünyası.
Torpaq da, səma da çəkər nazını,
Gözəldi kök üstə budaq dünyası.

Ay cərgə-cərgədir, il axın-axın,
Yeldən qanad taxan günlərə baxın.
Nə qədər çağırdım, gəlmədi yaxın
Qaynar eşqimizin uzaq dünyası.

Qəlbində sabahın eşqi, uğuru,
Gözündə günəşin tükənməz nuru.
Nə qədər təmizdir, nə qədər duru,
Dəniz ömrümüzün bulaq dünyası.

1976, 28 iyul
Xankəndi

AŞIQ ƏKBƏRƏ

Əkbər əmi, ucalsa da göylərə,
Səsin yerə məhəbbətin səsidir.
Oxuyursan, bulaq düşür yadıma,
Bu zümzümə təbiətin səsidir.

Yeri gəlsə həvəsindən ağlayan,
Öz meylini ürəklərə bağlayan,
Otuz ildir bir sinədə çağlayan,
Könül dolu şeriyyətin səsidir.

Bu səsinlə oxu, alış, oxu, yan,
Bəxtəvərdi bülbül olub oxuyan.
Eşqimizi ilmə-ilmə oxuyan,
Ölməz olan bir sənətin səsidir.

Çiçək kimi qoxladıqca ətrini,
Zəlimxan da əziz tutur xətrini.
Ellər bilir qiymətini, qədrini,
Bu qəhqəhə o qiymətin səsidir.

1976, 31 iyul

ÖYRƏN

Könül, seyr eyləsən uca dağları,
Kənardan seyr eylə, uzaqdan öyrən.
Arının sirrini pətəkdən soruş,
Bülbülün eşqini budaqdan öyrən.

Səslimi, səssizmi, sakitmi, lalmı,
Kəlmələr ucunda dəymişmi, kalmı,
Acımı, şirinmi, zəhərmi, balmı,
Dilin ləzzətini dodaqdan öyrən.

Sən yana bilməzsən tüstün olmasa,
İnamın hər şeydən üstün olmasa,
Yaşamaq alovun, istin olmasa,
Alışıb-yanmağı ocaqdan öyrən.

Çəkir şirəsini güldən-çiçəkdən,
Götürür rəngini tüldən, ipəkdən,
Duruluq istəyir şeir ürəkdən,
Süzülüb axmağı bulaqdan öyrən.

Ucalmaq həvəsi, bir arzuya bax,
Göydə Günəşə bax, göydə Aya bax.
Aydınlıq istəsən, axar suya bax,
Qəlbi təmizliyi uşaqdan öyrən.

Həyatda mənasız bir qayğı çəkmə,
Əl vurub ağacın gözünü tökmə,
Palıd toxumunu qum üstə əkmə,
Harda bitirməyi torpaqdan öyrən.

1976, 14 dekabr

KEÇİR

Baş alıb hər yana gedən yollarım,
Beşikdən başlanır, bələkdən keçir.
Günlər bir dən olub səpilir yerə,
Ömür una dönür, ələkdən keçir.

Bəzən sevinc olur, bəzən dərd, ələm,
Kərəmtək yanıram, yetişmir Lələm.
Şeirimi yazmağa tapılmır qələm,
Dərdim, şikayətim lələkdən keçir.

Göylərə qaldırdı andım Allahı,
Bəzən yalançı da sandım Allahı,
Nə qədər unutdum, dandım Allahı,
Yenə də işlərim fələkdən keçir.

1976, 14 dekabr

SÖHRAB TAHİRƏ

Özündən ağsaqqal, özündən cavan
Şairlər Söhraba əmi deyirlər.
Şirin kəlmələrə versə könlünü,
Bəlkə də azalar qəmi, deyirlər.

Aşıqlar həmişə onun yanında
Təbrizdən oxuyur telli saz üstə.
Hava var, dünyanı havalandırar,
Söz var, körpü salar yüz Araz üstə.

Əmi də, dayı da deyin, a dostlar,
Deməyin donubdu dərd ürəyində.
Həsrət də yer tapar, sevinc də, qəm də,
Kişi sinəsində, mərd ürəyində.

Açsın qanadını gülüş, qəhqəhə,
Deməyin ah çəkib, aman çəkibdi.
Ağ da bir xınadır, öz əlləri yox,
Onu saçlarına zaman çəkibdir.

Səhəndi doyunca gəzmək istəyir,
Gözləri həmişə Araz üstədi.
Bir şair məsləki mübarizədə,
Bir şair ürəyi muraz üstədi.

Bu elə məsləkdir, dönməz, əyilməz,
Onun qüvvəsindən dünya halıdır.
Məslək ki, bir yerdə ağsaqqal oldu,
Həsrət vüsal ilə barışmalıdır.

Bu elə murazdır, qovuşmaq olsa,
Dodaq gül bitirər söz əvəzində.
Ürək oda dönər, barmaqlar şama,
Baxışlar alışar köz əvəzində.

Bax onda açılar yolların donu,
Əriyər, dağların qarı da qalmaz.
Buludlar altında qış doğan kimi,
Gödələr qış günü, yarı da qalmaz.

Durnalar düzülər hey qatar-qatar,
Çırpınar, həsrəti çiynindən atar.
Arzuya yetişər, mənzilə çatar,
Yollarda yorulub yarıda qalmaz.

Şimşəklə doğranar duman layları,
Düzənlər yatırdar dəli çayları,
Verəndə hökmünü bahar ayları,
Gözünü açmamış darı da qalmaz.

Getməz damaqlardan vüsalın dəmi,
Torpaq qucaqlayar yaxını, yadı.
Savalan dağını Qoşqar övladı
Özünə yurd yeri seçər, qardaşım.

Bax onda sevinər nişanlı qızlar,
Donunu sevincdən biçər, qardaşım.
Səhənd ətəyində çalınar toyu,
Təbrizdən Bakıya köçər, qardaşım.

Gülüşlər qarışar gözün yaşına,
Gün düşər torpağın çatıq qaşına.
Çəmən bulaqları çəkər başına,
Sənin sağlığına içər, qardaşım.

1976, 12 sentyabr

NİYƏ YATMIRSAN, ANA

– Niyə yatmırsan, ana,
Hələ ki, səhər deyil,
Qızarmayıb dan yeri.
Belə tezdən durmağın
Axı cana nə xeyri?!
– Qurban olum, ay bala,
Yat, yuxun şirin olsun.
Ürəyimin başında
Qoy sənin yerin olsun.
Mənsə ana olandan
Unutmuşam yatmağı.
Sevirəm tezdən durub,
Gülləri, çiçəkləri
Yuxudan oyatmağı.

1976, 25 sentyabr

QIYMASIN

Sevimli şairimiz Hüseyn Arifin
oğlu Arifin vaxtsız vəfatı münasibəti ilə

Keçən günlər belə keçdi, ay ustad,
Qoy təbiət gələn yaza qıymasın.
Yüksəklərdə qanad çalan qartala,
Qarlı zirvə, əngin fəza qıymasın.

Bülbülə dön, min budaqda öt indi,
Elə dayan, ellər desin mətindi.
Kökdən düşsə düzəlməyi çətindi,
Qara xəbər telli saza qıymasın.

Bir könüldə açılsa da bahar, yaz,
Həsrət evə, qəm qapıya sığışmaz.
Şeirimizin Hüseyni azdır, az,
Vaxtsız əcəl bir də aza qıymasın.

1976, 11 oktyabr

ELM OCAĞI, ALİM NƏFƏSİ

Çata bilməyəndə evə, eşiyə,
Ocaq qalamışıq bəzən qar üstə.
Od varsa, qoyarmı ürək üşüyə,
Uzanıb əlimiz alovlar üstə.

Bu elə ocaqdır, çör-çöpdən deyil,
Közü ürəkdəndir, nuru ağıldan.
Danışır insana nəsilbənəsil,
Min bir həqiqətdən, min bir nağıldan.

Alim nəfəsindən od alır bura,
Adı elm ocağı, nur ocağıdır.
Qoynunda tarixlər boyanır nura,
Bu yer insanlığın gur ocağıdır.

Ovcumun içitək xatırlayıram
İlk dəfə qoynuna gəldiyim günü.
O gündən qaynadı gözlərimdə kam,
Başlandı qəlbimin toyu-düyünü.

İlk dəfə görürdüm həyatımda mən,
İşığın bu qədər bol olduğunu.
İlk dəfə görürdüm bircə ürəkdən
Milyon ürəklərə yol olduğunu.

Ana qucağından ayrılsam da mən,
Ən isti, ən geniş qucağa gəldim.
Göz üstə yer verdi oğluna Vətən,
O çağdan ayrılıb bu çağa gəldim.

ANA

Nə zamandı vaxt əlindən gileyliyəm,
Can atıram, bir yanına gəlim, ana.
Nə zamandı səbrim çatır həsrətinə,
Neyləyim ki, sənə çatmır əlim, ana.

Yollarıma bürkü düşür, sazaq olur,
Səfərim də yaxın olur, uzaq olur.
Gah duru göl, gah çağlayan bulaq olur,
Gah görürsən baş aparır selim, ana.

1976, 27 noyabr

* * *

Doğma Xəzər, xeyli var ki, görüşmürük,
Dalğaların səsi gəlmir qulağımdan.
Pıçıltılar kəlmə-kəlmə yadımdadır,
Ləpələrin sözü düşmür dodağımdan.

Unuduram, unudulur dərd də, qəm də,
Adın gəlib xəyalımdan keçən dəmdə,
Sənin kimi dəniz ola bilməsəm də,
Qəlbi yanan su içərdi bulağımdan.

1977, 10 mart

TOVUZ GÖRÜŞLƏRİ

Qanad açıb bu yerlərə gələndə mən,
Təbiətin bahar çağı, yaz günüydü.
Şeh içində alışırdı yenə çəmən,
Çiçəklərin bir-birinə naz günüydü.

Dedim yenə baxım Əsrik dərəsinə,
Azaflıda qarşıladı qovaq məni.
Bələd oldum hər bəndinə, bərəsinə,
Nəğmə dedim, bülbül saydı budaq məni.

Külək saldı buludları pərən-pərən,
Əsrik çayı ildırımdan yüyrək idi.
Öz ömrünü dağ başında günə verən
Zirvə qarı anam kimi kövrək idi.

Dodaq vurdum yenə "Bahar bulağı"na,
Ürəyimə nur süzülüb, nur axırdı.
Uca dağlar baş əyəndə qonağına,
Söz sinəmdə dəli çaydan gur axırdı.

Vurğun oldum bir könüldən min könülə,
Yer bəzəndi gözəlliyin taxtı kimi.
Şeir dedim "ağzı qanlı" qızılgülə,
Açılmışdı gözəllərin bəxti kimi.

Daraq qaya sığallanıb, daraqlanıb,
Kəmər qaya qurşamışdı kəmərini.
Gözlərimdə kitabları varaqlanıb,
Məmməd[1] alıb burda şerin nəmərini.

1976

[1] Məmməd İsmayıla işarədir.

NƏNƏLƏR YAŞAYIR NƏVƏLƏR ÜÇÜN

Qocalmaq istəmir qoca dünyada,
Qızı ərə gedir, oğlu ər olur.
Əziz günlərini gətirir yada,
Arzular könlündə bir şəhər olur.
Qapını kəssə də ömrün axşamı,
Can qoyur işıqlı bir səhər üçün.
Çoxalır qəlbinin istəyi, kamı,
Nənələr yaşayır nəvələr üçün.

Nağılı, dastanı dönür kitaba,
Layla dodağında bərəkət tapır.
Ağ gün inci kimi düzülür sapa,
Saçının ağında bərəkət tapır.
Birdimi, beşdimi arzunun adı,
Uzadır ömrünü eh, nələr üçün?!
Körpəlik, kövrəklik iki dünyadı,
Nənələr yaşayır nəvələr üçün.

Ağız şirinliyi, könül şadlığı
Mənim şöhrətimdi, səsimdi deyir.
Bir qulaq dincliyi, can rahatlığı,
Bir körpə gülüşü bəsimdi deyir.
Güvənir həyatdan umacağına,
Yaşamır nə sərvət, nə də zər üçün.
Günəşi ensə də qürub çağına,
Nənələr yaşayır nəvələr üçün.

Gəlin baxışından, oğul gözündən
Xoş ilıq gözləyir, ülfət istəyir.
Gələn əcəlin də çıxmır sözündən,
Bir növə toyluğu möhlət istəyir.
Əlləri çatmasa arzularına,
Yır-yığış eləyir bir səfər üçün.
Dönür dağ ömürlü zirvə qarına,
Nənələr yaşayır nəvələr üçün.

1977, 7 mart

ÜRƏKLƏ DEDİM

Sənə həyat dedim, o gündən bəri
Könlümə əbədi maraq gətirdin.
Sənə qanad dedim, yarıb göyləri
Əngin üfüqlərdən soraq gətirdin.

Sənə bahar dedim, dünya gül açdı,
Təmiz nəfəsinlə, tər gülüşünlə.
Min ürək oxşadı, min könül açdı,
Bir yaz çiçəkləndi hər gülüşünlə.

Sənə səhər dedim, nəğməli səhər,
Axşam düşəndə də, dan atanda da.
Qəlbimə güc verdin bu torpaq qədər,
Böyük bir arzuya can atanda da.

Bəzəsin ömrünü bahar da, qış da,
Yarış gözəllikdə çiçəklə, dedim.
Dil də yalan oldu, göz də, baxış da,
Sənə nə dedimsə, ürəklə dedim.

1977, 15 mart

ŞAHBULAQ

Dinlə ürəyimdən gəlib-keçəni,
İstərəm arzuma çatım, Şahbulaq.
İzin ver bu gecə səhərə kimi
Sənlə baş-başa yatım, Şahbulaq.

Əziz saxlayaram hər an xətrini,
Ürəyim yananda bildim qədrini.
Bulaq saflığını, çəmən ətrini
Gərək varlığıma qatım, Şahbulaq.

Ürəyim doluydu arzuyla, kamla,
Bir şeirə çevrildi hər nurlu damla.
Gəldim görüşünə Yusif qağamla,
Qalsın yaddaşında adım, Şahbulaq.

Arxamı dağ kəssin, önümü qaya,
Qarışa bilməyim bir axar çaya.
Gözümlə baxmasam gözəl dünyaya,
Quruyum, gözümdən batım, Şahbulaq.

1977, 28 aprel

YAYLAQDA

Saxla ayağını, sürücü qardaş,
Vurma əllərini maşına burda.
Hər kəs bir alıcı tərlana dönsün,
Qonsun qayaların qaşına burda.

Daşlara sığaldı tütəyin səsi,
Çəmənə layladı küləyin səsi.
Bulud tüfəngidi, şimşək gülləsi,
Qayalar bənzəyir qoşuna burda.

Saz kimi çalınar, ney kimi dinər,
Duyğular içində ömrü isinər.
Könlü dağ istəyən köhlən at minər,
Dönər zirvələrin başına burda.

Duymasan, gözəllik gözünü yumar,
Fikrinə, hissinə tumar çək, tumar.
Gör necə boylanır gül xumar-xumar,
Baş qoy çiçəklərin döşünə burda.

1977, 1 fevral

YATIR

Payızdı. Sozalıb dağlar, dərələr,
Nə şirin dincəlib, nə şirin yatır.
Bu ana torpağın dizi üstünə
Həm çiçək baş qoyur, həm gözəl yatır.

Şeirdir, nəğmədir yerin hər qatı,
Nəğməsiz keçərmi elin həyatı.
Hər dağın qoynunda qoşma, bayatı,
Hər daşın altında bir qəzəl yatır.

1977, 3 fevral

PAYIZDA

Dolu budaq salxımlanar, sallanar,
Meyvələrin zədə yeri xallanar.
Qızıl alma şəkərlənər, ballanar,
Nar dənəsi noğullanar payızda.

Dağ döşündə haray çəkən sel olmaz,
Yurd yerində oba qalmaz, el olmaz.
Qəlb oxşayan, könül açan gül olmaz,
Yazın ömrü nağıllanar payızda.

Əli yetməz öz ömrünün yazına,
Həsrət gülər çiçəklərin nazına.
Çaylar dönər Aşıq Qərib sazına,
Dəli sular ağıllanar payızda.

1977, 4 fevral

OLAR

Nə desə insanın öz əlindədir,
İnam da, güman da yaratmaq olar.
Gülüşlə Günəşə meydan oxumaq,
Nalədən duman da yaratmaq olar.

Yamandı dad çəkib, haray eyləmək,
Zülmün bir gününü bir ay eyləmək.
Zindanı çevirib saray eyləmək,
Sarayda zindan da yaratmaq olar.

Yaxınlar yad olar, doğmalar qərib,
Arxa da çevirər, kim sinə gərib.
Dostun ürəyini qana döndərib,
Düşmənə dövran da yaratmaq olar.

Qayalı sahili parçalar, yeyər,
Hirsindən başını daşlara döyər.
Nəğmə də oxuyar, şeir də deyər,
Dənizdə tufan da yaratmaq olar.

Göz nəyi seçir ki, qaralanda qan,
Yandırar aləmi alışanda can.
Ümmana göl deyib, gözdən salarsan,
Damlada ümman da yaratmaq olar.

Sirri batırmaq da, faş eyləmək də,
Gözü güldürmək də, yaş eyləmək də,
İnsanı qurudub daş eyləmək də,
Qayadan insan da yaratmaq olar.

1977, 17 mart

QUZUM

Dözəmmirəm təkliyinə,
Mələmə, quzum, mələmə.
Göy çəməni göz yaşına
Bələmə, quzum, bələmə.

Nələr deyir, nələr, səsin,
Dağı-daşı dələr səsin,
Üstümə od ələr səsin,
Ələmə, quzum, ələmə.

Yaşayırsan əsə-əsə,
Diksinirsən qəfil səsə,
Yalqızlığı heç bir kəsə
Diləmə, quzum, diləmə.

Gözlərimə endirib çən,
Saçlarıma yağdırıb dən,
Ürəyimi qan eylərsən,
Eyləmə, quzum, eyləmə!

1977, 18 mart

QARDAŞ HƏSRƏTİ

Ağbabalı Adil üçün

Qardaş, ağır oldu həsrətin mənə,
Ürəyim ağrıda, göynəkdə qaldı.
Yeriyib, yüyürüb ayaq açmadı,
Körpə arzuların bələkdə qaldı.

Yetişəndə ölüm, yeriyəndə çən,
Dayandın yenə də gülərüzlü, şən.
Doymadın çəmənin təravətindən,
Gözün güldə qaldı, çiçəkdə qaldı.

Gecələr gözlərin yuxu yatmadı,
Səni çox çağırdım, səs oyatmadı.
Bir hava çalmağa vaxtın çatmadı,
Sazın həmişəlik köynəkdə qaldı.

1977, 11 aprel

QOYMARAM

Ana Vətən, ana torpaq, ana yer,
Duman səni bürüməyə qoymaram.
Qara bulud çox döyməsin döşünə,
Addım atıb yeriməyə qoymaram.

Nemət olub düzlərində bitərəm,
Hər arzuma, istəyimə yetərəm.
Daş olsam da, nəğmə deyib ötərəm,
Bülbülləri kiriməyə qoymaram.

Həyat üçün deyilməmiş sözüm var,
Ürəyimdə zəhmətinə dözüm var.
Hər ağacın yarpağında gözüm var,
Xəzəl olub çürüməyə qoymaram.

1977, 20 iyun

ŞAHDAĞ

Ətəyində çiçək gördüm, papağında qar,
Gəlib səndə doğmalaşıb qış ilə bahar.
Hər daşında bir ovçunun xatirəsi var,
Adın bizə müqəddəsdi, uludu, Şahdağ.

Dağ həsrəti çox yağdırıb saçıma dəni,
Yenə öpmək istəyirəm dumanı, çəni.
Səni görüb kövrəlsəm də, qınama məni,
Şair qəlbi gözəlliyin quludu, Şahdağ.

1977, 25 iyun

GÜLLƏRİN

Könül açdım, nəfəs qatdım, can dedim,
Nəfəsinə, qoxusuna güllərin.
Bircə-bircə necə çəkim adını,
Şeir dedim çoxusuna güllərin.

Yüz il baxsam, baxışından doymaram,
Bir çiçəyin solmağına qıymaram.
Qədəmimi göy çəmənə qoymaram,
Çoxu yana, çoxu sına güllərin.

Ürək verdim ürəyimi duyana,
Layla çaldım məni həmdəm sayana.
Elə yatıb, inanmıram oyana,
Bal qatmışam yuxusuna güllərin.

1977, 9 iyul

BU DAĞLARIN

Buz bulaqlar aynasıdı,
Şüşəsidir bu dağların.
Könülaçan göy çəməni,
Meşəsidir bu dağların.

Hər yana açılar qolu,
Gen sinəsi sözlə dolu.
Çaxan şimşək, yağan dolu
Nəşəsidir bu dağların.

Hey baxar yollara doğru,
Yaman şeydi həsrət, ağrı.
El gəlməsə, qara bağrı
Bişəsidir bu dağların.

Asan deyil yaşa dolmaq,
Min illəri yola salmaq.
Qocalsa da, cavan qalmaq
Peşəsidir bu dağların.

1977, 10 iyul

SAĞLIQ

Ömrün şöhrətidi, ağlın zinəti,
Şirin arzuların başıdı sağlıq.
Bütün ağrıların, bütün dərdlərin
Başının ən ağır daşıdı sağlıq.

Həyatın ən şirin meyvəsi, barı,
Qəlbin ən istəkli həmdəmi, yarı.
Qızıl bir üzüksə dünyanın varı,
Onun ən qiymətli qaşıdır sağlıq.

Çağla Araz kimi, çağla Kür kimi,
Günün qaralmasın qoy kömür kimi.
Ömrü yaşamasan bir ömür kimi,
Gözlərin nisgili, yaşıdı sağlıq.

1977, 13 iyul

QAYIDASIYAM

Arzularım gözəlləşib
Şəhərə dönsə,
Gecələrim işıqlanıb
Səhərə dönsə,
Hər səfərim ən mənalı
Əsərə dönsə,
Yer üzünü qarış-qarış
Gəzsə də ilham,
Bir gün dönüb bu yerlərə
Qayıdasıyam.

Dilimizin dadı burda,
Şirəsi burda.
Sözümüzün balı burda,
Kərəsi burda.
Bir ömürdü günlərimin
Hərəsi burda.
Dodağımda şeirə dönüb
Hər düşən axşam.
Bir gün dönüb bu yerlərə
Qayıdasıyam.

Odu sönməz, külə dönməz
Yanar ocaqlar.
Ömür burda yüzü keçər,
Yüz biri haqlar.
Gur bulaqlar nur payımı
Gözündə saxlar.
Zirvədə qar, düzdə çiçək,
Qayada suyam.

Bir gün dönüb bu yerlərə
Qayıdasıyam.

Ata əli toxum səpən,
Torpaq payım var.
Ana əli alışdıran,
Ocaq payım var.
Bu dağları səsləməyə
Bir harayım var.
Neçə yatmış xatirəni
Oyadasıyam.
Bir gün dönüb bu yerlərə
Qayıdasıyam.

1977, 18 iyul

KÖVRƏLİR

Bir zaman darağa yatmazdı tellər,
İndi tumar tutub, saç da kövrəlir.
Yollar baş alanda payıza doğru
Axır, yanağında yaş da kövrəlir.

Enirsən enişi, gəzirsən düzü,
Elə bil sənindi dünyanın üzü.
Əllidə deyirsən keçərəm yüzü,
Yetmişə çatanda yaş da kövrəlir.

Fürsət əlindədir, dövranını sür,
Eşqinlə çağlasın bu Araz, bu Kür.
İllərin əlində neyləsin ömür,
Məqamı çatanda daş da kövrəlir.

1977, 22 iyul
Laçın

DANIŞIRDI

Dinlədim doyunca Oğuldərəni,
Təbiət söz alır, söz danışırdı.
Qartal söhbətini zirvədən salıb,
Buzluğun sözünü buz danışırdı.

Vurdu topuğuma, çıxdı dizimə,
Xoş ətir çiləndi güldən izimə.
Bu çiçək dəryama, gül dənizimə
Baş vurub oğlanla qız danışırdı.

Nəğmə yaranırdı çayın səsindən,
Sellərin, suların zümzüməsindən.
Əlik dırnağından, şir pəncəsindən
Cığır xəbər verir, iz danışırdı.

Salırdı qonağı zəhmətə, işə,
Kabab güc gəlirdi cağbacağ dişə.
Quzumu, toğlumu çəkilən şişə,
Ocaq kəlmə kəsir, köz danışırdı.

1977, 23 iyul
Laçın

GEDİM

Gur bulaqlar, insafdımı,
Sizi yalqız qoyum gedim.
İstəyirəm zərrə-zərrə
Gözəlliyi duyum gedim.

Açılsın göylərin qolu,
Sel tərpətsin sağı, solu.
Çaxsın şimşək, yağsın dolu,
Çıxsın burda suyum, gedim.

Dağlar olub babam, nənəm,
Qoynunuzda hər gün şənəm.
Təbiətin acı mənəm,
İnanmıram doyum gedim.

1977, 20 iyul
Qubadlı

VAR İMİŞ

Qulaq verdim Bərgüşadın səsinə,
Könülaçan şeriyyəti var imiş.
Xatırlatdı Həcərimi, Nəbimi,
Axar suyun nə hikməti var imiş.

Məni gördü, əsdi, coşdu, çağladı,
Həvəsindən hönkür-hönkür ağladı.
Ürəyimi laylasına bağladı,
Çayda şair təbiəti var imiş.

Kəlmə kəsib, söz açırdım çayıma,
Bu məqamda ilham gəldi hayıma.
Bir şeir də düşdü mənim payıma,
Hər şairin öz qisməti var imiş.

1977, 21 iyul
Qubadlı

GÖZƏLLİK ÖNÜNDƏ

Bu Oğuldərədən söhbət açmağa
İlhama söykənən ağıl gərəkdi.
Üzündən, gözündən şeriyyət yağan,
Bir döşü atlanan oğul gərəkdi.

Burda mən kim idim, danışam, dinəm,
Şair də, rəssam da təbiət idi.
Tez-tez qabarırdı fərəhdən sinəm,
Hər suyun axarı bir hikmət idi.

Bu Qızılqayadı, bu Qatar qaya,
Hər biri qol açıb gəl-gəl deyirdi.
Baxmaq istəyəndə gözəl dünyaya,
Uç mənim qoynumda, yüksəl deyirdi.

Göylər səyirdirdi belədən-belə,
Külək qamçısıydı, bulud atıydı.
Mən fikir verirdim yağışa, selə,
Hər anı bir qoşma, bir bayatıydı.

Qalxıb ucalara, enib dərinə,
Həvəslə hər yana göz gəzdirirdim.
Sinəmin altında ürək yerinə,
Ocaq alışdırıb, köz gəzdirirdim.

Bu Oğuldərədən söhbət açmağa
İlhama söykənən ağıl gərəkdi.
Üzündən, gözündən şeriyyət yağan,
Bir döşü atlanan oğul gərəkdi.

1977, 23 iyul
Laçın

YOLA SAL MƏNİ

Gedirəm, ayrılıq çətin olsa da,
Anamın laylası, yola sal məni.
Həyatım, varlığım demişəm sənə,
Ömrümün mənası, yola sal məni.

Oduna yandığım ocağın közü,
Aylı gecələrin söhbəti, sözü,
Sərin çeşmələrin qaynayan gözü,
Suların aynası, yola sal məni.

Mən ki vurğunuyam bağçanın, bağın,
Çiçəklər, başıma yağıştək yağın.
Hər axşam başına döndüyün dağın,
Çəməni, yaylası, yola sal məni.

1977, 14 iyul

YAYLAĞIN

Yayın son ayında, köç vədəsində,
Qurtarır dövranı, vaxtı yaylağın.
Yarından ayrılan gözəllər kimi,
Bağlanır kitabı, baxtı yaylağın.

Haraylı günlərin çatır axırı,
Yağışın, dolunun çıxır paxırı.
Yellənir sürüsü, enir naxırı,
Dağılır, sökülür taxtı yaylağın.

Ayrılıq alnında açır şırımlar,
Qaşına toy tutur bu ildırımlar.
Sökülən dəyələr, dolan qarımlar
Qəlbini yandırdı-yaxdı yaylağın.

Sinədə tükənməz nəğmədi, səsdi,
Bu dövran doqquz ay ellərə bəsdi.
Bu da bir ömürdü, gündü, həvəsdi,
Sərvəti arana axdı yaylağın.

1977, 28 avqust

TƏZƏ-TƏZƏ

Sevgilim, təzəcə açılır bahar,
Yaşıla bürünür yer təzə-təzə.
Yüz damla şeh düşür bir yarpaq üstə,
Yanır yanağında zər təzə-təzə.

Nəğməsini oxu, laylasını çal,
Səni uzaqlara aparsın xəyal.
Gülün dodağından süzüləndə bal,
Zərif əllərinlə dər təzə-təzə.

Ömrümün həmdəmi, könlümün yarı,
Boylan zirvələrə, dağlara sarı.
Çökməmiş dumanı, yağmamış qarı,
Qəlbini torpağa ver təzə-təzə.

Çəmənlər göyərsin, çiçəklər açsın,
Arzular böyüsün, diləklər açsın.
Qoy bu gün yaxanı küləklər açsın,
Sinəni yellərə gər təzə-təzə.

* * *

Payız yağışıdır bu axşam yağan,
Könlümü açan da onun səsidir.
Hər yağış mənalı bir nəğmədirsə,
Hər damla şeirimin bir nöqtəsidir.

1977, 3 sentyabr

BAKI
(İlk görüş)

Ovcumun içitək xatırlayıram,
İlk dəfə Bakıya gəldiyim günü!
Ömrümün ən əziz vaxtı sayıram,
Ogünkü heyrətin böyüklüyünü.

Ana qucağından ayrılsam da mən,
Ən isti, ən geniş qucağa gəldim.
Qaldı öz yerində o çöl, o çəmən,
O çağdan ayrılıb bu çağa gəldim.

İlk dəfə görürdüm həyatımda mən,
İşığın bu qədər bol olduğunu.
İlk dəfə görürdüm bircə ürəkdən,
Bütün ürəklərə yol olduğunu.

Köksümə sıxanda torpağı, daşı,
Uşaq sevinciylə aşıb-daşırdım.
Fikrin qanadında hər addımbaşı
Uca zirvələrlə qucaqlaşırdım.

Qoyuldu bir eşqin özülü, himi,
Sən mənim küləklər şəhərim oldun.
Böyüdüm, bəslədin öz balan kimi,
Arzular, diləklər şəhərim oldun.

Qaynadı qəlbimin istəyi, kamı,
Ürəklər öz evim-eşiyim oldu.
Yatanda dalğalar çaldı laylamı,
Xəzərin qucağı beşiyim oldu.

Parlaq ulduzları döşümə taxdım,
Aldım qüvvətimi nurdan, işıqdan.
Bir gündə yüz dəfə hüsnünə baxdım,
Gözlərim doymadı bu yaraşıqdan.

Anatək qəlbimi duydun sən mənim,
Bu hörmət önündə başımı əydim.
On ildir qayğımı çəkirsən mənim,
Onca gün qayğını çəkə biləydim.

Yaşım az olsa da, demə uşaqdır,
Mənə əzizlərdən əzizsən, Bakı.
Kəndimiz könlümdə qaynar bulaqdır,
Sən sonu görünməz dənizsən, Bakı.

1977, 19 aprel

TƏCNİS

Sevənlər küsəndə öz taleyindən,
Çətin ki, meylini o yara bağlar.
Yazın oğlan çağı yalqız olanda,
Xəzantək görünər a yara, bağlar.

Ayrılıq yandırar o yar bağrını,
Közə məskən eylər o yar, bağrını.
İntizar insanın oyar bağrını,
Günəş üz döndərər, Ay ara bağlar.

Əgər bir gün acı olsa şirinlər,
Çaqqal gülər, pələng ağlar, şir inlər.
Fərhadına yetişməsə Şirinlər,
Həsrət sinələrdə a yara bağlar.

1977, 26 sentyabr

DAĞLAR

Həyatı sevəni qoynuna çağır,
Qoyma qan tökəni yaxına, dağlar.
Yenə bir daşını qırmızı gördüm,
Ya qartal qanıdır, ya xına, dağlar.

Çoxalar daha da ömrünün barı,
Yaşadın dağları yaşadanları.
Şöhrət zirvəsinə daş atanları
Yandırın atəşə, yaxın, a dağlar.

Qaşların çatılsa göz açar yaram,
Könlü dağ havalı bir həvəskaram.
Yüz il qar yağsa da, soyumaz aram,
Yaxınam mən sizə, yaxın, a dağlar.

1977, 3 oktyabr

ATA HEYKƏLİ

Otuz beş il ötür o vaxtdan bəri,
Olub-keçənləri bir-bir sayıram.
Döyüşlə, silahla keçən illəri
Ata söhbətiylə xatırlayıram.

Solub çiçəkləri, yanıb bağları,
Atalar həyatda, eh, nələr görüb.
Başları ən ağır bəlalar çəkib,
Gözləri ən qanlı səhnələr görüb.

Odlu nəfəsiylə yarıb buzları,
Ömrü qasırğadan, qışdan çıxardıb.
Qələbə səsini, həyat eşqini
Qayadan qopardıb, daşdan çıxardıb.

Gündüzlər aparıb əlini şaxta,
Gecələr ayazda donub buz kimi.
İnanıb yenə də dövrana, vaxta,
Alışıb ümidi bir ulduz kimi.

Bir ömrü yüz ömrün səadətinə
Bölməyi bacarıb atalarımız.
Bir nəsli vüqarla yaşatmaq üçün,
Ölməyi bacarıb atalarımız!

Heç ucuz baxarmı gələcəyinə,
Kim öz keçmişindən yaxşı halıdır.
Hər oğul yer verib öz ürəyində,
Bir ata heykəli yaratmalıdır!

1977, 8 oktyabr

DEYİL

Həyat bir sinədə ocaq çatdısa,
Tufanlar qopsa da sönəsi deyil.
Ürək zirvələrin həvəsindədi,
Dərələr dibinə enəsi deyil.

Qalmaz gözlərində istəyi, kamı,
Azalmaz işığı, qaralmaz şamı.
Elə arxalansa şair ilhamı,
Onu şimşəklər də yenəsi deyil.

El özü göz qoyar yaxşıya, pisə,
Qızılı endirib dəyişməz misə.
Beş-altı kəlməylə söz tükəndisə,
Bil ki, o şairin sinəsi deyil.

1977, 6 oktyabr

NƏDİR Kİ...

Xəstə vaxtı Rəşid müəllimə müraciətlə

Sərt illərin sınağından çıxana,
Gün sınağı, ay sınağı nədir ki?!
Qarlı qışın şaxtasına dözənə,
İsti günlü yay sınağı nədir ki?!

Ağır gündə boran-qardan keçmisən,
Neçə çətin, neçə dardan keçmisən.
Qasırğalı dəryalardan keçmisən,
Axıb gedən çay sınağı nədir ki?!

Çox dözmüsən, ağrılara döz bir az,
Dərman olsun şeir bir az, saz bir az.
Səbr eyləsin, ağlamasın göz bir az,
Kişi üçün vay sınağı nədir ki?!

1977, 7 dekabr

TƏCNİS

Damağımda illər boyu qalandı,
Unudulmaz dağ ləzzəti, dağ adı.
Dərə çəksə dərinlərə fikrimi,
Meylim yenə dağdadı ki, dağdadı.

Qanad verməz yer yamana, göy nəsə,
Namərd baxıb, küskün olub göynəsə,
Buz baxışdan qayaların göynəsə,
Bil ki, sinəm düyündədi, dağdadı.

Dağlar mənim sevgilimdi, butamdı,
Ömrüm-günüm bu şirinlik, bu tamdı.
Seçmərəm ki, o yarıdı, bu tamdı,
Hamısında var eşqimin dağ dadı.

1978, 5 noyabr

SƏNİ GÖRMƏYƏNDƏ

Səni görməyəndə elə bilirəm,
Dünya ləzzətindən, dadından çıxır.
Parlamaq ulduzun ağlına gəlmir,
Alışmaq Günəşin yadından çıxır.

Bircə ay uzansa həsrətin ömrü,
İntizar qəddimi əyər dünyada.
Məni ki sənintək əzizləyən var,
Min il yaşamağa dəyər dünyada.

1978, 26 fevral

VƏLƏSLİ BULAQ

Vələsli bulaqda keçən bir günü
Vermərəm yüz aya, yüz ilə, qardaş.
Yazın bu vaxtında heç insafdımı,
Əlim bu yerlərdən üzülə, qardaş.

Görmək istəyirəm hər gələn yazı,
Zaman Zəlimxana etməsin nazı.
Köklənib bu yerdə könlümün sazı,
Bir də qalxacaqmı bu zilə, qardaş.

1978, 10 mart

BƏNÖVŞƏ ƏTİRLİ

(kiçik bacım Rəfiqəyə)

Ay bacım, baharın oğlan çağında
Sən mənə bir dəstə bənövşə verdin.
Mən elə bildim ki, ixtiyarıma
Çəmənli, bulaqlı bir meşə verdin.

Bir zərif çiçəkdə, bir damla şehdə
Gördüm təbiətin oyandığını.
Gördüm zirvələrin yerə göz vurub,
Düzlərin min rəngə boyandığını.

Ömür ver bahara, könül ver yaza,
Açıl çiçək kimi, solma, ay bacım.
Bənövşə ətirli olmaq gözəldi,
Bənövşə taleli olma, ay bacım.

1978, 14 mart

DƏQİQƏLƏR VAR

Ayları, illəri almazdım saya,
Anları sayıram, indi anları.
Azaldıqca ömür, çoxaldıqca yaş,
Çoxalır həyatın imtahanları.

Enişdən, yoxuşdan keçdi ömür, gün,
Həyat yollarında gördüm nələr var.
İtən, unudulan aylar, fəsillər,
Allahlıq eləyən dəqiqələr var!

1978, 7 yanvar

ÜRƏYƏ BAX

Sən baharın qəlbindəki
Arzuya bax, diləyə bax.
Buludlara sığışmayan
Qəh-qəh çəkən şimşəyə bax.
Qayadakı şah palıda,
Daş içində çiçəyə bax.
Gör bir harda nə bitirir,
Təbiətdə ürəyə bax!

1978, 24 mart

EŞQİMİZ

Alovdur ürəyi, işıqdır canı,
Oddan, ildırımdan qopar eşqimiz.
Çevrilib Günəşin zərrələrinə,
Torpağın ruhuna hopar eşqimiz.

Saz kimi çalınar, ney kimi dinər,
Ürəkdən alışar, ürəkdən sönər.
Səadət görəndə Fərhada dönər,
Qayalı dağları çapar eşqimiz.

Könlünü açsa da çaldığım bu saz,
Bizə illər boyu naz eyləyər, naz.
Səadət hər zaman qarşıya çıxmaz,
Axtara-axtara tapar eşqimiz.

1978, 8 yanvar

İNSAN

Onsuz nə yer gülər, nə göy sevinər,
Artırıb dünyanın dadını insan.
Yan-yana dayanıb ulduzla, Ayla,
Gör hara qaldırıb adını insan.
Günəşi bir belə alovlandırıb,
Göylərə bəxş edib odunu insan.

1978, 15 yanvar
Moskva

GÖRDÜM ARAZI

Yaralı Təbrizim yadıma düşdü,
Saralan bənizim yadıma düşdü,
İstəklim, əzizim yadıma düşdü,
Yüz dəfə gözümdən yaş axdı azı,
Gördüm Arazı.

Məhbəsdə, zindanda saydım özümü,
Getdi ürəyimin tabı, dözümü.
Tikanlı məftillər tökdü gözümü,
Gülmədi üzümə ömrümün yazı,
Gördüm Arazı.

Dili bir yanıqlı neydi həsrətin,
Yükü qamətimi əydi həsrətin,
Şilləsi üzümə dəydi həsrətin,
Mən belə görüşdən olmaram razı,
Gördüm Arazı.

Mən əziz bilsəm də yerin xətrini,
O tay əsirgədi məndən ətrini.
Dəyişə bilmədim bircə sətrini,
Daş oldu bəxtimə yazılan yazı,
Gördüm Arazı.

Daha yer qalmadı söhbətə, dəmə,
Kövrək duyğularım bələndi qəmə.
Həsrət bir daş olub dəydi sinəmə,
Sındırdı qəlbimdə dil açan sazı,
Gördüm Arazı.

1978, 19 fevral

GÖZLƏMƏ

İpək təbiətin yoxsa dünyada,
Qumaşı, ipəyi məndən gözləmə.
Çiçək təravətin yoxsa dünyada,
Bir gülü, çiçəyi məndən gözləmə.

Qoymadın oynadam qoşa qolumu,
Bağladın sağımı, kəsdin solumu.
Sən ki gözləmədin mənim yolumu,
Dünyada heç nəyi məndən gözləmə.

1977, 9 aprel

* * *

Bəzənib torpağın qoynu, qucağı,
Dərəsi yamyaşıl, dağı yamyaşıl.
Qadasın aldığım qara torpağın
Gülü dümqırmızı, tağı yamyaşıl.

1978, 17 aprel

NECƏ QAYTARIM

Günəşlə görüşüm toy-bayram olur,
Bir nəğmə bəxş edir hər səhər mənə.
Könlümə dünyanın sevinci dolur,
Sirrini açanda nəğmələr mənə.

Açır bol əlini ana təbiət,
Məndən əsirgəmir bu səadəti.
Heyrət eləyirəm, Günəşə heyrət,
Nə odu tükənir, nə səxavəti.

Şəfəqlər yolunu qəlbimdən salıb,
Korluq çəkməmişəm güryan işıqdan.
Şeirim qüvvət alıb, sözüm od alıb
Göylərin bəzəyi, bu yaraşıqdan.

Ruhuma yad deyil nə yağış, nə qar,
Günəşdir ən böyük dövlətim, varım.
Torpağın borcunu qaytarmaq olar,
Günəşin borcunu necə qaytarım?!

1978, 22 aprel

QALAR

Təbiət ağlar insansız,
Oylaq yaman günə qalar.
Çəkməsə bağban nazını,
Budaq yaman günə qalar.

Yetən olmasa dadına,
And içməsə xalq adına,
Yanan tapılmaz oduna,
Ocaq yaman günə qalar.

Əli çıxar zildən, pəsdən,
Ayrı düşər şirin səsdən.
İsinməsə bir nəfəsdən,
Otaq yaman günə qalar.

Yoxsa qızların oyunu,
Çalan kim olar toyunu.
İçən olmasa suyunu,
Bulaq yaman günə qalar.

Üzə gülməz bir əməli,
Beş qəpiyə dəyməz ləli.
Bəzəməsə insan əli,
Torpaq yaman günə qalar.

1978, 11 iyun

DAHA

Qapını dost açır, mehriban açır,
Dəyişib səmtini küləklər daha.
Muradı gül açıb yanan şamların,
Nuruna mat qalıb fələklər daha.

Nə qədər Leylilər çıxmadı yaza,
Nə qədər Məcnunlar getdi güdaza.
Nə görmək istədin sən yaza-yaza,
Göstərdi arzular, diləklər daha.

Nələri düşündüm, ustad, nələri,
Sevinər keçmişim, olsa xəbəri.
Göydən endirmişik əfsanələri,
Dönüb insan olub mələklər daha!

1978, 21 iyun

OLMAZ

Üzü qaralmasa ağ varaqların,
Şairin həyatda üzü ağ olmaz.
Dayanma, ey qələm, susma, ey ilham,
Nəğməsiz, şeirsiz yaşamaq olmaz.

1978, 17 aprel

BİLMƏSƏM

Yazın ləzzətini duymazdı könlüm,
Qışın şaxtasında dona bilməsəm.
Üzümə gülməzdi bağlar, bağçalar,
Hər gülü bir nazlı sona bilməsəm.

Arzum, ağlar qalmış ömürə dönər,
Varlığım pas atmış dəmirə dönər.
Gözüm bir qaralmış kömürə dönər,
Vaxtında alışıb yana bilməsəm.

Bir atım duz ilə, bir loxma çörək
Mənə ömrüm boyu gərəkdir, gərək.
Qara daş olardı sinəmdə ürək,
Daşların dilini qana bilməsəm.

Mən hansı həvəslə seyrə dalardım,
Kimin ürəyində ocaq qalardım,
Analı olsam da, yetim qalardım,
Bütün anaları ana bilməsəm!

1978, 21 iyun

GÜLLƏR, TİKANLAR

Bir nadan toxundu bir qız qəlbinə,
Söz dəydi ürəyə ağır daş kimi.
Qəzəbim çağladı, sellərə döndü,
O qızın gözündən axan yaş kimi.

Yenə bir təsəlli tutdu qolumdan,
Kobuda neyləsin zərif, utancaq.
Güllər könüllərə ətir payladı,
Tikanlar çəpərə yaradı ancaq.

1978, 23 fevral

TƏCNİS

Meylim yenə üç aləmə bağlanıb:
Tüstü – yaşıl, köz – qırmızı, od – ala.
Mən kiməm ki, xəyalımla öyünəm,
Vurğun gərək, burda seyrə o dala.

Arzum çoxdu, qəsrim azdı, qalam az,
İstəmirəm bu dünyada qalam az.
Həyat bir də ocağımı qalamaz,
Külə dönsəm, çətin eşqim od ala.

Günəş doğar, qənim olar qara, yaz,
Ay Zəlimxan, baxma yağan qara, yaz.
Düşmən əli buz parçası, qar, ayaz,
Əlim gərək dost əlindən od ala!

1978, 17 iyun

ÇƏMƏNDƏ

Qışı öz əlimlə salmışam yola,
İndi həmsöhbətim yazdı çəməndə.
Gözəllik meylimi min yerə çəkdi,
Xəyalım dolaşıb azdı çəməndə.

Hər zərif çiçəyin öz ətir payı,
Düzlərin eşqini aləmə yayı.
Yaxşı ki, güllərin bilinmir sayı,
Yaxşı ki, qanqallar azdı çəməndə.

Təbiət şairin dərmanı, həbi,
Bir bulaq gördümü, gələcək təbi.
Nə qələmi gəzdi, nə mürəkkəbi,
Zəlimxan bu şeiri yazdı çəməndə.

1978, 28 iyun

GÖYÇƏNİN

İki gözündən şikəst olan tanınmış
Borçalı nəğməkarı Aşıq Göyçəyə həsr edirəm

Ömrümüzə layla çalıb,
Şirindi dili Göyçənin.
Ağladar bəmdən, astadan,
Güldürər zili Göyçənin.

Od yağdıran saza dönər,
Min qəmzəyə, naza dönər,
Arif görsə, yaza dönər,
Açılar gülü Göyçənin.

Naləsi bağrımı dəldi,
Bu səs mənə tanış gəldi.
Bahalıdı, sözü ləldi,
Qızıldı əli Göyçənin.

Hər əl bu sənətə yetməz,
Bu dünyaya gələr, getməz.
Təbiətdən izi itməz,
Gül olar gülü Göyçənin.

Neçə arzu, xəyalı var,
Zəlimxanla vüsalı var.
Borçalıtək mahalı var,
Qaçağan eli Göyçənin.

1978, 31 iyul

TƏRTƏR

Qonağıyam Kəlbəcərin,
Qoyma könlüm sına, Tərtər.
Adın-sanın qoy ömrümə,
Olsun naxış, xına, Tərtər.

Varmı məndə duyan ürək,
Şeirim açarmı gül-çiçək.
Buyur, məni sınağa çək,
Şair kimi sına, Tərtər.

Nəğmə oxu gündüz, gecə,
Qarı, buzu alma vecə.
İllər boyu ax beləcə,
Qılıncı qoyma qına, Tərtər.

1978, 3 avqust

GEC AÇILMASIN

Çəkilmək istəmir dan qaranlığı,
Açılmaq istəmir bu səhər, nəsə...
Günəşsiz darıxır göylərin tağı,
Üzür ürəyimi bu qəhər, nəsə...

Elə bil gözümdə ümidlər solub,
Böyüyüb meydanı nisgilin, yasın.
Heç kəsin istəyi tərsinə dönüb,
Heç kəsin səhəri gec açılmasın.

1978, 25 avqust

Vaxtsız ayrılığın ağrıdır məni,
Mənim yar sovqatım, yar payım hanı?
Niyə çoxalmasın saçımın dəni,
Qızıla tutulan çarpayım hanı?

Pəncərə açmağı salmıram yada,
Qapılar bağlanıb, qarlı bir qışam.
Ağlamaq kişiyə yaraşmasa da,
Mən onu özümə yaraşdırmışam.

1978, 4 sentyabr

GƏLİR

Payız yavaş-yavaş görür işini,
Qar birdən ələnir, qış birdən gəlir.
Demə nə yatmışam, nə yuxu görəm,
Yuxu birdən gəlir, duş birdən gəlir.

Güc gərək yer üstə möhkəm durmağa,
Hər oğul çıxammaz meydan qurmağa.
İgid arxasını yerə vurmağa,
Kəllə birdən enir, döş birdən gəlir.

Dərman axtarırsan dərdə, tapılmır,
Namərdə bol olan, mərdə tapılmır.
Sən xeyir gəzəndə bir də tapılmır,
Şər ayaq alanda beş birdən gəlir.

Şirin ləzzəti var, acı tamı var,
Qaralan çırağı, sönən şamı var.
Bu qoca dünyanın iki camı var,
Dolu birdən gedir, boş birdən gəlir.

Nə ürək hasardı, nə ömür qala,
Torpağın üstündə bir lövbər sala.
Təbib qarşı gələ, yara sağala,
Yenə can ağrıya tuş birdən gələ.

Nə qıza sirr verir, nə də oğula,
Nağıla bənzəyir, dünya nağıla.
Başa nə gələcək, gəlir ağıla,
Qəza birdən olur, iş birdən gəlir.

Fikirlər içində boğulur insan,
Göl kimi quruyur, soğulur insan.
Bəzən də sınaqda doğulur insan,
Başına ağılla huş birdən gəlir.

1978, 19 dekabr

TƏBİƏTİN ÖNÜNDƏ

Əyil, təbiətin önündə əyil,
Gözəllik görəndə özünü çəkmə.
Bu fürsət hər zaman tapılan deyil,
Zərif çiçəklərdən gözünü çəkmə.

Gedib uzaqlarda loğman axtarma,
Tapıbsan, itirmə loğmanı burda.
Bir yanda dağ gülür, bir yanda aran,
Yad bilmə özünə doğmanı burda.

Baharda qaynayıb qarışa bilsən,
Çəmənlər qoynundan gül verər sənə.
Sellərə, sulara yaraşa bilsən,
Bulaqlar nəğməli dil verər sənə.

Nə xalqa gərəksən, nə də elata,
Torpağın eşqiylə yana bilməsən.
Dağları özünə vüqarlı ata,
Düzləri mehriban ana bilməsən.

Tikansız görməzsən heç birisini,
Gülə bax, sevincin birə-beş olsun.
Gərək insanlar da təbiət kimi,
Təbiət önündə qayğıkeş olsun.

1978, 9 dekabr

DEYİRƏM

Mənə bir layla çal, ay sədəfli saz,
Nə pərdə dincəlsin, nə sim deyirəm.
Qoyma yas içində gümüş telləri,
Mən ona avazım, səsim deyirəm.

Sən yaşa dünyada, mən də var olum,
Yerə sirdaş olum, yurda yar olum.
Dərdin qarşısında bir hasar olum,
Qəmin yollarını kəsim, deyirəm.

Sən elə dillən ki, dil ver lallara,
Dalım yavaş-yavaş xoş xəyallara.
Toxunan olmasın zərif xallara,
Hər hava üstündə əsim, deyirəm.

Geymişəm hər zaman yaşıl alını,
Görmüşəm dünyanın gül camalını.
Özgə neyləyirəm dünya malını,
Bu nemət bəsimdi, bəsim, deyirəm.

1978, 9 dekabr

BAĞLADI

Aşıq bir “Bağlama” dedi,
Aranı dağa bağladı.
Ölüyə can, nəfəs verdi,
Xəstəni sağa bağladı.

Bir məzəli məclis qurdu,
Sehirlədi yeri, yurdu.
Neçə yerdən düyün vurdu,
Bağı yüz bağa bağladı.

Söz götürdü nədən məni,
Duydu gəlib-gedən məni.
Bir hikmət təzədən məni
Yurda, torpağa bağladı.

1978, 6 dekabr

TÖKÜLƏR

Şimşək çaxıb, sel gələndə
Qaya uçar, daş tökülər.
Göy dolanda yağış yağar,
Göz dolanda yaş tökülər.

Sevinər yad, gülər naşı,
Mənə sarı atma daşı.
Çatılar bəxtimin qaşı,
Üzüyümdən qaş tökülər.

1978, 11 dekabr

QALDI

Qışı gəldi təbiətin,
Daha meydan qara qaldı.
Qaralmamış buludmu var,
Ağarmamış hara qaldı.

Səhər durub baxdım yerə,
Ağ geyindi birdən-birə.
Nə yaşıldan bir xatirə,
Nə qırmızı, qara qaldı.

Yerin, göyün sərtdir üzü,
Şaxta vurdu dağı, düzü.
Kim isidər ömrümüzü,
Ümid ancaq yara qaldı.

Gileylənmə bu ayazda,
Əriyəcək qar da, buz da.
Yazla bizim aramızda
Üçcə aylıq ara qaldı.

1978, 12 dekabr

VERƏRDİM

El gözəli, mən deyəni deməydin,
Meylimi xoş diləklərə verərdim.
Nə eşqimi sovurardım göylərə,
Nə vaxtımı küləklərə verərdim.

Ağlamazdım boz dumanlı göy kimi,
Qəm üstünə şığımazdım ley kimi.
Nə könlümü sızladardım ney kimi,
Nə yanğımı küləklərə verərdim.

Məhəbbəti, varı saydım dünyanın,
Gözəlləri, yarı saydım dünyanın.
Sevgisindən yarısaydım dünyanın,
Hökmü yenə fələklərə verərdim.

1978, 16 dekabr

HAZIRLANIRMIŞ

Bir hörmət elədin, bu hörmətinlə
Başımın qaxıncı hazırlanırmış.
Sən əlbir olanda nifrətlə, kinlə,
Boynumun qılıncı hazırlanırmış.

Dünya dağılmazmı qurd nəfəsiylə,
Qulaq kar olmazmı bayquş səsiylə.
Əlin oynasa da gül şirəsiylə,
Zəhərli bir damcı hazırlanırmış.

Dedim, bala kimi döşə çəkirsən,
Nə bilim, ətimi şişə çəkirsən.
Sən demə, dərimdən köşə çəkirsən,
Belimə bir qamçı hazırlanırmış.

1978, 25 dekabr

YARADAYDI

Baxaydı sözümə bu qoca dünya,
Dəyirman üyütməz dən yaradaydı.
Nə qara saçlara qar düşəydi, qar,
Nə ala gözlərə çən yaradaydı.

Çəkildi axşamı, getdi səhəri,
Dolana bilmədim kəndi, şəhəri.
Cıdıra çıxanda xallı kəhəri,
Meydanı bir xeyli gen yaradaydı.

Yandı bu çöllərdə zəmi, neyləsin,
Batdı bu dəryada gəmi, neyləsin.
İnsan bu dağ boyda qəmi neyləsin,
Onu bir balaca şən yaradaydı.

Bizi çox oynatdı küllə, kömürlə,
Qatdı başımızı daşla, dəmirlə.
Zəlimxan neyləsin beş gün ömürlə,
Ömrümü arzuma tən yaradaydı.

1978, 26 dekabr

* * *

Yenə şər qarışdı, gün axşam oldu,
Necə tez gödəldi ömrü günlərin.
Günəşdən doymamış gün tamam oldu,
Nə yaman qətiymiş əmri günlərin.

Amanı qırılmış zamana bir bax,
Saniyə gözləmir, saat gözləmir.
Dayanmaq olarmı, neyləsin səbir,
Biz necə gözləyək, həyat gözləmir.

Körpə uşaq kimi doğulan səhər
Təzəcə gözünü açmamışdımı?
Yayıb öz nurunu günəş birtəhər,
Yenicə dünyaya saçmamışdımı?

Ürək hey yaşamaq həyəcanında,
Bir gün yasdadırsa, beş gün toydadır.
Ömür təpədirsə, onun yanında
Arzu bir əlçatmaz zirvə boydadır!

1978, 26 dekabr

* * *

Həyatdan ikinci ömür istəmə,
Onsuz da heç kəsə verəsi deyil.
Bir ömrün eşqinə bir iş görməyən,
Yüz ömür versən də, görəsi deyil.

1978, 2 oktyabr

GÖYÇƏDƏ

Könlüm saz eşqinə yaşıl tağ atdı,
Köküm Borçalıda, özüm Göyçədə.
Sinəmdə bir sönməz ocaq çatmışam,
Odum Borçalıda, közüm Göyçədə.

Bu ellər lələdi, mən də bir Kərəm,
Gərək arzuların barını dərəm.
Yüz il təbiətdən ömür istərəm,
Qoşum Borçalıda, düzüm Göyçədə.

Nə qələmi oldu, nə mürəkkəbi,
Yetişdi Ələsgər, yarandı Nəbi.
Göylərə qaldırdı ilhamı, təbi,
Sazım Borçalıda, sözüm Göyçədə.

Zəlimxan, sözümdən ayrılammaram,
Odumdan, közümdən ayrılammaram,
Canımdan, gözümdən ayrılammaram,
Canım Borçalıda, gözüm Göyçədə.

1978, 3 sentyabr

ÜSTƏDİ

Yaşıl yaylaqların yayına qurban,
Gözəllər yenə də bulaq üstədi.
Dili alışdıran, gözü yandıran,
Alovlu nəğmələr dodaq üstədi.

Oğullar öyməli, qızlar seçməli,
Güllər öpülməli, sular içməli.
Yurd var, qucağına yazdan köçməli,
Hər ömrün səfası bu dağ üstədi.

Yenə gözəlliyi salıram yada,
Ucalır qəlbimdə min səs, min səda.
Göylər taleyimə şöhrət olsa da,
Mənim səadətim torpaq üstədi.

1978, 9 oktyabr
Ağdam

KÜSƏNİ BARIŞDIRIR

Bəhlulun ürəyinə
Gündə bir hava düşür.
Aygünlə arasında
Saz üstə dava düşür.
Aygün deyir, mən çalım,
Bəhlul deyir, mən çalım.
Aygün bəhanə gəzir
İnciyib küsmək üçün.
Ata gəlir haraya,
Davanı kəsmək üçün.
Özü dindirir sazı,
Ucalır şən avazı.
Əziz körpələrini
Mahnıyla yarışdırır.
İnciyəni güldürür,
Küsəni barışdırır.

AY NƏNƏLƏR, BABALAR

– Kəndimiz hanı?
– Şəhərdən uzaqdadı.
– Bəs evimiz hardadı?
– Yaşıl bir bucaqdadı.
– Usub babam hardadı?
– Dərs deyir uşaqlara,
Əlvan bir otaqdadı.
– Güllü nənəm hardadı?
– Gedib su gətirməyə,
Səhəngi bulaqdadı.
Danışın, ay nənələr,
Danışın, ay babalar.
Sözün cavabı sizdə,
Sualı uşaqdadı.

BƏHLULUN SAZI

Qoymur əlindən yerə,
Bəhlulum saz öyrənir.
Gözəl nəğmə, şirin söz,
Şirin avaz öyrənir.

Boyu heç saza çatmır,
Elə hey çalım deyir.
Oxuyur öz-özünə,
"Ay qadan alım", – deyir.

Yatanda sazla yatır,
Duranda çalır yenə.
Sığmır evə-eşiyə,
Səsi ucalır yenə.

Təzənəsi itəndə
Ağladıqca ağlayır.
"Çalanım hanı?" – deyir,
Telləri qucaqlayır.
Gərək təzənəsini
Tezcə tapıb verəsən.
Sən Bəhlulu həvəslə
Saz çalanda görəsən.

AYGÜNÜM

Aygünüm, çiçəyimsən,
Gözəlim, göyçəyimsən.
Həm bu günüm olmusan,
Həm də gələcəyimsən.

Aygünüm, quzum mənim,
Çörəyim, duzum mənim.
Yerdə gülüm-gülşənim,
Göydə ulduzum mənim.

Aygün təzə dil açır,
Ayaq açır, əl açır.
Dodaqları qaçanda
Yanaqları gül açır.

Aygünüm aydan gəlir,
Çərmənib çaydan gəlir.
Kürlüyə başlayanda,
Elə bil haydan gəlir.

ƏKİZ TAYI

Əkiz qardaş-bacılar,
Vüsal ilə Vüsalə.
Biri bağda qızılgül,
Biri çəməndə lalə.
Vüsalə quzu kimi,
Vüsal ondan xeyli kür.
Aybəniz bir beşikdə
İki körpə böyüdür.
Fərhad baba
Kənddədir,
Darıxır şəhər üçün.
Tez-tez gəlir Bakıya,
Qoşa nəvələr üçün.
Onun hər gəlişində
Vüsalın öz payı var,
Vüsalənin öz payı.
Qayğılarla boy atıb
Böyüyür əkiz tayı.

SÜRÜCÜYƏM

Bəhlul yaman çox sevir,
Avtobusu, maşını.
Oyuncaqlar, oyunlar
Qatır onun başını.
Gizlə oyuncağını,
Baxışları durulmaz.
Gecə keçər yarıdan,
Oynamaqdan yorulmaz.
Maşından söz düşəndə
Elə bil artır gücü.
Deyir, ata, bura bax,
Sürücüyəm, sürücü.

NİYƏ GÖSTƏRMİR

Bəhlul küsübdü
Televizordan.
Deyir, buna bax,
Göstərir ordan,
Göstərir burdan.
Durub baxmaqdan
Səbrim tükəndi.
Niyə göstərmir
Bəs bizim kəndi?

* * *

Bəhlul yaman dəcəllənib,
Elə, “gəl dalaşaq” – deyir.
Yoxdu bizim məhəllədə
Məndən qoçaq uşaq, – deyir.

AYGÜNÜN NAZI, BƏHLULUN SAZI

Qaynar həvəsdi,
Nəğmədi, səsdi.
Dünyaya bəsdi
Aygünün nazı,
Bəhlulun sazı.

Evin işığı,
Körpə aşığı.
Hər yaraşığı –
Aygünün nazı,
Bəhlulun sazı.

Gözəldir adı,
Şirindir dadı.
Toy-tamaşadı
Aygünün nazı,
Bəhlulun sazı.

Yaz küləyidi,
Dağ çiçəyidi.
Gül ləçəyidi
Aygünün nazı,
Bəhlulun sazı.

SAĞ OLSUN NƏNƏ

Bu limonumdu,
Bu portağalım.
Bu yağlı kökəm,
Şirin qoğalım.
Bu almalarım,
Bu da nar payım.
Meyvələr ilə
Doldu qucağım.
Gör nələr yığıb
Göndərib mənə,
Sağ olsun nənə,
Sağ olsun baba!

MÜNDƏRİCAT

Bahar oldu, bahar oldu 5
Cavanlıq 6
Anam ağlayanda 7
Məhər dayı 9
Yetər 10
Bizə gəldi 11
Ay gözəl 12
Borçalı lövhələri 13
Axşam-axşam 14
Qabağında 15
Həyatda insan kimi yaşamaq istəyirəm 16
A gözlər 18
Ballı bulaq 19
Palıd ağacı 20
Nə səfalıdı 21
Kəndimiz 22
Səadət nəğməkarı 24
Yaxşı-yaman 26
Sinəmdədir 27
Bilmirəm 28
Dönür 29
Şeirim 30
Dostum-düşmənim 31
Şairin ömrü 32
Sönən deyiləm 34
Vaqif 35
Babalar 36
Yaşamaq həvəsi 37
Meşə 38
O, könüldür 39
Mən olaydım 40
Saz 41

Olur....42
Gözlər....43
Məhəbbətimiz....44
Mənim dərmanım....45
Məktublar olmasaydı....46
Mənim şeirim....47
Bu saz....48
Barmaqlar....50
Qocalırıq....51
Bir olmur....52
“Nəğmə istəyirəm, elə nəğmə ki”....53
Ustad aşığa....54
Maral....55
Aşıq Abbas....56
Bilməsin....57
Qoşma....58
Zəlzələ....59
Təbiilik....60
Ömür....61
Getsin, gəlməsin....62
Dönərdim....63
Qılınc və xəncər....64
Doğmayam....65
Dalğanın....66
Qoşma....67
Şairi....68
Mən kəndə gəlmişəm....69
Kəndimizdə....70
Yaman qocalıb babam....71
Yollar....72
Yenə bahar gələr....73
Ələsgərə....74
Xatirə....75
Dünya....76
Ümid bağlayanda....77
Sənsiz....78
Dağ eşqi....79
“Eldən ilham alıb hər zaman, hər an”....79

“Fil adı verirlər sərçəyə bəzən” 79
“Kökü baltalanmış ağaca döndüm” 80
Bir vaxt 81
Narahat olma 82
Dünyada 83
Nənəmə 84
Qıymasın 85
Qalar 86
Bilmirəm 87
Dedim 88
Onda 89
Dağlar 90
Yarı 91
Dönə-dönə 92
Yenə 93
Mən olum 94
Sənsiz 95
Qocalıbsan 96
Amanatı 97
Gedəndə 98
Zarafatyana 99
Gözəl axtarır hamı 100
Çünki 102
Neyləyəsən 103
Yaylıq 104
“Deyirəm, bu dünya sevənlər üçün” 105
İnsan darıxanda 106
“Xoşum gəldi sözündən” 107
“Yetimlik dünyada yaman bəladı” 108
“Heç bilmədim necə deyim sevirəm” 109
Sən 110
Gətirərsən 111
Dünyanın 112
Payız haqqında natamam parça 113
Divani 114
Dodaqdəyməz təcnis 115
Müxəmməs 116
Düşməyəydi 117

“Könlüm sevəni ver mənə” 118
Bizə 119
Məni 120
Mənim 121
Təcnis 122
Təcnis 123
Dodaqdəyməz dördlük 124
Dodaqdəyməz təcnis 125
Dodaqdəyməz dördlük 126
Dodaqdəyməz dördlük 127
Dodaqdəyməz təcnis 128
Məni 129
“Ay nainsaf, döndəribsən üzünü” 130
Dodaqdəyməz təcnis 131
Təcnis 132
Dodaqdəyməz təcnis 133
Təcnis 134
Təcnis 135
Bölündü 136
Könül 137
Təcnis 138
Təcnis 139
Bisavad aşığa 140
Kəpənəkçinin 141
Dodaqdəyməz təcnis 142
Oğluna 143
Dəyərmiş 144
Çoxdandı könlümə bir gəzmək düşüb 145
“Of! Sənə güllə dəysin” 147
Oldu 148
Ağladı 149
Məni 150
Leyli 151
Ay ustad 152
Mənim 153
Lövhə 154
Nəsimiyə 155
Qardaşım 156

Neyçalan Qara Hümmətə 157
“Yaxan dağlar” 158
“Səni kül eylərəm, imkanım olsa” 159
“Görmək istəmirdin əzəldən məni” 160
Dağlar 161
Biz də əyri baxsaq 162
Ağlayar 163
Dodaqlar 164
Sevgilim 165
Səməd Vurğuna 166
Görüm 167
“Nə bəlalı karvan oldum, dərd aparmaq peşəm oldu” 168
Arzu-istək 169
Nənəmə.....170
Ata-ana 171
Sükut.....172
Lövhə 173
Nigaran oldum 174
Hədiyyə 175
Kitab dükanında 176
Dadına görə 177
Qurban.....178
Bir qocanın dilindən.....179
Böyük Sabirə.....180
Məhəbbət 181
Qoşma.....182
Natamam bir təcnis 183
Düşdü 184
Şöhrət 185
Qəzəl 186
Qəzəl.....187
Sarıtel 188
Neylədin 189
Dedim-dedi.....190
Dedim 191
Havasını 192
Qocalıq.....193
Dərdimi 194

Dodaqdəyməz gəraylı....195
“Yuvadı, məskəndi dərdə, sevincə” 196
Dil....197
“Etibar olarmı özgə dağlara”....198
“Güldürər üzünü yar, yar olanda” 199
Damcılar 200
Sənə 201
“Yuxunun əlindən alıb gecəni”....202
“Nə gəl bənövşətək boyun əy, gözəl”....203
Bilmirəm 204
Vətən 205
Bacı 206
Ay ana....207
Qaldı....208
Düşüncələr 209
“Ey ilhamım! Zəhərin də şirinmiş” 210
“Həyatın verdiyi dərdə, sevincə”....211
Bir yuxu görürdüm....212
Dedim 213
“Əməkdə, zəhmətdə, hərəkətdədir” 214
Gələr 215
Ağrıyır ürək....216
Vətən 217
Qoşma....218
Səni....219
Toyunu görüm dedi 220
Gözəllər yıxıb 221
Beşik....222
Dənizə baxıram 223
İşığında....224
Öpüşəndə....225
Deyir....226
Kəndə gəliş....227
Yaxşı ki....229
Qayıtmalıydım 230
Deyildi 232
Ovçu da var, ovçu da 233
Olub....234

Əsməsin 235
Heyif.....236
Şairin 237
Vətən nəğmələri 238
Danlama 239
Arasında 240
Ömür istəmə 241
Gəzər 242
Yolların.....243
Ay bənövşə 244
Qaldı 245
“Müqəddəs eşqimiz xırdalanmasa” 246
“Ömrə qanad verən yollar” 247
“Küsmək də gözəldi, barışmaq olsa” 248
Gözlər məni 249
Sular 250
Gül 251
“El gözünə qurbanam” 252
Qoruya bilmədim 253
Tərpənər 254
Palıdlar oldu 255
Yollar.....256
Vaxtıdı 257
Belə gördüm 258
Baxa biləydim 259
Mənəm.....260
Şuşada palıd.....261
Şuşa 262
Şuşa qayaları 263
Şəhərdə bağa çıx.....264
Gözəllər 265
Səndən ötrü.....266
Şeirimə, sözümə 267
Oldu 268
O gözəl kimdirsə 269
Yarpaq.....270
Gözləyr.....271
Salarsan 272

Olmur 273
Sən ol 274
Baxma....275
Danışmadı 276
İnsan 277
Talıstan 278
Pərdədə....279
Könlümə düşən 280
Çiçək qəlbi 281
“Qatar” istəyirəm....282
Bitir....284
Kəpənəkçidə eloğlum Ziyəddinə....285
Axtarır 286
Neyləyim....287
Gətirməlidir 288
Mənim zirvəm ... .289
Üstümə 290
İlham 291
Silahdaşıyam 292
Qorxuram 293
“Beyindən bir fikrin toxumu düşsə” 294
Olanda 295
Çəkir 296
Uzaqlaşarsan....297
Ünvanım....298
Mənim yaddaşımda 299
Qıfılbənd....300
Olsun 301
Qızlar....302
Arzular sabaha aparır məni 303
İstəyirəm 305
Muraz üstədi....306
Gətirrəm 307
Çağırır....308
Kürə baxdım....309
Mənim 311
Yerdə 312
Gedəsiyəm mən 313

Qaldı 314
Apardı 315
Saxladı 316
Şeir yazacaq.....317
Buludlar.....318
Yandırır.....319
İstədim 320
Nə bilsin 321
Dünyası 322
Aşıq Əkbərə 323
Öyrən 324
Keçir.....325
Söhrab Tahirə 326
Niyə yatmırsan, ana 328
Qıymasın 329
Elm ocağı, alim nəfəsi 330
Ana 331
“Doğma Xəzər, xeyli var ki, görüşmürük”.....332
Tovuz görüşləri.....333
Nənələr yaşayır nəvələr üçün 334
Ürəklə dedim.....336
Şahbulaq 337
Yaylaqda 338
Yatır 339
Payızda 340
Olar.....341
Quzum 342
Qardaş həsrəti.....343
Qoymaram.....344
Şahdağ 345
Güllərin.....346
Bu dağların 347
Sağlıq 348
Qayıdasıyam 349
Kövrəlir 351
Danışırdı.....352
Gedim.....353
Var imiş 354

Gözəllik önündə 355
Yola sal məni 356
Yaylağın 357
Təzə-təzə 358
“Payız yağışıdır bu axşam yağan”.....359
Bakı 360
Təcnis 362
Dağlar 363
Ata heykəli 364
Deyil 365
Nədir ki.....366
Təcnis 367
Səni görməyəndə 368
Vələsli bulaq 369
Bənövşə ətirli 370
Dəqiqələr var 371
Ürəyə bax 372
Eşqimiz.....373
İnsan 374
Gördüm Arazı 375
Gözləmə 376
“Bəzənib torpağın qoynu, qucağı” 377
Necə qaytarım 378
Qalar 379
Daha 380
Olmaz 381
Bilməsəm 382
Güllər, tikanlar 383
Təcnis 384
Çəməndə.....385
Göyçənin 386
Tərtər 387
Gec açılmasın 388
“Vaxtsız ayrılığın ağrıdır məni” 389
Gəlir.....390
Təbiətin önündə 391
Deyirəm.....392
Bağladı 393

Tökülər 394
Qaldı 395
Verərdim 396
Hazırlanırmış 397
Yaradaydı.....398
“Yenə şər qarışdı, gün axşam oldu” 399
“Həyatdan ikinci ömür istəmə”.....400
Göyçədə 401
Üstədi 402
Küsəni barışdırır 403
Ay nənələr, babalar.....404
Bəhlulun sazı 405
Aygünüm 406
Əkiz tayı 407
Sürücüyəm 408
Niyə göstərmir.....409
“Bəhlul yaman dəcəllənib” 410
Aygünün nazı, Bəhlulun sazı 411
Sağ olsun nənə.....412

Şərq East
Qərb West
1986-cı ildən since 1986

"Şərq-Qərb" Nəşriyyat Evinin məhsuludur.
www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul **SEVİL İSMAYILOVA**
Texniki redaktor **PƏRİNAZ SƏMƏDOVA**
Dizayner **ELŞƏN QURBANOV**
Səhifələyici **XƏQANİ FƏRZALIYEV**
Korrektor **ELŞAD ÇOBANLI**
Nəşriyyat direktoru **RASİM MÜZƏFFƏRLİ**

Çapa imzalanmışdır: 17.11.2012. Format 60x90 1/16. Ofset çapı.
Fiziki çap vərəqi 26,5. Sifariş N 225. Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49



"**Şərq-Qərb**" Nəşriyyat Evinin bütün kitablarının toplusu:
http://www.eastwest.az/az/books/ ünvanda